


Samir Firdovsioğlu

SÜBH

namazının vaxtı

ELMİ ARAŞDIRMA

الْحَمْدُ لِلَّهِ الَّذِي هَدَانَا
لِهَذَا وَمَا كُنَّا لَنَهْتَدِي لَوْ لَا
وَأَشْهَدُ أَنْ لَا أَنْ هَدَانَا اللّٰه
َحْدَهُ لَا إِلَهَ إِلَّا اللّٰه
شَرِيكَ لَهُ شَهَادَةً أَبْلُغُ بِهَا
كَمَالَ رِضَاهُ وَأَشْهَدُ أَنَّ
سَيِّدَنَا مُحَمَّداً عَبْدُهُ
وَرَسُولُهُ الَّذِي فَضَّلَهُ عَلَى
مَنْ سِوَاهُ صَلَّى اللّٰه وَسَلَّمَ

عَلَيْهِ وَعَلَى آلِهِ وَصَحْبِهِ
وَمَنْ نَصَرَهُ وَوَالَاه

Bu kitabı xüsusilə illər öncə bu məsələ ilə maraqlanan və ona önəm göstərən Ömər qardaşıma hədiyyə edirəm

Mündəricat

Müqəddimə 7
BİRİNCİ HİSSƏ 10
Sübh namazı, əhəmiyyəti və vaxtı 11
Yalançı fəcr nədir? 18
Həqiqi fəcr nədir? 23
Əks görüş 26
Fayda: Sələf suhur vaxtının təyinində ixtilaf edib 32
Fayda: Nə üçün ayədə qara sap deyilir? 37
İKİNCİ HİSSƏ 38
Təqvimlər 39
Fayda: İmsakı fəcr vaxtından bir müddət öncəyə salmaq 41
Tarixən vaxtlar necə hesablanıb? 42
Müasirlərimizin ixtilafı 49
Aparılmış müşahidələr və araşdırmalar 52
Nə *üçün müşahidələr* fərqlənir? 56
İşıq çirklənməsi 58
Fayda: Nə üçün rənglər fərqlənir? 62
Müsəlman heyətşünasların nəzərində həqiqi fəcr 64
Fayda: əl-Kəşmiri'nin *astronomlara nisbət* etdiyi rəy 69
ÜÇÜNCÜ HİSSƏ 71
Astronomlar ilə fəqihlər arasındakı ixtilaf 72
əl-Ğazəli 73
əl-Qarafi 76
İbn Teymiyyə 80
İbn Həcər əl-Heytəmi 83
Hədramut alimləri 85
Vaxtın təyinində təqvimlərə etimad etmək olarmı? 91
Fayda: Namazın vaxtında şəkk edərək qılmaq 96
Fayda: Fəcrin bizim gözümüzdə aydın şəkildə seçilməsi şərtdirmi? 98

Son müzakirə 100
YEKUN 104
Məsələ haqqında yazılmış ədəbiyyat 105

MÜQƏDDİMƏ

Oxuculara t*əqdim etdiyimiz bu kitab* şəriətin ən əzəmətli ibadəti olan namazla bağlı bir kitabdır. Bu kitabımızdakı mövzu ilə bizim əlaqəmizin bir tarixçəsi vardır. Bir neçə il öncə bu məsələ ilə maraqlandığımızda tələsərək bir qənaətə gəldik və ibadətlərimizin və müsəlman qarındaşlarımızın ibadətlərinin doğruluğu üçün narahatlıq hiss etdiyimiz üçün bu barədə kiçik bir yazı hazırladıq və ehtiyatlı davranmağı çağırdıq. Təqvimlərə etiraz edənlərin haqlı olduqlarından əmin idik. Üstündən bir müddət keçdikdən sonra Doktor İbrahim əs-Subeyhi'nin kitabı əlimizə keçdi və kitabı bir qədər oxuduqdan sonra əvvəlki qənaətimizin yerindən laxladığını hiss etdik, artıq əvvəlki qədər əmin deyildir. Ona görə də bu barədə *soruşan müs*əlmanlara məsələnin həqiqətən də ixtilaflı olduğunu söyləyirdik. Bunu son bir neçə ildə keçdiyimiz tərəddüd mərhələsi kimi də adlandırmaq olar.

Sonuncu ramazan ayında bu məsələ bir daha gündəmə oturdu. Bu barədə sual verənlərin sayı çoxaldı. İşin qəribə tərəfi budur ki, sübh namazın bütün il boyu davam etsə də xüsusilə ramazan ayında sübhün vaxtı ilə maraqlananların sayı çoxalır. Görünür ki, müsəlman qardaşlarımız səhur yeməyində daha həssasdırlar. Ramazan ayının əvvəllərində qardaşlarımdan biri telefonuma zəng etdi, bəzi sualları var idi. İlk sualı sübhün təqvimdə göstərilən vaxtı barəsində idi. Qardaşımız dəniz kənarında yaşadığını mənə xatırlatdı. Dediyinə görə hər gün təqvimə görə səhurunu yeyir və sübh namazını qılır, lakin əlavə etdi ki, təqvimdə göstərilən vaxtda üfüqdə heç bir işıq görə bilmir. Bu isə təbii ki, onu narahat edirdi. Üstəlik süleymaniyyə camaatından olan şəxslərlə müzakirəsində onların təqviminin Quran ayəsi ilə doğru gəldiyini də söylədi. Allahu təalə buyurur: "**Sübh açılınca ağ sap qara sapdan sizin üçün aydınca seçilənə qədər yeyib için.**" [əl-Bəqara, 187] Qardaşıma bu problemin yeni bir problem olmadığını, bunu süleymanilərin və ya müasirlərdən bir başqasının k*əşf etm*ədiyini, lakin qədim zamandan bəri mövcud olduğunu söylədim, sadəcə olaraq bu problem müasir zamanımızda yeni bir çalar alıb. Ona bu barədə bir yazı yazacağımı xəbər verdim. Həmin gündən bu barədə yazımızı yazmağa başladıq və məsələ haqqında daha öncə oxuduğumuz materialları bir daha nəzərdən keçirməli olduq. Bu səfər *daha ciddi bir* şəkildə mütaliə etdik və bu araşdırmamız bizi çox maraqlı bir səyahətə apardı. Məsələni hər tərəfli

ələ almaq üçün onun şəriətlə bağlı yönlərini araşdırmaqla yanaşı astronomiya elmi ilə bağlı olan yönlərini də nəzərdən keçirməli olduq.

Bu səyahətimiz əsnasında çox maraqlı mülahizələr ilə tanış olduq. Mövzu haqqında yazmış bəzi şeyxlərin və ya elm tələbələrinin əvvəlki alimlərimizdən gətirdikləri sözləri xətalı bir məzmunda təqdim etdiklərinə şahid olduq. Onların bir çoxunun astronomik biliklərdə doğru olmayan təsəvvürlərdən çıxış etdiyini gördük. Araşdırdıqca qaranlıq bir tunelda işıq görməyə başladıq və bütün bu ixtilafların səbəbinin sadəcə bir nöqtəyə dayanmadığını, lakin bir-biri ilə bağlı olan çox sayda nöqtələrə dayandığını gördük.

İlk öncə bu araşdırmanı bir məqalə şəklində müsəlmanlar üçün təqdim etməyi düşünürdük. Lakin oxuduqca yazımız uzandı və bunun məqalə hüdudlarından kənara çıxdığını gördük. Həmçinin bir çox yerdə məqsədimizi şəkillərlə izah etməyin ehtiyacını hiss etdik. Bu da öz növbəsində bu işin məqalə ilə tamamlanmayacağını bizə göstərdi. Beləliklə də kiçik bir kitab əmələ gəldi. Ümid edirik ki, bu kitabımız müsəlmanlar üçün faydalı olacaq və kitabın daha da faydalı olması üçün müsəlmanlar oxuduqlarını digər müsəlmanlara çatdıracaqlar.

Bu kitabı ümumi məzmun baxımından dörd hissəyə bölmək olar: müqəddimə, mövzunun astronomik cəhətdən izahı, mövzunun şəriət cəhətdən izahı və yekun. Kitabın sonunda bütün araşdırmanı yekunlaşdırmağa çalışdım. Kitabın tamamını oxumaq istəməyənlər bir başa onun yekun hissəsini oxuya bilərlər və bununla da orada gəldiyimiz nəticələrə görə kitabı oxumağa dəyib dəyməyəcəyinə qərar verə bilərlər. Sözsüz ki, kitabımızda harada doğruya isabət etmişiksə bu, Allahdandır və harada xəta etmişiksə bu, bizim naqis biliklərimizdən, aciz nəfsimizdən və şeytandandır. Mükəmməl olan tək Allahdır! Əgər bir yerdə hansısa bir məsələdə xəta etdiyimizi düşünürsüzsə sizin üzərinizdə olan haqqımız namına bizə nəsihət etmənizi sizdən xahiş edirik. Bunun üçün bizim internet səhifəmizə yaza bilərsiz.

Samir Firdovsioğlu

10 şəvval 1436 / 26 iyul 2015
Göteborg şəhəri, İsveç Krallığı
www.favaid.com

BİRİNCİ HİSSƏ

(Məsələnin şər'i tərəflərinin müzakirəsi)

SÜBH NAMAZI, ƏHƏMİYYƏTİ VƏ VAXTI

فَإِذَا قَضَيْتُمُ ٱلصَّلَوٰةَ فَٱذْكُرُوا۟ ٱللَّهَ قِيَـٰمًا وَقُعُودًا وَعَلَىٰ
جُنُوبِكُمْ ۚ فَإِذَا ٱطْمَأْنَنتُمْ فَأَقِيمُوا۟ ٱلصَّلَوٰةَ ۚ إِنَّ ٱلصَّلَوٰةَ كَانَتْ
عَلَى ٱلْمُؤْمِنِينَ كِتَـٰبًا مَّوْقُوتًا ﴿١٠٣﴾

"**Namazı bitirdikdən sonra ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edin. Təhlükə sizdən sovuşduqda isə, namazı (lazımi qaydada) qılın. Çünki namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir.**" [ən-Nisə, 103]

Allah – cəllə cələluhu – bu ayədə biz möminlərə namazın vaxtlarının müəyyən edildiyini xəbər verir. Ona görə də fəqih alimlərimiz buyururlar ki, vaxtından öncə qılınan namaz səhih deyildir və Allah o namazı qəbul etməz. Ona görə də mömin üçün namazın vaxtını bilməsi və namazlarını vaxtında qılması çox önəmlidir. Quranda namazın vaxtlarına işarələr *edilmişdir.*

فَٱصْبِرْ عَلَىٰ مَا يَقُولُونَ وَسَبِّحْ بِحَمْدِ رَبِّكَ قَبْلَ طُلُوعِ ٱلشَّمْسِ
وَقَبْلَ ٱلْغُرُوبِ ﴿٣٩﴾

"**Sən onların dediklərinə səbr et! Gün doğmamışdan əvvəl və batmamışdan əvvəl Rəbbini həmd ilə tərifləl**" [Qaf, 39]

Bu ayədə Allah – təbərakə va təalə - bizə sübh namazı ilə əsr namazına *işarə* edir. Hər iki namazın son vaxtlarını göstərir. Sübh namazının son vaxtı günəşin çıxdığı vaxtdır və əsr namazının son vaxtı günəşin batdığı vaxtdır. *Bir başqa ayədə* isə buyurur:

وَأَقِمِ ٱلصَّلَوٰةَ طَرَفَيِ ٱلنَّهَارِ وَزُلَفًا مِّنَ ٱلَّيۡلِۚ إِنَّ ٱلۡحَسَنَٰتِ يُذۡهِبۡنَ ٱلسَّيِّـَٔاتِۚ ذَٰلِكَ ذِكۡرَىٰ لِلذَّٰكِرِينَ ١١٤

"**Gündüzün iki başında (əvvəlində və axırında), və gecənin bəzi saatlarında namaz qıl! Həqiqətən, yaxşı işlər pis əməlləri silib aparır. Bu, yada salanlar üçün bir xatırlatmadır.**" [Hud, 114]

Alimlər arasındakı məşhur görüşə görə *burada üç namaza işarə* vardır. Gündüzün əvvəlindəki namaz ilə sübh namazına işarə *etmişdir və* bəzi alimlər bunun sübh namazı olmasında ittifaq olduğunu nəql edirlər. Gecənin bəzi saatlarında qılınan namaz isə *işə* namazıdır. Lakin gündüzün axırında qılınan namazın hansı namaz olmasında ixtilaf ediblər. İbn Abbas, əl-Həsən əl-Bəsri, Abdurrahmən bin Zeyd bin *Əsləm*'dən gələn, ət-Tabəri və bir çox *təfsir aliminin üstünlük verdiyi görüşə* görə bu, məğrib namazıdır. Məğrib namazının gündüzündə axırındakı namaz olduğunu söyləyənlərə görə məğrib namazı gündüzün sonuna bitişikdir. İkinci görüşə görə isə burada qəsd olunan əsr namazıdır və *bu görüş Mücahidə* və Muhəmməd bin Kə'b əl-Qurazi'yə aiddir. Yenə *bir başqa yerdə* deyir:

أَقِمِ ٱلصَّلَوٰةَ لِدُلُوكِ ٱلشَّمۡسِ إِلَىٰ غَسَقِ ٱلَّيۡلِ وَقُرۡءَانَ ٱلۡفَجۡرِۖ إِنَّ قُرۡءَانَ ٱلۡفَجۡرِ كَانَ مَشۡهُودٗا ٧٨

"**Gün meyl edəndən gecənin qaranlığınadək namaz qıl və sübh çağı Quran oxu! Çünki sübh çağı oxunan Quranın şahidləri olur.**" [əl-İsra, 78]

Bir sıra alimlərə görə burada beş namazın beşinə də *işarə* vardır. Onlara görə günəş*in meyl etmə*sindən başlayaraq qılınan namazlar zöhr və əsr namazlarıdır. Gecənin qaranlığına qədər qılınan namazlar isə məğrib və *işə* namazlarıdır. Sübh çağı oxunan Quran isə sübh namazıdır. Ayədə keçən günəş*in meylini günəşin üfüqdə* batması kimi başa düşənlərə görə isə ayədə üç namaz qəsd olunur. Günəş *batarkə*n qılınan məğrib namazı, gecənin qaranlığında qılınan işə namazı və sübh çağında qılınan sübh namazının bu üç namaz olduğunu deyirlər. Quranda namazların vaxtlarına işarə edən və mövzuda dəlil gətirilən əsas ayələr bu üç ayədir. Bu ayələrin üçündə də sübh namazının keçməsi barəsində alimlərin ittifaq etdiyini deyirlər. Allah bir *başqa ayədə* belə əmr edir:

حَٰفِظُواْ عَلَى ٱلصَّلَوَٰتِ وَٱلصَّلَوٰةِ ٱلۡوُسۡطَىٰ وَقُومُواْ لِلَّهِ قَٰنِتِينَ ﴿٢٣٨﴾

"**Namazları və orta namazı qoruyun və Allah qarşısında mütiliklə durun**" [əl-Bəqara, 238]

Bu ayədə orta namaz ilə qəsd olunanın sübh namazı olduğunu deyənlər arasında *Əbu Uməmə*, Cəbir bin Abdilləh, *Ənə*s bin Malik kimi səhabələr, Əbul-Aliyə, Ata bin *Əbi Rabə*h, İkrimə, və Mücahid kimi tələbələri, Malik və *əş-Şafi'i kimi məz*həb imamları vardır.[1] Beləliklə də buna əsasən Quranda ən çox zikr olunan namazın sübh namazı olduğunu deyə bilərik.

Cundub bin Abdilləh – radiyallahu anhu – deyir: "Allahın elçisi – səlləllahu aleyhi va səlləm – dedi: "**Kim sübh namazını qılarsa o, Allahın zimmətindədir, qoyun Allah sizi zimmətindən bir şeyə görə axtarmasın, yoxsa ona yetişər və onu cəhənnəm atəşinə atar.**"[2] Burada Allahın zimməti ilə qəsd olunan Onun zəmanətidir, yaxud da Onun verdiyi amandır. İbnul-Cəvzi'nin də izah etdiyi kimi "**hədisin mənası budur ki, kim sübh namazını qılarsa Allahdan zəmanət almış olar, ona görə də kiminsə ona bir zülm ilə əziyyət verməməsi vacibdir və hər kim əziyyət verərsə Allah verdiyi zəmanət ilə onu hesaba çəkər.**"[3]

Uməra bin Rueybə deyir: "**Allahın elçisini – səlləllahu aleyhi va səlləm – belə deyərkən eşitdim: "Günəş çıxmadan öncə və batmadan öncə namaz qılmış bir kimsə atəşə girməz.**"[4] Aliyyul-Qari dedi: "**Yəni davamlı əda edərsa.**"[5] *Əbu Musa əl-Əşari isə* deyir: "**Allahın elçisi – səlləllahu aleyhi va səlləm – dedi: "Kim iki bərdi qılarsa cənnətə daxil olar.**"[6] Bərd isə "soyuq olan" deməkdir və qəsd olunan sübh ilə əsr vaxtlarıdır, çünki bu vaxtlarda günəş ən zəif olduğu üçün gündüzün

[1] Bu məsələ üzərində *ixtilaf edilmiş məsələlərdən* biridir. əl-Hafiz İbn Həcər "Fəthul-Bəri" kitabında bu məsələdə iyirmiyə yaxın görüş olduğunu bildirir. əl-Hafiz Abdulmumin əd-Dimyəti bu barədə ayrıca "K*əşful*-Muğatta fi Təbyinis-Salətil-Vusta" adlı bir kitab yazmışdır. Lakin bu barədə ən m*əşhur* olan iki görüşdür: sübh namazı və əsr namazı. Bunun əsr namazı olması *əksər* alimlə*rin görüşüdür və* bu, *Əbu* Hənifə'nin və İmam *Əhmə*din məzhəbidir.

[2] "Sahih Muslim" (657)

[3] "K*əşful-Muşkil min Hə*disis-Sahiheyn", 2/49;

[4] "Sahih Muslim" (634)

[5] "Mirqatul-Məfəti*h Şərh Mişkə*til-Məsabih", 2/540;

[6] "Sahih əl-Buxari" (574); "Sahih Muslim" (635)

ən soyuq vaxtları sayılır. Sübh namazının fəzilətləri haqqında varid olmuş hədislərin sayı çoxdur. Onların hamısı bu namazın önəmini göstərir.

Sünnət bizə bu namazın önəmini göstərdiyi kimi bu namazın qılınma vaxtını da bəyan etmişdir. Abdullah bin Amr deyir ki, Allahın elçisi – sallәllahu aleyhi va sәllәm – dedi: "**... sübh namazı fəcr girdikdən başlayaraq günəş çıxmadığı müddətdədir; əgər günəş çıxsa namaz qılmayın, çünki o, şeytanın iki buynuzu arasından çıxır.**"[1] Cəbir bin Abdilləh *əl-Ənsari deyir ki,* "**Cibril peyğəmbərin – sallәllahu aleyhi va sәllәm – yanına gəldi və dedi: "Dur və namaz qıl!" Sonra zöhrü günəş (zenit xəttini) keçdikdə qıldı. Sonra əsr vaxtında onun yanına gəldi və dedi: "Dur və namaz qıl!" Sonra əsri hər bir şeyin kölgəsi özü uzunluqda olduqda qıldı. Sonra məğribdə onun yanına gəldi və dedi: "Dur və namaz qıl!" Sonra günəş batdıqda namaz qıldı. Sonra işə vaxtı yanına gəldi və dedi: "Dur və namaz qıl!" Sonra şəfəq yoxa çıxdıqda namaz qıldı. Sonra fəcr vaxtı onun yanına gəldi və dedi: "Dur və namaq qıl!" Sonra fəcr(in işığı) çıxdıqda namaz qıldı...**"[2] ən-Nəsəi'nin rəvayətində isə Cəbir bin Abdilləh deyir: "**Cibril peyğəmbərə – sallәllahu aleyhi va sәllәm – namazların vaxtlarını öyrətmək üçün onun yanına gəldi. Cibril qarşıya keçdi və Allahın elçisi – sallәllahu aleyhi va sәllәm – arxasında durdu, insanlar da Allahın elçisinin – sallәllahu aleyhi va sәllәm – arxasında durdular. Sonra günəş (zenitdən) keçdikdə zöhrü qıldı və kölgə öz qaməti boyda olduqda gəldi daha öncə etdiyi kimi etdi; Cibril önə keçdi, Allahın elçisi – sallәllahu aleyhi va sәllәm – arxasında durdu və insanlar da Allahın elçisinin – sallәllahu aleyhi va sәllәm – arxasında durdu və əsri qıldı. Sonra günəş batdıqda (bir daha) onun yanına gəldi, yenə Cibril önə keçdi və Allahın elçisi – sallәllahu aleyhi va sәllәm – onun arxasında durdu, insanlar da Allahın elçisinin – sallәllahu aleyhi va sәllәm – arxasında durdular; o da məğribi qıldı. Sonra şəfəq yoxa çıxdıqda onun yanına gəldi, yenə Cibril önə keçdi və Allahın elçisi – sallәllahu aleyhi va sәllәm – arxasında durdu, insanlar da Allahın elçisinin – sallәllahu aleyhi va sәllәm – arxasında durdular; o da işə namazını qıldı. Sonra fəcr qopduqda onun yanına gəldi, beləliklə də Cibril önə keçdi, Allahın elçisi – sallәllahu aleyhi va sәllәm – arxasında durdu, insanlar da Allahın elçisinin – sallәllahu aleyhi va sәllәm – arxasında durdular və sübh**

[1] "Sahih Muslim" (612)

[2] "Müsnəd *Əhməd*", 22/408 (14538); ət-Tirmizi (150); ən-Nəsəi (1/263). Hədis səhihdir.

namazını qıldı. Sonra ikinci gün birinin kölgəsi onun qaməti uzunluğunda olduğu vaxtda onun yanına gəldi və dünən etdiyinin eynisini etdi, zöhrü qıldı. Sonra birinin kölgəsi iki qaməti uzunluğunda olduğu zaman onun yanına gəldi, dünən etdiyinin eynisini etdi və əsri qıldı. Sonra günəş batdıqda onun yanına gəldi, dünən etdiyi kimi etdi və məğrib namazını qıldı. Sonra yatdıq və oyandıq. Sonra yenə yatdıq və oyandıq. Sonra yanına gəldi, dünən etdiyi kimi etdi və işəni qıldı. Sonra fəcr uzadıqda və sabah girdikdə gəldi, ulduzlar da aşkarda bir-birinə girmiş şəkildə idi. Dünən etdiyinin eynisini etdi və sübh namazını qıldı və sonra dedi: "Bu iki namaz arasındakı vaxtdır."[1] İmam Malikin "əl-Muvatta" kitabında isnadı ilə rəvayət etdiyi kimi xəlifə Ömər bin əl-Xattab valisi *Əbu* Musa əl-*Əşari'yə* yazaraq deyir: " **… ulduzlar (səmada) bir-birinə girmiş şəkildə aşkar göründükdə sübhü qıl!**"[2] *Aişə* anamız isə bu barədə bizə bu məlumatları verir: "**Mömin qadınlar peyğəmbər ilə - səlləllahu aleyhi va səlləm – birlikdə torbalarına bürünmüş halda fəcr namazında iştirak edərdilər, sonra namazı bitirdiklərində evlərinə qayıdardılar və qaranlıqdan onları heç kim tanımazdı.**"[3] Bu və digər xəbərlərin ifadə etdiyi məna budur ki, sübhün girməsi üçün səmanın işıqlanması şərt deyildir, əksinə üfüqdə fəcrin ilk ağartısı əmələ gəldikdə səma hələ də qaranlıq olur və səmadakı ulduzlar aydın şəkildə görünür, ulduzların çoxluğunu, bir-birinə sıx olduğunu vəsf etmək üçün hədisdə onların "bir-birinə *girmiş*" şəkildə olduğu deyilir. Fəcrin ilk vaxtına dəlalət edən *ən aşkar dəlillərdən* biri də Allahın – cəllə cələluhu – bu sözləridir:

[1] "Sünən ən-Nəsəi" *(513); Şeyx* əl-Albani təhqiqində isnadının səhih olduğunu deyir.
[2] "əl-Muvatta" (7), Abdulbəqi təhqiqi
[3] "Sahih əl-Buxari" (578); "Sahih Muslim" (645)

أُحِلَّ لَكُمْ لَيْلَةَ ٱلصِّيَامِ ٱلرَّفَثُ إِلَىٰ نِسَآئِكُمْ ۚ هُنَّ لِبَاسٌ لَّكُمْ
وَأَنتُمْ لِبَاسٌ لَّهُنَّ ۗ عَلِمَ ٱللَّهُ أَنَّكُمْ كُنتُمْ تَخْتَانُونَ أَنفُسَكُمْ
فَتَابَ عَلَيْكُمْ وَعَفَا عَنكُمْ ۖ فَٱلْـَٰٔنَ بَٰشِرُوهُنَّ وَٱبْتَغُوا۟ مَا كَتَبَ
ٱللَّهُ لَكُمْ ۚ وَكُلُوا۟ وَٱشْرَبُوا۟ حَتَّىٰ يَتَبَيَّنَ لَكُمُ ٱلْخَيْطُ ٱلْأَبْيَضُ مِنَ ٱلْخَيْطِ
ٱلْأَسْوَدِ مِنَ ٱلْفَجْرِ ۖ ثُمَّ أَتِمُّوا۟ ٱلصِّيَامَ إِلَى ٱلَّيْلِ ۚ وَلَا تُبَٰشِرُوهُنَّ وَأَنتُمْ
عَٰكِفُونَ فِى ٱلْمَسَٰجِدِ ۗ تِلْكَ حُدُودُ ٱللَّهِ فَلَا تَقْرَبُوهَا ۗ كَذَٰلِكَ
يُبَيِّنُ ٱللَّهُ ءَايَٰتِهِۦ لِلنَّاسِ لَعَلَّهُمْ يَتَّقُونَ ﴿١٨٧﴾

"**Orucluq gecəsi zövcələrinizlə yaxınlıq etmək sizə halal edildi. Onlar sizin üçün bir libas, siz də onlar üçün bir libassınız. Allah bilir ki, siz öz nəfsinizin tələbinə dözə bilmirsiniz. Elə buna görə də O, tövbənizi qəbul edib sizi bağışladı. Artıq onlara yaxınlaşın və Allahın sizin üçün bəyəndiyinə nail olmağa çalışın. Dan yeri sökülənə qədər yeyin-için. Sonra gecəyədək orucunuzu tamamlayın. Məscidlərdə etikafda olduğunuz zaman onlarla yaxınlıq etməyin. Bunlar Allahın sərhədləridir, onlara yaxınlaşmayın! Allah Öz ayələrini insanlara belə bəyan edir ki, bəlkə (Ondan) qorxalar.**" [əl-Bəqara, 187]

Bu ayədə Allah ramazan orucunda yeməyin, içməyin və həyat yoldaşı ilə yaxınlıq etməyin hansı vaxta qədər halal olduğunu bəyan etmişdir. Bu da "ağ sapın qara sapdan aydınca seçildiyi" vaxtdır. Allahın bu ayədə fəcr işığının gecənin zülmətində seçilməsini "ağ sap" olaraq vəsf etməsi alimlərin əksəriyyətinin fəcrin başlanğıcı üçün gətirdikləri ən aşkar dəlillərdən biridir. Bəzi alimlər ona görə də bu ayənin məsələ haqqında nass[1] olduğunu deyiblər. Əbul-Qasim Burhənuddin əl-Kirməni (vəfatı hicri 505) "Ğaraibut-Təfsir va Acəibut-Təvil" kitabında deyir: "**Sap adlanmışdır, çünki ilk zühur etdikdə sap kimi nazil olur və sonra yayılır.**"[2] Təfsir kitablarına nəzər saldıqda alimlərimizin sözlərindən aydın şəkildə başa düşülür ki, ayədə ağartının "sap" şəklində əmələ gəlməsi onun ilk öncə nazik və uzun olaraq

[1] Nass ilə qəsd etdikləri isə təvilə tabe olmayan qəti bir dəlil olmasıdır.
[2] "Ğaraibut-Təfsir va Acəibut-Təvil", 1/201;

çıxmasına görədir. Qarşıda bu barədə ər-Razi'nin və başqalarının sözləri zikr olunacaq.

Digər xəbərlər də göstərir ki, ramazanda müsəlmanlar səhuru fəcr girmədən öncə edirdilər, yəni gecə vaxtı edirdilər. İbn Həcər əl-Asqaləni "əl-Mətalib əl-Aliyə" kitabında deyir: "**Əbu Yalə dedi: Davud bin Ruşeyd bizə rəvayət etdi; Hafs – və o, İbn Ğiyas'dır – bizə Əş'as bin Səvvar'dan, o isə Əbu Hubeyra'dan, o da babası Şeybən'dən belə dediyini rəvayət edir: "Məscidə gəldim, içəri girdim və belimi peyğəmbərin – səlləllahu aleyhi va səlləm – otağına söykədim. Bir də gördüm ki, peyğəmbər – səlləllahu aleyhi va səlləm – səhur yeyir. Öskürdüm və bunun üzərinə o – səlləllahu aleyhi va səlləm – dedi: "Əbu Yəhyə, gəl səhur ye!" Dedim: "Mən oruc tutmaq istəyirəm." Dedi: "Mən də oruc tutmaq istəyirəm, amma müəzzinimizin gözündə zəiflik var, fəcr çıxmadan öncə azan verdi.**"[1] İbn Həcər "əd-Dirayə fi Təxric Əhədis əl-Hidəyə" kitabında isnadının səhih olduğunu deyir. əl-Beyhəqi bu hədisi rəvayət etdikdən sonra deyir: "**Hədisi təkcə Əş'as bin Səvvar rəvayət edir, əgər səhihdirsə o zaman sanki İbn Umm Məktum fəcrdən əvvəl azan verib və Allahın elçisi – səlləllahu aleyhi va səlləm – yeməyini dayandırmayıb. Xəbərlər bizim bu dediyimizin üzərində birləşir, fərqlənmir.**" əl-Beyhəqi burada müəzzin ilə qəsd olunanın İbn Umm Məktum olduğunu deyir, lakin İbnut-Turkməni bunun xəta olduğuna diqqət çəkir, çünki hədislərdə gəldiyi kimi gözündə zəiflik olan Bilaldır, İbn Umm Məktuma gəldikdə isə İbnut-Turkməni'nin dediyi kimi "**camaat ona "sübh girdi", "sübh girdi" deyənə qədər azan verməzdi.**"[2] Bu rəvayətlər də daha əvvəl təqdim etdiklərimizə müvafiqdir. Bəziləri rəvayətdə İbn Umm Məktuma səhabələrin "sübh girdi" deməyini dəlil göstərərək iddia ediblər ki, İbn Umm Məktum sübhün işığı səmada aydın şəkildə yayıldıqda azan verərdi. Lakin bu, rəvayətdə açıq şəkildə deyilməyən bir sözdür və sadəcə olaraq bəzi kimsələrin rəvayətdən çıxardıqları mənadır. Mövzumuzda irəlilədikcə bunu təfsilatlı şəkildə izah edəcəyik.

[1] ət-Tabərani, "əl-Mucəm əl-Kəbir" (7228); əl-Beyhəqi, "əs-Sünən əl-Kubra" (8023);

[2] "əl-Cəvhər ən-Nəqi", 4/219;

YALANÇI FƏCR NƏDİR?

Peyğəmbər – səlləllahu aleyhi va səlləm – deyir: "**Fəcr iki fəcrdir; canavar quyruğu kimi olan fəcrə gəldikdə o, namazı halal etməz, yeməyi də haram etməz. Üfüqdə uzanan fəcrə gəldikdə isə o, namazı halal edir və yeməyi haram edir.**"[1] Burada canavar quyruğuna bənzədilən fəcr yalançı fəcrdir və canavar quyruğuna bənzəməsi isə canavarın qara quyruğunda uzanan ağ zolaq kimi qara s*əmada şaquli* şəkildə qalxan ağ parıltı olmasına görədir.

*Ş*əriətdə yalançı fəcr olaraq adlanan fenomen astronomiyada "bürc işığı" (zodiacal light) adlanır. Həqiqi fəcrə isə "astronomik toranlıq" (astronomical twilight) deyirlər. Yalançı fəcr, *y*əni "bürc işığı" fenomeninin səbəbi isə günəş *ilə* Mars orbiti arasındakı fəzada üzən toz dənəciklərinin günəş şüalarını əks etdirməsidir. Ay günəş şüalarını əks etdirdiyi kimi fəzadakı bu toz dənəcikləri də günəş şüalarını əks etdirir, ona görə də yuxarıya doğru ehram formasını xatırladan bir işıqlıq əmələ gəlir. Yalançı fəcr haqqında bu deyilənlər müasir zamanımızda daha dəqiqliklə k*əşf olunmuş m*əlumatdır, qədimdə müsəlmanların astronomiya alimlərinin də söylədiyi buna yaxın olub, aradakı fərq isə bu olub ki, onlar bu toz yığınının Yür kürəsinin atmosferində olduğunu güman ediblər. Fəxrud-Din ər-Razi isə bunu tamamilə inkar edir[2] və bunun günəş *diskinin üfüqdə*n aşağıda dərəcə-dərəcə qalxması ilə əlaqələndirilməsinin yalnış olduğunu söyləyir. Ona görə əgər bu doğru olsaydı o zaman günəş şüaları üfüqdə görünmədən öncə səmanın yuxarı hissəsinin daha öncə işıqlanması lazım gələrdi. Lakin ər-Razi ixtisas cəhətdən astronom olmadığı üçün onun belə xətalar etməsi təəccüblü deyildir. Bu dediklərimiz yalançı fəcrin təbii fenomen kimi izahı idi. Həqiqi fəcr isə günəş şüalarının h*əqiqi ş*əkildə üfüqdə görünməsi, cənuba və şimala doğru yayılması ilə *müşahidə* olunur.

[1] əl-Hakim və əl-Beyhəqi rəvayət edir və *Ş*eyx əl-Albani "əl-Cəmi əs-Sahih"də (4278) səhih sayır.

[2] *Bunu ondan Şih*əbuddin əl-Alusi təfsirində zikr edir.



Şəkil 1: Yalançı fəcr

Təqdim etdiyimiz *bu* şəkildə aydın olaraq yalançı fəcrin işığını, yəni bürc işığını görə bilərik. Bürc işığına xarakterik olan onun bir qədər bir tərəfə meyl edərək uzanması və getdikcə nazikləşməsidir. Lakin bürc işığı hər bir zaman belə aydın görünmür. İlin fəsillərindən, havanın vəziyyətindən və coğrafi məkandan asılı olaraq asan və ya çətin görülə bilər.

Bəziləri yalançı fəcr ilə doğru fəcr arasındakı fərqləri sayarkən onu da qeyd edirlər ki, yalançı fəcr üfüqdən aralı olur, yəni üfüqə birləşmir. *Lakin* bu, dəqiq deyildir, çünki bu, havanın saflığı və ya bulanıq olması ilə bağlıdır. Atmosferin yerə yaxın hissəsində havadakı toz və dumanın çoxluğu səbəbindən yalançı fəcrin üfüqə yaxın hissəsindəkı işıqları itir, ona görə də yalançı fəcrin üfüqdən ayrı olduğu təəssüratı yaranır, lakin bunun hər zaman belə olması şərt deyildir.

*Bunun bir başqa s*əbəbi də ola bilər. O da səmada görünən kəhkəşanla (hacılar yolu, süd yolu) bağlı ola bilər. İngilislərin "milky way", türklərin "samanyolu", bizim və farsların isə "kəhkəşan" *adland*ırdıqları bu fenomen disk formasında uzanan qalaktikamızın qaranlıq səmada bir zolaq boyunca parıldamasıdır. Gecələr çox aydın səmada bunu görmək olur. Kəhkəşan şərq tərəfdə olduqda fəcr vaxtı girmədən öncə bəzən üfüqdən yuxarıya doğru qalxır və altındakı qaranlıq ortaya çıxır. Bu caman bəziləri onu yalançı fəcr ilə səhv sala bilir və elə güman edir ki, bu parıltı yalançı fəcrin parıltısıdır. Buna görə də elə güman edir ki, yalançı fəcr üfüqdən ayrı olur.

Bu, Alləmə əl-Qarafi'nin bir kitabında zikr etdiyi izahdır: "**Fəqihlərin bir çoxu (yalançı fəcrin) mahiyyətini bilmir və elə düşünür ki, o, bütün zamanlarda mövcud olur. Lakin o, qışın bir hissəsinə xasdır. Bunun səbəbi isə budur ki, bu, kəhkəşandır. Bir şəhərdə fəcr vaxtı olduqda fəcr çıxmadan öncə kəhkəşan çıxır, o isə ağ olur, buna görə də fəcr olduğuna inanırlar. Üfüqdən ayrıldıqda aşağı hissəsindən qaranlıq görünməyə başlayır və bundan sonra fəcr daxil olur. Qışdan başqa vaxtlarda isə gecənin əvvəli və ya ortası çıxır, lakin axırında yalnız həqiqi fəcr girir.**"[1] Maliki alimlərindən *Əbu Abdilləh* Şəmsuddin əl-Hattab ər-Ra'ini (vəfatı hicri 954) əl-Qarafi'nin bu sözlərini zikr etdikdən sonra deyir: "**Alimlərdən başqası onunla bu məsələdə razılaşmamış və demişdir ki, bu, bütün zamanlardan davam edir. Üstün olan da budur.**"[2] Belə *başa düşürük ki,* əl-Qarafi'nin təqdim etdiyi izah hamı tərəfindən qəbul olunmayıb. Lakin bu, əl-Qarafi'nin "əz-Zəxira" kitabındakı sözləridir. "əl-Yəvaqit" kitabındakı sözlərindən anlaşılan isə budur ki, əl-Qarafi'nin burada zikr etdiyi sözlər bəzi alimlərin iddiasıdır və orada əl-Qarafi bu sözlərlə razılaşmır, əksinə ona görə yalançı fəcr bütün il boyu olur.



Şəkil 2: Kəhkəşan şaquli olaraq

Bu şəkildə gördüyümüz kimi Kəhkəşan aydın şəkildə görünür və *şaquli* şəkildə yuxarıya doğru yüksəlir. Bəzən maili olur, bəzən də *üfüqü* şəkildə yayılır.

[1] "əz-Zəxira", 2/19;
[2] "Məvahibul-C*əlil fi* Şərh Muxtəsar Xalil", 1/399;



Şəkil 3: Üfüq boyunca uzanan Kəhkəşan

Bu şəkildə isə üfüq boyunca uzandığını görürük. Bəzən səmada bu qədər aydın şəkildə görünməsə də işıltı və ağartı olaraq görünə bilir. Təcrübəsiz insanlar bunu yalançı fəcr ilə səhv sala bilərlər, lakin yalançı fəcr ilə Kəhkəşanın parıltısı iki ayrı şeydir.

Yalançı fəcr ilə həqiqi fəcr arasında deyilmiş fərqlərdən biri də yalançı fəcrin çıxdıqda sonra itməsidir. Bunu əs-Səraxsi, ən-Nəvəvi, İbn Həzm, İbn Teymiyyə, İbnun-Nəccər və başqaları bunu kitablarında əlamətlərdən biri olaraq zikr edirlər. *Bu,* şəriət alimlərimizin sözüdür. Lakin bu nöqtədə astronomlar ilə onların arasında fərq vardır, çünki astronomlar yalançı fəcrin itdiyini qəbul etmirlər, onlara görə yalançı fəcr həqiqi fəcrə qədər davam edir. Fəqihlərdən bunu təsdiqləyənlər olub. əl-Xatib əş-*Şirbini* deyir: "**...yalançı (fəcr) isə fərqlidir, çünki o, qalxan şəkildə çıxır və canavarın quyruğunda olduğu kimi yuxarı qalxdıqca daha işıqlı olur... sonra arxasınca zülmət gəlir.**" Bu sözlərini şərh edən əl-*Buceyrimi haşiyə*sində deyir: "**...yəni bəzi vaxtlarda, olur ki, həqiqi fəcr ilə birləşir.**"[1] Said bin Muhəmməd Bə'Ali Bə'*işin* əd-Dəv'ani əl-Hədrami (vəfatı hicri 1270) "*Buşra* əl-K*ərim bi Ş*ərh Məsəilit-Tə'lim" kitabında deyir: "**... ondan öncə yalançı fəcr üzü yuxarı uzanaraq çıxır, üst hissəsi qalan hissəsindən daha işıqlı olur, onun arxasında zülmət girir və**

[1] "Tuhfətul-Həbib alə Şərhil-Xatib", 1/394;

ondan sonra qanad açıb uzanan şəkildə həqiqi fəcr girir və ikisi arasında beş dərəcə olur. Həm də olur ki, (yalançı fəcr) həqiqi fəcrə birləşir…"[1] İbn Həcər əl-Məkki bu cür deyən fəqihlərin üzrünü izah edərək deyir: "**Bundan da yaxşı izah budur ki, bu, görmə qabiliyyətlərinin fərqli olması ilə fərqlənir, görmə qabiliyyətləri isə fəsillərin fərqli olmasına görə, yaşadığı yerin keyfiyyətlərinin fərqli olmasına görə fərqlənir; hətta əslən heç görülə bilməyəcək qədər kiçilir. O zaman bu, onun itdiyini, arxasınca da zülmətin girdiyini deyənlər üçün bir üzr ola bilər.**"[2] Bu məsələdə fəqihlər ilə astronomiya alimləri arasında vaqe *olmuş ixtilaf sadəcə* olaraq yalançı fəcrin xüsusiyyətləri haqqındakı ixtilafdır və bu xüsusiyyətlə müsəlmanlara yalançı fəcri müəyyənləş*dirmə*k üçün lazım olan biliklərdir. Bu ixtilafın fəcrin başlanğıc vaxtını təyin etməyə heç bir təsiri yoxdur.

[1] "Şərh əl-Muqaddimətil-Hədramiyyə", səh: 174;
[2] "Tuhfətul-Muhtəc", 1/427;

HƏQİQİ FƏCR NƏDİR?

Kitabımızın əvvəlində gətirdiyimiz ayə və əsərlərdən fəcr haqqında ümumi bir təsəvvür formalaşdı. Lakin bu təsəvvürün bir qədər küt olduğunu, itilənməyə, daha çox təfsilatla dəqiqləşdirilməyə ehtiyac duyduğunu hiss etmək olar.

Əksər alimlərin və dörd məzhəbin görüşü budur ki, fəcr üfüqdə əmələ gələn ilk ağartıdır. Bunun üçün ən əsas dəlilləri yuxarıda zikr olunmuş ayədəki bu sözlərdir: "**Dan yeri sökülməndə ağ sap qara sapdan aydınca seçilənə qədər yeyin-için.**" Bu ayədən təfsir alimlərimiz bu sual ilə bağlı iki mühim nöqtəni başa düşüblər. Birinci nöqtə budur ki, fəcrin girməyinin əlaməti olan işıq ağ olan işıqdır. İkinci nöqtə isə budur ki, həmin işığın yayılmış şəkildə olması şərt deyildir, lakin "sap" kimi nazik olması kifayət edir, çünki önəmli olan fəcrin girməyinin əlamətinin insanlara aydın şəkildə görünməsidir. Şəmsul-Əimmə əs-Səraxsi deyir: "**Sadiq/həqiqi fəcr üfüqdə yayılan ağartıdır.**"[1] əl-Muvaffəq İbn Qudəmə deyir: "**Sübhün vaxtı icma ilə ikinci fəcrin üzə çıxması ilə girir və namazın vaxtları haqqındakı xəbərlər buna dəlalət edir və o, üfüqdə qanad açaraq uzanan, yayılan ağartıdır və sadiq/həqiqi fəcr adlanır...**"[2] İbn Qudəmə bunu Alləmə Əbul-Qasim əl-Xiraqi'nin müxtəsərində zikr etdiyi sözləri şərh edərkən deyir. əl-Xiraqi'nin sözlərinə gəlin diqqət edək. O deyir: "**(İşənin) zəruri vaxtı ikinci fəcr üzə çıxana qədər qalır və o, (yəni ikinci fəcr) şərq tərəfdən görünən ağartıdır, sonra yayılır və ondan sonra zülmət olmur.**"[3] İlk əvvəl ağartının zühur etdiyini, ondan sonra yayıldığını qeyd edir, fəcrin girişini isə ilk zühur edən ağartı ilə bağlayır. Fəqihlərin hamısının kitabında bu şəkildə fəcrin ağartı olması qeyd olunur.

Lakin burada bəzi təfsilatlar üzərində ixtilaf edilmişdir. Bu təfsilatlardan biri budur ki, fəcrin girməsi ağartının ilk dəfə zühur etməsi ilə başlayır yoxsa onun üfüqdə sağa və sola yayılması ilə başladığını söyləməliyik? Bu təfsilat üzərindəki ixtilafın yalnız hənəfi şeyxləri arasında olduğunu gördüm. Başqa məzhəblərin alimlərinin belə təfsilat zikr etməsi ilə qarşılaşmamışam. Əksinə əl-Xiraqi'nin sözlərinin zahirindən başa düşülən budur ki, ağartının ilk zühur

[1] "əl-Məbsut", 1/141;
[2] "əl-Muğni", 1/279;
[3] "Muxtəsar əl-Xiraqi", səh: 19;

etməsi ilə fəcrin girdiyinə hökm olunur. Onların həqiqi fəcri "üfüqdə yayılmış ağartı" olaraq vəsf etmələri sadəcə yalançı fəcrdən ayırmaq üçün verdikləri vəsfdir, bu əsla fəcrin başlanması üçün üfüqdə çıxan işığın yayılmasını şərt görmələri kimi başa düşülməməlidir. Bu dediyim malikilərin, şafi'ilərin və hənbəlilərin sözlərinə aiddir. Qarşıda ər-Razi'dən zikr edəcəyimiz sözü dediyimizə şahid tuturuq. Hənəfilərə gəldikdə isə son dönəm hənəfi şeyxlərinin böyüklərindən İbn Abidin əş-Şəmi haşiyəsində deyir: "**əl-Hilyə kitabında deyir: "Bəli, etibara alınanın fəcrin ilk girişi yoxsa (işıltının) uzanması yoxsa (geniş şəkildə) yayılması olmasında şeyxlər ixtilaf ediblər, necə ki, əz-Zahidi bunu şərhində "əl-Muhit" kitabından və "Xizənətul-Fətəva"da əs-Səraxsi'nin "əl-Kəfi" kitabına şərhindən nəql edir və orada zikr olunur ki, birinci görüş daha ehtiyatlı, ikinci görüş isə daha rahatdır." "əl-Bəhr" kitabında isə deyir: "Üstün olan axırıncı görüşdür". Qarşıda gələcək həqiqi fəcrin tərifinə görə belə deyib. "ən-Nəhr" kitabında isə bunu rədd edərək üstün olanın birinci görüş olduğunu deyir, çünki bu mövzunun əslini təşkil edən Cibril'in hədisində "sonra" - yəni birinci gündə - "fəcr bərq olduqda və orucluya yemək haram olduğu vaxtda namaz qıldı" sözləri keçir və "bərq olmaq" görünmək deməkdir və bu, çıxmağın başlanğıcında olur." Bunun eynisi "əş-Şurunbuləliyyə"dədir. Orada həm də bunu əlavə edir: "(Həqiqi fəcr üçün verdikləri) tərif bu deyiləni rədd eləmir, çünki yayılma fəcrin vəsflərindəndir və (fəcrin girməsi) bir hissəsi keçdikdən sonra onun yayılmasından asılı deyildir və dəlili hədisin ləfzidir." əl-Hələbi haşiyəsində deyir: "Güman edirəm ki, kitaba şərh yazanın bundan sonra gələcək sözlərinin ifadə etdiyi kimi "uzanmaq" və "yayılmaq" bir mənadadır, beləliklə də burada iki görüş vardır, üç görüş yoxdur.**" "əl-Bəhr" dedikdə "əl-Bəhr ər-Raiq Şərh Kənzid-Dəqaiq" kitabının müəllifi Zeynuddin İbn Nuceym əl-Misri'nin qəsd edir. "ən-Nəhr" isə İbn Nuceym'in qardaşı Siracuddin Ömər bin İbrahim'in "ən-Nəhr əl-Fəiq Şərh Kənzid-Dəqaiq" kitabıdır və orada Siracuddin öz qardaşı Zeynuddin'in görüşünü rədd edir. əz-Zahidi'nin sözləri əl-Quduri'nin müxtəsərinə yazdığı "əl-Muctəbə" adlı şərhindədir. İbn Abidin bütün bu fərqli fikirləri qeyd etdikdən sonra deyir: "**Bu yazılanlardan başa düşüldü ki, (fəcrin) əvvəlində ixtilaf yoxdur və bu, ikinci fəcrin girməyi ilə başlayır, lakin "girmək" ilə nəyin qəsd olunduğunda ixtilaf ediblər.**"[1] İbn Abidinin ilk cümləsindən elə güman etmək olar ki, bu barədə üç görüş vardır, lakin əl-Hələbi'nin də izah etdiyi kimi əslində ixtilaf iki görüş arasındadır; fəcr işığının ilk zühur etməsini etibara alanlar ilə onun

[1] "*Haşiyə*tu İbn Abidin", 1/357;

üfüqdə yayılmasını etibara alanlar arasındadır. *Birinci görüşü, yə*ni işığın ilk zühurunun etibara alınması görüşünü daha üstün sayanlar arasında Həsən bin Ammər *əş-Şurunbulə*li də vardır. O, Molla Xosrov'un "Durarul-Hukkəm" kitabına yazdığı haşiyəsində deyir: "**Mənim üçün üstün görünən görüş budur ki, etibara alınan mücərrəd olaraq (işığın) üzə çıxmasıdır...**"[1]

İbn Abidin hənəfi şeyxlərindən belə bir ixtilafı zikr etsə də praktikada bu ixtilafın bir təsiri yoxdur, çünki İbn Abidin'in zamanından bura qədər hənəfilər arasında q*əbul olunmuş fikir ümmə*tin əksər alimlərinin rəyinə müvafiqdir. Bu isə *sübhün girişinin üfüqdə* ilk şüaların əmələ gəlməsi ilə *baş* verməsi *görüşüdür.* Aliyyul-Qari deyir: "**əş-Şumunni zikr edib ki, alimlərin əksəriyyətinə görə etibara alınan sübhün üzə çıxmasının ilk əvvəlidir. (Sübhün) onun işıqlanması olduğu da deyilib... Şəmsul-Əimmə əl-Həlvani dedi: "Birinci görüş daha ehtiyatlıdır, ikinci görüş isə daha rifqətlidir." Ola bilsin ki, bu hədis rifqət üzərində qurulub – doğrusunu Allah bilir - və ayədəki "aydınca seçilənə qədər" sözü də bunu dəstəkləyir.**"[2] *əş-Şumunni isə* hicri 873-cü ildə v*əfat etmiş iskə*ndəriyyəli hənəfi alimi *Əhmə*d bin Muhəmməd *əş-Şumunni'dir. Onun sözlə*ri bizim əksər alimlərə nisbət etdi*yimiz görüşü* təsdiqləyir. Həmçinin Alləmə Fəxruddin ər-Razi buyurur: "**Haram edən ağlığın miqdarı həqiqi sübhün əvvəlidir və həqiqi sübhün əvvəli yayılmış olmur, əksinə kiçik və nazik olur...**"[3] Eləcə də *Şeyxul*-İslam İbn Teymiyyə buyurur: "**Gündüzün ağlığını və gecənin qaranlığını ağ sap və qara sap adlandırması dəlildir ki, (fəcr) qaranlıqda kiçikliyi və nazikliyi ilə ağlığın ilk başlanğıcıdır, çünki sap nazik olur.**"[4] ər-Razi və İbn Teymiyyə'nin dedikləri də fəqihlərin əksəriyyətinin sözlərinə müvafiqdir. Hətta əgər ixtilafı hesaba alsaq belə bu, fəcrin vaxtında böyük bir fərqə gətirib çıxarmır. Maksimum beş dəqiqə təxirə səbəb olur, bu isə problem sayılmamalıdır.

[1] "Durar əl-Hukkə*m Şə*rh Ğuraril-*Əhkə*m", 1/51;
[2] "Mirqatul-Məfətih", 4/1384;
[3] "Təfsirur-Razi", 5/273;
[4] "Şərhul-Umdə; Kitəbus-Siyəm", səh: 530;

ƏKS GÖRÜŞ

Burada dediklərimizə *əks olan görüş də* vardır. Bu görüşü sadəcə məsələnin təfsilatında zikr etmək istəmədik. Ona görə də onun üçün ayrıca bir mövzu açırıq. Bu görüş sahiblərinin gətirdikləri ən güclü dəlil ət-Tirmizi'nin "əs-Sünən" kitabında Talq bin *Əli'yə* qədər çatan isnad ilə rəvayət etdiyi bu hədisdir: "**Allahın elçisi – səlləllahu aleyhi va səlləm – dedi: "Yeyin və için, yüksələn parlaqlıq sizə mane olmasın, qırmızı (işıq) sizin qarşısınızda yayılmayana qədər yeyib için.**"[1] "Yüksələn parlaqlıq" ilə qəsd olunan yalançı fəcrdir. İmam *Əhməd*'in "əl-Müsnəd" kitabında isə yenə Talq bin *Əli'dən* gətirdiyi rəvayətdə deyir: "**Peyğəmbər – səlləllahu aleyhi va səlləm – dedi: "Fəcr üfüqdə yuxarı uzanan deyildir, lakin o, eninə doğru yayılan qırmızıdır.**"[2] ət-Tirmizi rəvayəti zikr etdikdən sonra deyir: "**Elm əhlinə görə əməl bu hədis üzərindədir ki, fəcr qırmızı və yayılmış şəkildə olmadığı müddətdə oruc tutana yeyib içmək haram deyildir.**"

Bu hədisin zahiri və ət-Tirmizi'nin sözləri yuxarıda cumhurul-üləma'dan *təqdim etdiyimiz görüşə* müxalifdir. İbn Xuzeymə bu hədisi "əs-Sahih" kitabında zikr edir və hədisin başlığında fəcrin qırmızıltı rəngdə olan yayılmış işıltı olduğunu deyir. Lakin onu da qeyd edək ki, İbn Xuzeymə hədisin səhihliyində *şəkk etdiyi üçün bu görüşü hə*disin səhihliyinə bağlayıb. Həmçinin *Əbu Avanə* əl-İsfərayini "əl-Mustəxrac" kitabında fəcrin vaxtı üçün ayrıca bab açır və onu belə adlandırır: "**Fəcrin vaxtının necəliyinin, sonuncu vaxtının, çıxdıqda namazı əda etməyin halal olduğu fəcrin necəliyinin və fəcrin qırmızılılıq ilə qarışmış uzanan (işıq) olmasına dəlilin bəyanı babı.**"[3] *Bu görüş tə*kcə bu iki alimlə məhdud deyildir, lakin *bu görüşdə* olan təfsir alimləri və hətta fəqihlər belə vardır. Dediyimiz kimi

[1] Tirmizi (705); *Əbu Davud (2348);*

[2] "əl-Müsnəd" 26/218-219 (16291)

[3] "əl-Musnəd əs-Sahih əl-Muxarrac alə Sahih Muslim", 4/342; Mədinə Universitetinin nəşri. *Hə*mçinin Darul-Marifə'nin nəşr *etdiyi Əymə*n bin Arif əd-Dimə*şqi'nin tə*hqiqi ilə olan versiyada da (1/308-309) sözlər *bu* şəkildədir, yəni "qırmızılılıq ilə qarışmış" sözləri keçir. *Lakin Şe*yx Mustafa əl-Adəvi'nin "əl-Yəvaqit" kitabında "qırmızılılıq ilə qarışmamış" sözləri keçir. Mustafa əl-Adəvi'nin etimad etdiyi çapın hansı olduğunu öyrənmək müyəssər olmadı, lakin bu cür olması həmin babda gətirdiyi hədislərə daha uyğundur, çünnki oradakı hədislərə nəzər saldıqda qırmızılığa dəlalət edən bir tərəf görmək olmur. Doğrusunu Allah bilir.

bu hədis ümmətin alimlərinin əksəriyyətinin qəbul etdiyi görüşə müxalifdir. Alləmə Ənvərşah əl-Kəşmiri deyir: "**Bilinməlidir ki, fəcrin izahında üç görüş vardır. Tərk olunmuş görüş budur ki, qırmızı sübh girənə qədər yemək olar və bu görüşdə olan (ət-Tirmizi'nin "əs-Sünən"indəki) bu babdakı hədisə əsaslanmışdır. Cumhur isə (yeməkdən) imtinanın həqiqi ağ sübhdən olduğunu deyir.**"[1] O zaman gəlin əksəriyyətə aid olan alimlərin verdiyi cavabları burada zikr edək.

Birinci: Bu hədisin zəif olduğunu deyiblər. İmam əd-Dəraqutni "əs-Sünən" kitabında bu hədisi rəvayət etdikdən sonra hədisdəki ravi Qeys bin Talq'ın güclü ravi olmadığını deyir. Qeys bin Talq bu hədisi atası səhabə Talq bin Əli'dən rəvayət edir. İbn Muflih "əl-Furu" kitabında hədisi zikr etdikdən sonra deyir: "**Əhmədin bu hədislə görüş bildirməsi və bunun ondan (fərqli görüş olaraq) bir rəvayət olması möhtəməldir, lakin Qeys ona görə zəifdir.**"[2] İbn Muflih'in qəsdi budur ki, İmam Əhməd bu hədisi "əl-Müsnəd" kitabında rəvayət etdiyi üçün bu hədisin zahirindən başa düşülən məna İmam Əhmədin başqa bir görüşü olması möhtəməldir, lakin bu ehtimalı dəf edərək Qeysin İmam Əhmədin nəzərində zəif olduğunu deyir.[3]

İkinci: Bu hədisin şaz olduğunu deyiblər. İmam Əbu Davud əs-Sicistani bu hədisi rəvayət etdikdən sonra deyir: "**Bu, Yəməmə əhlinin tək olaraq rəvayət etdikləridir.**" Yəni Yəməmə əhlindən başqaları bu hədisi rəvayət etmirlər, bu sözü ilə hədisdəki zəifliyə işarə etmişdir. Yaxud da ola bilsin ki, Əbu Davud da bu hədisdəki "qırmızı" sözünü əl-Aməş kimi düşünənlərin məzhəbi üçün dəlil görmüş və bu məzhəbin şazz olduğuna işarə etmişdir. Zahir olan budur ki, Əbu Davud bu məzhəbin şaz olduğunu qəsd edir.

[1] "əl-Arf əş-Şəzi Şərh Sünən ət-Tirmizi", 2/154;

[2] "əl-Furu va Təshih əl-Furu", 5/33;

[3] Qeys bin Talq bin Əli bin əl-Munzir bin Qeys əl-Hənəfi; atası səhabə Talq bin Əli'dir, Yəməmə əhlindəndir. Onun üzərində alimlər ixtilaf ediblər. İbn Main onu bir rəvayətində siqa saymışdır. əd-Dərimi deyir: "Dedim: Bəs Abdullah bin Numən Qeys bin Talq'dan? (İbn Main) dedi: "Yəməməli şeyxlərdir, siqadırlar." əl-İcli və İbn Hibban onu siqa ravilər arasında zikr edirlər, lakin əl-İcli və İbn Hibban bu məsləkdə bir qədər yumşaq olaraq tanınırlar. əz-Zəhəbi deyir: "İbn Main onu siqa saymışdır və onun sünən kitablarında bir neçə hədisi vardır. Əhməd bin Hənbəl isə onu zəif sayıb." Mizənul-İtidəl kitabında deyir: "İbn Əbi Hətim deyir: "Atamdan və Əbu Zur'adan onun haqqında soruşdum və dedilər: "Hədisi hüccət olanlardan deyildir." Əbu Hətim və Əbu Zur'a isə bu məsləkdə şiddətli olanlardan sayılırlar. Bir başqa rəvayətdə Yəhyə bin Main onu zəif hesab edib və deyib: "İnsanlar Qeys haqqında çox danışdılar və onun hədisi hüccət olmaz." Qeys bin Talq'ı həmçinin İmam əş-Şafi' zəif görüb. Eləcə də İmam əd-Dəraqutni onun güclü ravi olmadığını deyib. Həmçinin İbnul-Cəvzi onu zəif ravilər arasında zikr edir, lakin İbnul-Cəvzi bu məsələdə təhqiq əhlindən sayılmır. İbnul-Qattan əl-Fəsi və İbn Həcər'in verdiyi son hökm budur ki, Qeysin rəvayəti həsəndir.

Alləmə İbn Rüşd əl-Həfid deyir: "**... və bir firqə şazz düşərək dedi: "(ayədə qəsd olunan) ağartıdan sonra gələn qırmızı fəcrdir və o, qırmızı şəfəqin bənzəridir və bu, Huzeyfə'dən və İbn Məsud'dan rəvayət olunur.**"[1] İbn Rüşd bu məzhəb sahiblərinin görüşləri arasında sözü gedən Talq bin Əli'nin hədisini daha sonra zikr edir. Həmçinin Alləmə Əbu Bəkr əl-Cəssas əl-Hənəfi yuxarıda sözü keçən Talq bin Əli'nin hədisini zikr etdikdən sonra deyir: "**Bu xəbərdə qırmızılılığı zikr edir və müsəlmanlar arasında ixtilaf yoxdur ki, üfüqdə qırmızılılıq zühur etmədən öncə çıxaraq yayılan ağartı ilə oruc tutana yeyib içmək haram olur.**"[2] Bu isə şübhəsiz ki, bu hədisin zahirinə tabe olmanın şaz olduğuna dəlalət edən ən aşkar sözlərdən biridir.

Həmçinin əl-Qurtubi, İbnul-Fəras və başqaları bu hədisi əl-Aməş'in suhur haqqında şaz sayılmış məzhəbinin[3] dəlilləri arasında zikr edib. Beləliklə də bu alimlərə görə əl-Aməş'in məzhəbi barədə deyilənlər bu hədis haqqında da keçərlidir. Misal üçün əl-Aməş'in məzhəbinin İslamın əvvəlində olduğu, daha sonra nəsx edildiyi deyilmişdir. Bu fikri dəstəkləyən tərəflərdən biri də budur ki, səhabə Talq bin Əli hicrətin birinci ilində Yəməmə'dən peyğəmbərin – səlləllahu aleyhi va səlləm – yanına gəlib və məscidin tikilməsində iştirak etmişdir. İbn Hibban da onun bundan sonra bir daha Mədinə şəhərinə qayıtmadığını deyir. Bunu İbnul-Muləqqin "əl-Bədr əl-Munir" kitabında zikr edir.

Üçüncü: Hədisdəki "qırmızı" sözünü təvil ediblər və bu, alimlərin əksəriyyətinin hədisə münasibətidir. Xalil Əhməd əs-Səhəranfuri deyir: "**Bu, əgər Allahın "ağ sap ... sizin üçün aydınca seçilənə qədər" ayəsi nazil olmadan əvvəlki dövrə aid edilməzsə burada fəcrin "qırmızı" olması səhih məna verməz, çünki burada başqa bir məna da vardır: "nahar idi, amma günəş hələ çıxmamışdı." Bunların hər ikisi də ayəyə müxalifdir. Bütün bu dediklərimiz hədisi zahirinə əsasən götürdüyümüz hala aiddir. Yoxsa "qırmızı" sözü həm də "ağlıq" üçün də işlənə bilir, əgər bu mənaya aid edilərsə o zaman ayəyə müvafiq olar.**"[4] Bu sözlərdə Alləmə əs-Səhəranfuri iki hədisə işarə edir: biri bizim sözünü etdiyimiz Talq bin Əli'nin hədisidir, digəri isə qarşıda zikr olunacaq Huzeyfə'nin hədisidir. əs-Səhəranfuri də söylədiyimiz kimi hər iki hədisin zahirinin ayənin aşkar mənasına müxalif olduğunu deyir. Daha sonra isə hədisin ayəyə müxalif olmaması üçün təvil edilməsinin zərurətinə işarə edir və doğru saydığı təvili zikr edir. Peyğəmbərimizin – aleyhissalətu

[1] "Bidəyətul-Muctəhid", 2/51;
[2] "Əhkəmul-Quran", 1/285;
[3] Qarşıda bu barədə ayrıca məlumat təqdim ediləcək.
[4] "Bəzlul-Məchud", 11/147-148;

vassəlləm – sözündəki "qırmızı" da bu mənadadır: "**Allahın elçisi deyir: "Məndən öncə heç kimə verilməyən beş şey mənə verildi: Mənə şəfaət verildi və onu ümmət üçün tədarük edirəm, yer üzü mənim üçün məscid və təmizləyici pak edildi, bir aylıq məsafə qabaqda qorxunun yayılması ilə mənə dəstək verildi, həm qaralara, həm də qırmızılara göndərildim və qənimət götürmək mənə halal edildi.**"[1] Muslim'in rəvayətində deyir: "**Hər peyğəmbər öz qövmünə xas olaraq göndərilərdi, mən isə hər qırmızıya və qaraya göndərildim...**"[2] Burada "həm qaralara, həm də qırmızılara" dedikdə əslində qaralar ilə ağları qəsd edir, yəni həm dərisi qara olanlara, həm də dərisi ağ olanlara göndərildim. Məşhur ərəb dili alimi Əbu Mənsur əl-Əzhəri deyir: "**Amr öz atasından belə dediyini rəvayət edir: "Həm qırmızılara, həm də qaralara göndərildim" sözünün mənası budur ki, həm qaralara, həm də ağlara göndərildim. Dedi: "Həmra" olan qadın dedikdə ağ qadını qəsd edirlər...**"[3] Şeyx Muhəmməd Şəmsul-Həqq əl-Azim Abadi'nin sözləri də bu yöndədir. O, deyir: "**Beləliklə də peyğəmbərin – sallallahu aleyhi va səlləm – "qırmızılılıq sizin qarşınızda yayılana qədər" sözünün mənası "ağartı" deməkdir və bu, gecənin qaranlığından seçilən gündüzün ağartısıdır, yəni həqiqi sübhdür.**"[4]

Dördüncü: Bu hədisi başqa cür də başa düşmək mümkündür. Peyğəmbərimiz – sallallahu aleyhi va səlləm – burada "qırmızı" sözü ilə qəsd etdiyi üfüqdə qırmızılığın əmələ gəlməsinə qədər yeməyin halal olduğunu qəsd etməmişdir, lakin həqiqi fəcri yalançı fəcrdən ayıran xüsusiyyətə işarə etmişdir. Çünki yalançı fəcr üzərindən vaxt keçdikdən sonra qızarmır, lakin çox zaman işığı zəifləyir və ağ olaraq qalır, başqa rəng çaları almır. Həqiqi fəcr isə belə deyildir, bir müddət keçdikdən sonra saralmağa və daha sonra qızarmağa başlayır. Ona görə də "qırmızı" burada ümumən iki fəcri bir-birindən ayırmaq üçün zikr olunub. İmam Əbu Süleyman əl-Xattabi (vəfatı hicri 388) deyir: "**Burada qırmızının mənası eninə doğru yayılmış ağartının özündə qırmızılığın ilk əvvəllərini gizlətməsidir, bu isə ona görədir ki, ağartının üzə çıxışı tamamlandıqda qırmızılığın əvvəlləri zühur edir. Ərəblər də sübhü atın bələq cinsinə bənzədirlər, çünki onda həm ağlıq, həm də qırmızılıq vardır.**"[5] əl-Xattabi burada "qırmızı" sözünü zahirən ilk anlaşıla biləcək mənasında anlamır. Lakin fəcrin daha sonra zühur edəcək qırmızılığa işarə edildiyini

[1] "Müsnədus-Sərrac" (507); "Müsnəd əl-Bəzzər" (4077); "Müsnəd Əhməd", 35/343 (21435). İsnadı səhihdir.
[2] "Sahih Muslim" (521)
[3] "Təhzibul-Luğa", 5/37;
[4] "Avnul-Məbud", 6/339;
[5] "Məalimus-Sünən", 2/105;

deyir. Bu hədisi izah edərkən Bədruddin əl-Aynı də əl-Xattabi'nin bu sözlərini zikr edir. Əbu Məsud Raşid Əhməd əl-Kənkuhi bu hədisin "əl-Müsnəd"də keçən ləfzini şərh edərkən deyir: "**Qırmızı ilə qəsd olunan "axırında qırmızılıq olan" deməkdir və bu, ikinci fəcrdir, birinci fəcr deyildir, çünki onun axırında qaranlıqdan başqa bir şey yoxdur. (Burada) qırmızılıq girənə qədər yemək qəsd olunmur, çünki bu, yalnız günəş yaxınlaşdıqda olur. Belə ki, əgər qəsd olunan bu olsaydı o zaman deyilərdi: "qırmızılıq olana qədər". Qırmızının mənasına gəldikdə isə bu, qırmızılığın özü deyildir, bu, qırmızılığı olandır. Qırmızı heç də hamısı qırmızı olana deyilmir, bəzən bir hissəsi qırmızı olan da tamamı qırmızı olan bir şey kimi qırmızılıq ilə vəsf oluna bilər.**"[1] Əslində bu izahı sadəcə hədisə yox, eləcə də bəzi alimlərin sözlərinə də aid edilə bilər. Ola bilsin ki, Əbu Avanə də fəcrin ilk başlanğıc vaxtını qəsd etmir, lakin onu yalançı fəcrdən ayıran özəlliyindən danışır.

İmam ət-Tahavi buyurur: "**Biz buna baxdıq və gördük ki, fəcrdən öncə qırmızılıq/qızartı olur və daha sonra fəcrin ağartısı bunu izləyir, beləliklə də qızartı və ağartı burada bir namazın vaxtı sayılır.**"[2] Bəziləri ət-Tahavi'nin bu sözlərini öz məzhəbləri üçün dəlil gətirərək qeyd edirlər ki, fəcrin ilk başlanğıcı üfüqdə yayılan qırmızı işıqla olur. Lakin ət-Tahavi əslində burada fəcrin ilk əvvəlinin keyfiyyəti haqqında danışmır, sadəcə olaraq fəcri məğribdən sonrakı şəfəq ilə müqayisə edərək göstərmək istəyir ki, fəcrdə həm qızartı, həm də ağartı bir namazın vaxtından olduğu kimi şəfəqdə də həm qızartı, həm də ağartı bir namazın vaxtından sayılmalı və qızartı məğribin, ağartı isə işənin vaxtına aid edilməməlidir. ət-Tahavi burada Əbu Hənifə'nin görüşü üçün nəzəri bir dəlil zikr edir. Bu, heç bir şəkildə fəcrin əvvəli barədə deyilmiş görüş kimi qəbul edilməməlidir.

Beləliklə də bir daha aydın şəkildə başa düşülməlidir ki, fəcrin girməsi üçün üfüqün qızarmasını gözləmək lazım deyildir və fəcrin girişini bununla bağlayan məzhəb fəqihlərin nəzərində zəif məzhəbdir. əl-Qadi Əbu Bəkr İbn əl-Arabi əl-Maliki deyir: "**(Fəcr) üfüqdə yayılmış, qanad açmış şəkildə əmələ gələn həqiqi nurdur; tac forması kimi sabit və uzun olur. Buna sübh və sabah da deyirlər. Bəziləri isə deyiblər ki, sübh ağartı ilə qırmızılılığı birləşdirəndir. Bizim dediyimizdən başqa görüşlər səhih deyildir.**"[3]

[1] "əl-Kəvkəb əd-Dəri alə Cəmi ət-Tirmizi", 2/41-42;
[2] "Şərh Məanil-Əsər", 1/155;
[3] "Aridətul-Əhvazi", 1/262

Bu görüşü dəstəkləyən dəlillərdən biri də İmam *Əhməd*'in, əl-Buxari'nin, Muslimin və başqalarının *Əbu Bərzə* əl-*Əsləmi*'dən rəvayət etdikləri bu hədisdir: "**... və (peyğəmbər) adam öz yanındakını tanıya biləcəyi bir vaxtda fəcr namazından ayrılardı və (namazda) altmışdan yüz ayəyə qədər oxuyardı.**"[1] Muslimin rəvayətində isə bu cür deyir: "**Sübhü qılardı və sonra bir nəfər namazdan ayrılardı və yanında olan tanıdığı adamdan birinin üzünə baxardı və tanıyardı.**"[2] Bu bizə onu izah edir ki, fəcrin vaxtı girdikdə hava hələ də qaranlıq olur, çünki sübh namazında yüz ayənin oxunduğunu təsəvvür etsək, ondan öncə sünnətinin qılındığını *düşünsə*k və insanların yalnız sübh namazı bitdikdə bir-birilərinin üzünə baxıb bir-birilərini tanıdıqlarını nəzərə *alsaq başa düşə*rik ki, fəcr girdikdə hava hələ də qaranlıq olurdu. *Əgər* fəcrin üfüqdə əmələ gələn qırmızılıq olduğunu desək bu hədislə heç cür uyğun gəlməz, çünki qırmızılıq hava bir az işıqlandıqda ortaya çıxır.

Həm də Quranın ayəsi də fəcrin ağ olması barəsində nass olaraq qəbul olunur. İbn Nuriddin adı ilə tanınmış Alləmə Muhəmməd bin *Əli ibn* əl-Xatib əl-Məvzə'i əl-Yəməni *əş-Şafi'i (v*əfatı hicri 865) əhkam təfsirində deyir: "**Ayədə dəlil vardır ki, hökm (üfüqdə) qanad açaraq uzanan ağartı olan ikinci fəcrlə bağlıdır, qırmızı olanla bağlı deyildir və bu, səhabələr və tabiindən olan elm əhlinin böyük əksəriyyətinin görüşüdür.**"[3]İbnul-Fəras əl-*Əndə*lusi (vəfatı hicri 597) deyir: "**Alimlər (ayədəki) "aydınca seçilmənin" nə olmasında ixtilaf ediblər, onun həddi nədir? Cumhurun görüşü budur ki, bu, üfüqdə sağa və sola yayılan fəcrdir və bu, İbn Məsud'un və Səmura bin Cundub'un hədislərinin tələb etdiyi mənadır. Əbu Bəkr, Osman bin Affən, Huzeyfə bin əl-Yəmən, İbn Abbas, Talq bin Əli, Ata bin Əbi Rabəh, əl-Aməş və başqaları isə bu görüşdədir ki, bu, fəcrin yollarda və dağların başında aydınca seçilməsidir.**" Daha sonra onlardan gələn rəvayətləri zikr edir və sonra deyir: "**Səhih əsərlərin doğruluğuna şahidlik etdiyi görüş birinci görüşdür.**"[4] Əsiruddin *Əbu Həyyə*n əl-Əndəlusi deyir: "**... çünki fəcr işığın anidən zühur etməsidir və bu, ikincidə olur, birincidə olmur. Sapa bənzədilib və bu, onun ilk halına görədir, çünki birinci nazik olaraq görünür, sonra qanad açaraq yayılıb qalxır, beləliklə də üfüqdə ilk əvvəlinin üzə çıxması ilə imsak etmək vacib olur və bu, cumhurun məzhəbidir. Alimlər bu görüşü götürüblər. Əsrlər boyunca bütün ölkələr bununla əməl**

[1] əl-Buxari (541; 547; 599; 771);
[2] Muslim (647)
[3] "Təysirul-Bəyən li *Əhkə*mil-Quran", 1/266;
[4] "*Əhkə*mul-Quran", 1/207-208;

edib."[1] Daha əvvəl *Əbu Bəkr* əl-Cəssas'dan nəql etdiyimiz sözlərdən də aydın oldu ki, bu görüş ilk dövrlərdə mövcud olub və sonrakı fəqihlər bu *görüşü tə*rk ediblər və *əks görüş üzə*rində icma bağlanıb.

Fayda: Sələf suhur vaxtının təyinində ixtilaf edib

Kitabımız sırf sübh namazının vaxtı ilə bağlı olsa da kitabın ehtivasına mövzu ilə əlaqəsi olan bəzi faydaları daxil etmişik. Bu faydalardan biri də suhur vaxtı ilə bağlıdır. Suhur vaxtı həqiqi fəcr girdikdən öncədir yoxsa ondan sonra səma, yollar və dağların başı işıqlanana qədər yoxsa günəş çıxana qədər davam edir?

Bundan öncə təqdim etdiyimiz rəvayətlərə əsasən səhabələrin və ondan sonra gələn müsəlman alimlərin böyük əksəriyyətinə - hətta bəziləri məsələdə icma olduğunu deyir – görə üfüqdə ilk dəfə ağ sap kimi uzanan işıltı, ağartı əmələ gəldikdə fəcr girir və bununla da oruc tutana yeyib içmək haram olur, yənu suhur vaxtı başqa sözlə həqiqi fəcr girənə qədərdir, həqiqi fəcr girdikdə suhur vaxtı bitir. Lakin çox qəribədir ki, bu məsələdə də səhabələrin və tabiinin arasında f*ərqli düşünənlər olmuşdur. Deyə* bilərik ki, bu məsələdə sələfin zamanında ixtilaf vaqe olub və ikinci *bir görüş də* vardır. M*əşhur təfsir alimi Ş*əmsuddin *Əbu Abdillə*h əl-Qurtubi təfsirində deyir: "**Bir qrup isə dedi: Bu, fəcr girdikdən sonra, yollarda və evlərdə aydın şəkildə göründükdədir. Bu, Ömər, Hüzeyfə, İbn Abbas, Talq bin Əli, Ata bin Əbi Rabah, əl-Aməş Süleyman və başqalarından rəvayət olunub ki, imsak fəcrin yolların üstündə və dağların başında aydınca görülməsi isə vacib olur. (İbn Məsud'un tələbəsi) Məsruq deyir: "Onlar fəcri sizin fəcriniz hesab etmirdilər, onlar yalnız evləri (işıqla, aydınlıqla) dolduranı fəcr sayardılar."... ət-Təbəri dedi: "Onları bu görüşə götürən səbəb budur ki, oruc nahar vaxtı olur və nahar onlara görə günəş çıxdıqdan başlayır və axırı da günəş batdıqdadır.**"[2] Beləliklə də məsələdə ikinci görüşün olduğunu və bu *görüşün kim*lərə nisbət olunduğunu gördük. Bəziləri h*ətta bu görüşü nə*ql edərkə*n bu görüş sahibl*ərinə günəş çıxana qədər yeyib içməyin halal olması fikrini nisbət edirlər, bəziləri onların bu görüşünü bu şəkildə *başa düşmüşdür.*

[1] "əl-Bəhr əl-Muhit fit-Təfsir", 2/216;
[2] "Təfsir əl-Qurtubi", 2/319;

Lakin İbn Rəcəb'in də qeyd etdiyi kimi onlara belə *bir görüş nisbət* etmək xətadır. Doğru olan budur ki, onlara görə fəcrin girdiyi dağların başının, yolların və evlərinin içinin işıqlanması ilə aydın şəkildə bilinənə qədər yeyib içmək halaldır.

əl-Amaş*'in məzhəbi* üçün g*ətirilmiş* ən əsas dəlil isə Huzeyfə'nin hədisidir. İmam *Əhməd*in və başqalarının rəvayətinə görə *Zirr bin Hubeyş deyir:* "**Səhur yedim sonra məscidə doğru yola düşdüm. Huzeyfə bin əl-Yəmən'in mənzilinin yanından keçdikdə yanına daxil oldum. Dişi dəvənin südündən sağılmasını və qazanın qızdırılmasını tələb etdi və sonra dedi: "Yaxınlaş və ye!" Dedim: "Mən oruc tutmaq istəyirəm." Dedi: "Mən də oruc tutmaq istəyirəm." Beləliklə də yedik və içdik, sonra məscidə gəldik və namaza iqamə verildi. Sonra Huzeyfə dedi: "Allahın elçisi – səlləllahu aleyhi va səlləm – bizimlə bu cür etdi." Dedim: "Sübhdən sonramı?" Dedi: "Bəli, sübh idi, amma hələ günəş çıxmamışdı.**" Bu hədisin raviləri siqadır, yalnız isnadındakı Asim adlı ravi saduq hesab olunub, hədisləri həsən sayılır və ən-Nəsəi'nin də dediyi k*imi ondan başqa heç bir ravi bu h*ədisdə bunu Huzeyfənin peyğəmbərlə etdiyini zikr etm*əmişdir, ona görə* də mühəddis alimlərimizdən bir çoxu bu hədisin m*ərfu* şəklinin səhih olmadığını deyiblər, səhih olanın isə yalnız Huzeyfənin əməli olduğunu deyiblər. Bunun Huzeyfə üzərində məvquf olduğunu həmçinin İbnul-Qayyim "Sünən *Əbi Davud*" kitabının müxtəsərinə yazdığı haşiyəsində deyir. əl-Curqani və əl-Cəssas isə bunun ümumiyyətlə Huzeyfədən səhih olduğunu inkar edirlər.

Səhih olduğunu qəbul etsək belə yenə alimlər buna bir neçə yoldan cavab veriblər. *Bir görüşə* görə bu hökm mənsuxdur, yəni daha əvvəlki əməl belə olub, lakin sonra nəsx olunur. Bu hənəfilərin imamlarından ət-Tahavi'nin, malikilərdən isə *əd-Davudi'nin görüşüdür.* İbnul-Bəttal da "Sahih əl-Buxari"yə yazdığı şərhində bunun mənsux olduğunu deyir. ət-Tahavi deyir: "**Allahın Kitabından bir mənalı olan ayəni, Allahın elçisindən – səlləllahu aleyhi va səlləm – mütəvatir olaraq gəlmiş, ümmətin qəbul etdiyi və Allahın elçisinin – səlləllahu aleyhi va səlləm – zamanından bu günə qədər əməl olunmuş hədisləri nəsx edilmiş olması mümkün olan bir hədisə görə tərk etmək vacib deyildir…**"[1] İbn Həcər onların bu görüşünü zikr etdikdən sonra deyir: "**Onların bu dediyin dəstəkləyən Abdurrazzəq'ın raviləri siqa olan bir isnad ilə rəvayət etdiyi bu xəbərdir ki, Bilal peyğəmbər – səlləllahu aleyhi va səlləm – səhur yeyərkən onun yanına gəldi və dedi: "Namaz, ey Allahın elçisi! Allaha and olsun ki, sübh girdi." Dedi: "Allah Bilala rəhm etsin, Bilal olmasaydı günəş çıxana qədər bizə rüxsət**

[1] Eyni mənbə, 2/54;

veriləcəyinə ümid edərdik."[1] Görünür ki, İbn Həcər özü də *bu görüşü* daha əsaslı saymışdır. *Əgər* bu görüşün doğru olduğunu qəbul etsək deyə bilərik ki, yuxarıda müzakirəsini etdiyimiz Talq bin *Əli'nin h*ədisinin də hökmü n*əsx olunmuş h*ədislərdən olduğunu demək olar.

Lakin əksər alimlərə görə buradakı "sübh idi, amma hələ günəş çıxmamışdı" sözünü sübhün girməyinə yaxınlaşmışdı şəklində *başa düşmə*k lazımdır. Bu isə İbn Cərir ət-Təbəri, İmam ən-Nəsəi və əksər alimlərin görüşüdür. İbn Cərir ət-Təbəri deyir: "**Peyğəmbər – səlləllahu aleyhi va səlləm – səhur edərdi və mən oxların hədəfini görə bilirdim" şəklində Huzeyfə'dən rəvayət olunan xəbərə gəldikdə isə o, bunu dəqiqləşdirmək üçün dedi. Ona deyildi: "Sübhdən sonra idi?" Bunun "sübhdən sonra" olduğunu deyərək cavab vermədi, sadəcə olaraq dedi: "sübh idi". Onun bu sözünün bu mənada olması da möhtəməldir ki, hələ sübh özü girməmiş olsa da sübhə yaxın olduğu üçün "sübh idi" demişdir, necə ki, ərəblər (bir kəsə) bənzədiyi üçün – "o, fılankəsdir" – deyirlər və bunu dedikdə adını çəkdikləri şəxsdən başqasına işarə edirlər, beləliklə də onu həmin kəsə bənzətdikləri üçün "fılankəs fılankəsdir" deyirlər. Hüzeyfə'nin də "sübh idi" sözü bunun kimidir, mənası budur ki, sübhə bənzədiyi üçün, sübhün vaxtına yaxın olduğu üçün sübh idi.**"[2] Təqdim etdiklərimizdən aydın olur ki, alimlər, fəqihlər, müfəssirlər və mühəddislər bu məzhəbin dəlillərini hüccət olaraq görməyiblər və buna verdikləri cavabları qeyd etdik.

İbn Həcər əl-Asqaləni deyir: "**Səhabələrdən bir qrupun görüşü isə - və bu, tabiindən əl-Aməş'in və tələbəsi Əbu Bəkr bin Ayyəş'in də görüşüdür – budur ki, fəcr tam aydınlaşana qədər suhur etmək icazəlidir. Said bin Mənsur, Əbul-Əhvas'dan, o da Asim'dən, o isə Zirr'dən, o da Huzeyfə'dən belə dediyini rəvayət etdi: "Allahın elçisi ilə - səlləllahu aleyhi va səlləm – səhur yedik və Allaha and olsun ki, işıqlıq idi, sadəcə olaraq günəş hələ çıxmamışdı." ət-Tahavi başqa rəvayət yolu ilə Asim'dən bunun bənzərini təxric etmişdir. İbn Əbi Şeybə və Abdurrazzəq bunu Huzeyfə'dən səhih kanallarla rəvayət ediblər. Said bin Mənsur, İbn Əbi Şeybə, İbnul-Munzir bir çox kanaldan Əbu Bəkr'dən rəvayət ediblər ki, o, fəcrin görülməməsi üçün qapının bağlanmasını əmr etmişdir." İbnul-Munzir səhih sənəd ilə Əlidən rəvayət edir ki, o, sübhü qıldı və sonra dedi: "İndi ağ sapın qara sapdan aydınca seçildiyi vaxtdır."**

[1] "Fəthul-Bəri", 4/135;
[2] "Təfsir ət-Təbəri", 3/259;

İbnul-Munzir dedi: "Bəzilərinə görə naharın ağlığının gecənin qaranlığından aydınca seçilməsi ilə qəsd olunan ağlığın yollara, cığırlara, evlərə yayılmasıdır." Sonra bundan öncə Əbu Bəkrdən və başqalarından qeyd etdiklərimizi nəql etdi. Səhih bir isnad ilə Səlim bin Ubeyd əl-Əşcəi'dən – və o, səhabələrdəndir – rəvayət olunub ki, Əbu Bəkr ona dedi: "Çıx və bax gör fəcr çıxıbmı?" Dedi: "Baxdım, sonra yanına gəldim və dedim: "Artıq ağarıb və yuxarı qalxıb." Sonra dedi: "Çıx və bax gör fəcr çıxıbmı?" Yenə baxdım və dedim: "Yayılıb." Bunun üzərinə dedi: "Bax indi mənim içəcəyimi ver." Vaki yolu ilə əl-Aməş'dən onun belə dediyini rəvayət olunub: "Əgər dillərə düşmək qorxusu olmasaydı sübhü qılardım və sonra səhuru yeyərdim." İshaq (bin Rahaveyh) deyir: "Bunlar (üfüqdə) yayılan fəcr çıxdıqdan sonra naharın ağlığının tamamilə gecənin qaranlığından aydınca seçilənə qədər yeməyi və namaz qılmağı caiz görürdülər." İshaq dedi: "Mən birinci görüşü götürürəm, lakin ikinci görüşdə olduğu kimi rüxsəti təvil edənlərə də tənə etmirəm və onlara qəzanın və kəffarənin vacib olduğunu demirəm." İbn Həcər bunları nəql etdikdən sonra deyir: "**Burada əl-Aməş'in görüşünün əksi üzərində icma nəql edən əl-Muvaffəq (İbn Qudəmə) və başqalarına qarşı etiraz vardır.**"[1] Gördüyümüz kimi İbn Həcər bu məsələdə *müxalif olmuş bir neçə* alimin adını zikr etdi. İbn Həcər sanki İbn Qudəmə'nin icma iddiası ilə razılaşmır.

İbn Qudəmə'nin sözləri isə belədir: "**İbn Abdilbərr dedi: "Peyğəmbərin – sallәllahu aleyhi va səlləm – "Bilal gecə azan verir, ona görə də İbn Umm Məktum azan verənə qədər yeyin, için" sözü sübhün məhz (ayədə keçən) "ağ sap" olmasına və səhurun yalnız fəcr girmədən öncə olmasına dəlildir və bu, elə bir icmadır ki, bunda tək əl-Aməş'dən başqa heç kim müxalif olmayıb; şaz qalmışdır, heç kim onun sözünə əsaslanmamışdır. Oruclu olmağın vacib olduğu nahar vaxtı isə fəcrin çıxmağından günəşin batmağına qədərdir." Dedi: "Bu, müsəlmanların alimlərinin camaatının görüşüdür.**"[2] Beləliklə də *şahid oluruq ki, bu, təkcə* İbn Qudəmə'nin yox, lakin onun İbn Abdilbərr'dən nəql etdiyi və təsdiqlədiyi sözlərdir. İbn Həcərin nəqlindən isə anlaşılan budur ki, İmam İshaq bin Rahaveyh məsələdəki *müxalif görüşü, yəni* əl-Aməş'in *görüşünü şaz görüş* saymamışdır, çünki başqalarının o görüş ilə əməl etməsinə etiraz etməmişdir.

[1] "Fəthul-Bəri", 4/136-137;
[2] "əl-Muğni", 3/105;

Hətta İmam ən-Nəvəvi'nin sözlərindən də bu məsələdə icmanın olduğunu anlamaq olar, belə ki, "əl-Məcmu" kitabında sələfdən rəvayət olunan bu *görüşün onlardan* səhih olaraq gəlməyində şəkk edir. ən-Nəvəvi'nin sözləri belədir: "**Şeyx Əbu Həmid həmçinin Huzeyfə ibn əl-Yəmən, Əbu Musa əl-Əşari, Əbu Micləz və əl-Amaş'dən – radiyallahu anhum – hekayət edir ki, onlar deyiblər: Gecənin sonu günəşin çıxmağıdır və o, naharın əvvəlidir. Dedilər: Sübh namazı gecə namazlarındandır. Dedilər: Oruclu günəş çıxana qədər yeyə bilər. Əbu Həmid bu şəkildə bu görüşü bunlardan nəql etdi. Mən bunun onlardan səhih olduğunu güman etmirəm. əl-Qadi Əbut-Tayyib və "əş-Şəmil" kitabının sahibi dedilər: əl-Amaşdən belə dediyi hekayət olunur ki, (fəcr) gecə namazlarındandır, günəş çıxmadan öncə gecədən sayılır; o zaman orucluya yemək halaldır. (Sonra) hər ikisi də dedi: Quranın zahiri dəlaləti ilə yanaşı hər əsrdə fəcrin girişi ilə yeyib içməyin haram olması görüşünün aşkarlığı ilə birlikdə bu hekayənin səhih olmaqdan çox uzaqdır...**"[1] Həmçinin Alləmə İbnul-Muləqqin deyir: "**İbn Asəkir dedi: "Ağ sapın sübh olmasında və suhurun yalnız fəcrdən öncə olmasında icma qurulub və bunda əl-Amaş'dən başqa heç kim müxalif olmayıb və onun görüşü şaz olduğu üçün heç kim ona etimad etməyib.**"[2] Eləcə də əl-Fəqih İbn Həcər əl-Heytəmi deyir: **"(Yemək və içmək) icma ilə həqiqi fəcrin girməyi ilə haram olur, ona görə də şazz qalanların və bunu yalnız günəşin çıxışı ilə haram edənlərin görüşünə əhəmiyyət verilməz. Buradan çıxış edərək səhabələrin və tabiinin böyüklərindən nəql olunmasına baxmayaraq icmaya müxalif olduğu üçün rədd olunmuşdur.**"[3] Yaxud da əl-Qadi *Əbul*-Həsən əl-Məvardi təfsirində əl-Huzeyfə'nin sözünü etdiyimiz rəvayətini zikr etdikdən sonra deyir: "**Bu, əksi üzərində icmanın bağlandığı bir görüşdür.**"[4] Burhənuddin əl-Kirməni deyir: "**Bu, icmaya müxalifdir.**"[5] Bunu eləcə də İzzuddin bin Abdissəlam da deyir. *Yəni bu görüş icmaya müxalifdir. Bu* nəqllərdən sonra əl-Amaş*'in məz*həbinin batil olduğunda şəkk qalmamalıdır, hətta bəzi alimlərimiz bu gün o məzhəbi götürənin küfr etdiyini deyirlər.

əl-Amaş*'in məz*həbinin batilliyinin *ən aşkar dəl*illərindən biri də əl-Amaş*'in öz sözlə*ridir. İmam İshaq bin Rahaveyh Vaki'dən rəvayət edir ki, o, *əl-Amaş'in belə dediyini eşitmişdir: "***Əgər şöhrət olmasaydı sübhü**

[1] "əl-M*əcmu* Şərh əl-Muhəzzəb", 3/45
[2] "ət-T*əvdih li* Şərhil-Cəmi'is-Sahih", 13/10;
[3] "Tuhfətul-Muhtəc", 1/425;
[4] "ən-Nukət val-Uyun", 1/246;
[5] "Ğaraibut-Təfsir", 1/202;

qılardım, sonra səhur yeyərdim."[1] Demək istəyir ki, əgər insanların dilində məşhurlaşmaq qorxusu olmasaydı bu cür edərdim. Bu onu göstərir ki, o dövrdə, yəni tabi'in imamların yaşadığı dövrdə əl-Aməş'*in bu məzhəbi* tamamilə rədd olunurdu. Səhabələrin tələbələri əgər bunu rədd edirdilərsə bu, həmin məzhəbin batilliyinə dəlalət edir.

Fayda: Nə üçün ayədə qara sap deyilir?

Belə bir sual ortaya çıxır. Ayədə fəcrin "ağ sap" olaraq vəsf edilməsini *başa düşmək* olur, çünki ilk əmələ gələn işıq sap kimi nazik və uzun olur, bəs gecənin qaranlığı necə "qara sapa" bənzədilmişdir? Bu sualı İməduddin *Əbul*-Həsən İlkiyə əl-Hərrasi ət-Tabəri (vəfatı hicri 504) zikr edir və özü də cavabını verir:

"**Əgər deyilsə ki, axı gecə necə qara sapa bənzədilə bilər, halbuki o, bütün aləmi bürüyür? Bildik ki, sübh üfüqdə uzanan və ya yayılan sapa bənzədilmişdir. Gecəyə gəldikdə isə onunla sap arasında bir bənzərlik yoxdur.**

Cavab budur ki, qara sap (ilə qəsd edilən) ağ sap zühur etmədən öncə onun yerində duran qaranlıqdır və o, bu yerdə özündən sonra zühur edən ağ sapa bərabərdir. Buna görə də qara sap adlandırılıb."[2]

əl-Hərrasi'dən öncə və sonra yaşamış alimlərin bir hissəsi suala bu cür cavab verib. *Əbu Bəkr* əl-Cəssas, *Əbul*-Qasim Burhənuddin əl-Kirməni, İbn Atiyyə əl-*Əndəlusi* və başqaları da bu cür izah ediblər.


[1] "ət-T*əvdih li Şərhil*-Cəmi'is-Sahih", 13/117; "Umdətul-Qari", 10/297;
[2] "*Əhkəmul*-Quran", 1/73;

İKİNCİ HİSSƏ

(hesablama metodları və təqvimlərin müzakirəsi)

TƏQVİMLƏR

Təqvimlərdəki dərəcələri anlamaq üçün ilk öncə fəcrin müasir astronomiyaya əsasən müxtəlif mərhələləri haqqında anlayışa sahib olmalıyıq. Astronomiya elmi fəcrdəki alacaqaranlığı üç yerə ayırır. Günəşin üfüqə çatmağına 18 dərəcə qalmış astronomik alacaqaranlıq (astronomical twilight) daxil olur və bu, dəniz alacaqaranlığına (nautical twilight) davam edir. Dəniz alacaqaranlığı isə günəş üfüqdən 12 dərəcə aşağıda olduqda daxil olur. Daha sonra günəş qalxdıqda üfüqə 6 dərəcə qalır və bundan sonra günlük alacaqaranlıq (civil twilight) etapı başlayır. Bu mərhələdə artıq səmadakı ulduzları görmək olmur, lakin günəş hələ üfüqdə görünmür. Hər bir mərhələnin özünə xarakterik cəhətləri vardır.



Şəkil 4: Fəcrin müxtəlif mərhələləri

Bu gün namazların vaxtını təyin etmək üçün müxtəlif müsəlman ölkələrində təqvimlər istifadə olunur. Bu təqvimlərin hamısı vaxtları eyni ölçüyə görə təyin etmir. Səudiyyə Ərəbistandakı rəsmi təqvim "ummul-qura" təqvimidir və bu təqvim fəcrin vaxtı üçün günəşin üfüqdən 19.5 dərəcə aşağıda, işə namazının vaxtı üçün isə 17.5 dərəcə aşağıda olmasını əsas alır. Əksər müsəlman ölkələrdə isə hər ikisi üçün dərəcə olaraq 18

dərəcə seçilir. Dünya İslam Liqası təşkilatı da 18 dərəcəyə etimad edir, Şərqi Asiya və Avropa ölkələri də buna tabedir. Pakistanın Karaçi şəhərindəki İslam Elmləri Universiteti də 18 dərəcəyə etimad edir. Şimali Amerika İslam Cəmiyyətinin (ISNA) təqvimi isə ən sonuncu təqvim sayılır və onlar bunun üçün 15 dərəcə götürüblər.

Bu barədə oxuduğum araşdırmaların birindəki məlumata görə Misirdə bu gün də istifadə olunan təqvim 1908-ci ildə Meithe və Lehmann adlı iki ingilis bilim adamının əməyi ilə tərtib olunub. Bunu Muhəmməd bin Musa əl-Misri "Təvqit əl-Fəcr beynət-Təxti'əti vat-Təsvib" adlı araşdırmasında iddia edir, lakin bu məlumatı dəqiqləşdirə bilmədik. Həmçinin orada qeyd olunan məlumata əsasən bu təqvim fəcrin vaxtı üçün günəşin üfüqdən 19.5 dərəcə aşağıda olmasını əsas ölçü kimi götürür.

Türkiyədə Osmanlı dönəmindən hazırlanan təqvimlərdə fəcr üçün diqqətə alınan ölçü 19 dərəcə olub. Osmanlı dönəmində Qazi Əhməd Muxtar Paşa da hazırladığı təqvimdə buna tabe olmuşdur. 1926-cı ildə hazırlanmış təqvim də buna müvafiq olub. 1949-cu ildə aralarında Ömər Nasuhi Bilmen və digər müftilərin də olduğu heyətin təsdiqlədiyi təqvimdə də fəcr üçün 19 dərəcəyə əsaslanıblar. Lakin 1982-ci ildən Dinayət Nazirliyi 18 dərəcəni əsas götürməyə başlayıb və bu günə qədər tərtib etdikləri təqvimlərdə bunun üzərində davam edir.

Türkiyədə təsis edilmiş Süleymaniyyə Vəqfinin hazırladığı təqvimə görə isə fəcr namazının vaxtı günəş üfüqə 9 dərəcə yaxınlaşdıqda daxil olur. Bu, hesablamaq arasında ən aşağı göstəricidir.

İranda Tehran Universitetindəki geofizika institutunun tərtib etdiyi təqvim isə hesablamalarında sübh namazı üçün 17.7 dərəcəni, işə namazı üçün isə 14 dərəcəni əsas götürür.

Fayda: İmsakı fəcr vaxtından bir müddət öncəyə salmaq

Müsəlmanlar arasında yayılmış bidətlərdən biri də ramazan ayında səhuru fəcrin vaxtından bir qədər öncə bitirməkdir. Təqvimlərə nəzər salsaq görərik ki, ramazan ayı üçün hazırlanmış təqvimlərdə fəcr namazının vaxtından öncə imsak üçün də ayrıca vaxtlar qeyd edilir. Bunu ehtiyat üçün etdiklərini söyləyirlər. Onlara görə ibadətdə ehtiyat etmək məqsədi ilə *bu* şəkildə səhuru tənzimləməkdə problem olmamalıdır. Lakin bu, peyğəmbərin – səlləllahu aleyhi va səlləm – sünnətinə müxalifdir. Hətta alimlərimiz də bu bidət haqqında danışıblar və bunu qınayıblar. Hafiz İbn Həcər əl-Asqaləni bu barədə deyir: "**Münkər bidətlərdən biri də ramazanda ikinci azanı və oruc tutanlar üçün yeməyin və içməyin haramlığına əlamət olaraq götürülmüş çıraqları söndürməyi fəcrdən təqribən iyirmi dəqiqə öncə etmək adətidir. Bunu ortaya çıxaranlar iddia edirlər ki, ibadətdə ehtiyat məqsədi ilə edirlər. Bunu isə tək-tük adamdan başqa heç kim bilmir. Bu ehtiyat onları o həddə götürdü ki, vaxtın tam girməsi üçün artıq günəş batdıqdan bir dərəcə sonra azan verməyə başladılar, beləliklə də iftarı gecikdirdilər və suhuru tezləşdirdilər və sünnətə müxalif oldular. Buna görə də onlardan gələn xeyir azalıb, şər isə çoxalıb. Çarə yalnız Allahdan istənər!**"[1] Bu adətin o zaman İbn Həcər'in zamanlarında çıxdığını deyə bilərik. Onun bu sözlərini Muhəmməd bin Allən əs-Siddiqi "Dəlilul-Fəlihin" kitabında və Muhəmməd bin Abdilbəqi *əz-Zurqani* "Şərhul-Muvatta" kitabında nəql edərək təsdiqləyirlər.

İbn Həcər axırıncı sözləri ilə peyğəmbərimizin – səlləllahu aleyhi va səlləm – hədisindəki bu sözlərə *işarə* edir: "**İnsanlar iftarı tezləşdirdikləri müddətdə xeyir içində olacaqlar.**"[2]

[1] "Fəthul-Bəri", 4/199;

[2] "Sahih əl-Buxari" (1957); "Sahih Muslim" (1098); İmam *Əhməd*in "əl-Müsnəd"ində gətirdiyi rəvayətdə isə *bir başqa* ləfzlə belədir: "Səhuru gecikdirdikləri və iftarı tezləş*dirdik*ləri müddətdə ümmətim xeyir içində olacaqlar." İsnadı zəifdir.

TARİXƏN VAXTLAR NECƏ HESABLANIB?

Əziz oxucu! Özünə belə bir sual verə bilərsən ki, məgər namazın vaxtlarını bilmək üçün şəriət aydın ölçülər qoymayıbmı? Cavab budur ki, şəriət bu barədə ölçülər qoyub. Misal üçün zöhr namazının vaxtının girməyi günəşin zenit xəttini keçməsi ilə başlayır. Yaxud da məğrub vaxtı günəşin üfüqdə itməsi ilə, işənin vaxtı şəfəqin itməsi ilə, fəcrin vaxtı isə dan yerinin sökülməsi ilə başlayır. Lakin bunu hər zaman bu şəkildə müşahidə etmək mümkün olmur. Havanın vəziyyəti buna mane ola bilər. Misal üçün hava tutqun olduqda, günəş görülmədikdə, kölgə ilə günəşin zenit xəttini keçib keçmədiyi bilinmədikdə başqa cür hesablamaq olarmı? Məhz bu sualdan çıxış edərək müsəlman alimləri namazın vaxtlarını hesablamaq üçün başqa yollar üzərində də düşünüblər. Bu hesab yollarını ümumən iki hissəyə ayırmaq olar:

- **Alət olmadan aparılan hesablar**
- **Alət ilə aparılan hesablar**

Alət olmadan aparılan hesablama haqqında alimlərimiz kitablar yazıblar. Misal üçün Şihəbuddin əl-Qalyubi (h. 1069/m. 1659) "əl-Hidəyə minəd-Dalələ fi Mərifətil-Vaqti val-Qibləti min ğayri Alə" adında bir risalə yazıb və bu mövzu barəsində ətraflı məlumat verib.

Onun verdiyi məlumatlardan başa düşürük ki, "saat" məfhumu astronomlar ilə şəriət alimləri arasında iki ayrı "saat" məfhumudur. "Müstəvi saat" və ya "astronomik saat" olaraq adlandırılan saat bizim bildiyimiz və istifadə etdiyimiz saatdır. Orta əsrlərdə heyətşünasların (astronomların) istifadə etdikləri saat bu olub. O dövrdə də bir sutkanın 24 saatdan ibarət olduğunu deyiblər. 360 dərəcəni 24 saata böldükdə hər saat üçün 15 dərəcə düşüb. Astronomik saatlar sabit saatlar sayılıb, yəni nə qısalar, nə də uzanar. Gecə ilə gündüz bərabər olduqda gündüz on iki saat, gecə də on iki saat olur. Lakin gecə qısaldıqda saatlar qısalmır, sadəcə olaraq gecənin payına düşən saatların sayı azalır, gündüz uzandıqda da saatlar uzanmır, sadəcə olaraq gündüzün payına düşən saatların sayı çoxalır.

Bir də şəriət alimlərinin istifadə etdikləri "zaman saatı" vardır. Zaman saatı da müstəvi saatı kimi sutkada 24 saatdır, o da gecə ilə gündüz bərabər olduqda hər birinin payına 12 saat düşməklə ikiyə ayrılır. Lakin müstəvi saatdan fərqli olaraq "zaman saatı" sabit deyildir, gecənin qısalıb uzanmasından asılı olmayaraq hər zaman gecə on iki saat olur, eləcə də


gündüz hər zaman on iki saat olur. Bu baxımdan "zaman saatı" daralır və uzanır.

Namazın vaxtları hesablandıqda orta əsrlərdən bəri alimlər astronomik saatlardan istifadə ediblər, çünki o saatlar sabit qalır, dəyişmir. *Bu mövzuda* ələ alınan terminlər arasında "bürc" və "mənzilə" terminləri də vardır ki, onları da anlamaq lazımdır. Bildiyimiz kimi on iki bürc vardır.

تَبَارَكَ ٱلَّذِى جَعَلَ فِى ٱلسَّمَآءِ بُرُوجًا وَجَعَلَ فِيهَا سِرَٰجًا وَقَمَرًا
مُّنِيرًا ﴿٦١﴾

"**Səmada bürclər qoyan və orada günəş və nurlu bir ay yaradan (Allah) nə qədər ucadır.**" [əl-Furqan, 61]

Bu bürclər "məsəruş-şəms" (ingilis dilində ecliptic) adlanan günəş yolunun ətrafında toplanmış ulduzlar toplularına verilmiş adlardır. "Məsəruş-Şəms" isə Yer kürəsi Günəşin ətrafında dövr etdiyi üçün bizim tərəfdən göründüyünə əsasən Günəşin *seyr etdiyi yoldur və* bu yolun doqquz dərəcə şimalı ilə doqquz dərəcə cənub həddi arasında bürclər düzülüb. Buradan anlayırıq ki, günəşin *izlə*diyi bu yol boyunca, bu dairəvi kəmər boyunca *düzülmüş ulduzlar toplusuna bürclər* deyilir və "bürc dairəsi" dedikdə qəsd olunan həmin bu kəmərdir.



Şəkil 5: Ayın "məsəruş-şəmsə" nisbəti

"Mənzilələrə" gəldikdə isə bilmək lazımdır ki, günəşin *seyr etdiyi yol* olduğu kimi ayın özünün də seyr etdiyi yol vardır. Ayın seyr etdiyi yol "məsəruş-şəms" dediyimiz dairədən təxminən *beş dərəcə* kənara meyl edir. Ay Yer kürəsi ətrafındakı dövrəsini 27.322 günə *başa vurur, lakin Ay Yerin* ətrafında dövr etdiyi müddətdə, Yer də Günəşin ətrafında dövr edir. Ay hər gün 13 qövs dərəcəsi qət edir. Ay 27.322 günə baş vurduğu tam dövrəni

seyr etdiyi müddətdə Yer kürəsi də Günəşin ətrafında 27 dərəcə seyr etmiş olur. Ona görə də ay bizə nisbətdə tam əvvəlki yerinə qayıtması üçün bir də bu 27 dərəcə fərqi də aradan qaldırması lazımdır. Bu fərqi aradan qaldırmaq üçün iki gündən çox vaxt lazım olur. Ona görə də bizə nisbətdə ayın tam dövrəsi 29.53 gün çəkir. Bu səbəblə də qəməri aylar ya 29 gün olur, ya da otuz gün olur.

Hər gün ayın zühur etməsini izləyən kəslər görəcəklər ki, ay əvvəlki günə nisbətdə təxminən 52 - 53 dəqiqə daha gec zühur edir. Zühur etmək dedikdə isə Yer səthində olan insanın müşahidəsində ayın üfüq xəttindən çıxmasıdır. 13 dərəcə vaxt baxımından təxminən 52 dəqiqəyə bərabərdir.

Ərəblər Ayın Yer ətrafında bir ay dövranı müddətində qət etdiyi bu dairəni 28 yerə bölürlər. Bu yerlərə mənzilələr deyirlər.

وَٱلْقَمَرَ قَدَّرْنَٰهُ مَنَازِلَ حَتَّىٰ عَادَ كَٱلْعُرْجُونِ ٱلْقَدِيمِ ﴿٣٩﴾

"**Ay üçün də mənzilələr müəyyən etdik. Nəhayət o dönüb xurma ağacının qurumuş budağı kimi (əyri) olur.**" [Yasin, 39]

هُوَ ٱلَّذِى جَعَلَ ٱلشَّمْسَ ضِيَآءً وَٱلْقَمَرَ نُورًا وَقَدَّرَهُۥ مَنَازِلَ
لِتَعْلَمُوا۟ عَدَدَ ٱلسِّنِينَ وَٱلْحِسَابَ ۚ مَا خَلَقَ ٱللَّهُ ذَٰلِكَ إِلَّا بِٱلْحَقِّ ۚ
يُفَصِّلُ ٱلْءَايَٰتِ لِقَوْمٍ يَعْلَمُونَ ﴿٥﴾

"**Günəşi işıqlı, ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə ona mənzilələr müəyyən edən Odur. Allah bunları yalnız haqq naminə yaratmışdır. O ayələrini bilən adamlara izah edir.**" [Yunus, 5]

Bu mənzilələr ulduzlar arasındakı fəza üçün işlədilən addır. Bu ulduzlar isə tək bir ulduz və ya ulduzlar toplusu ola bilər və yuxarıda sözünü etdiyimiz bürclər də bura daxildir. Ay hər bir mənzilədə bir gecə qalır. Ona görə də bu ulduzlara "nucumul-əxz" deyirlər, çünki Ay hər bir ulduzdan bir gecə "əxz" edir, yəni götürür. Hər gecə bu 28 mənzilədən 14-ü görünür və geridə qalan 14-ü isə Yür kürəsinin görünməyən səmasında qalır. Qərb üfüqündə hər dəfə bir mənzilə batdıqda qarşı tərəfdə, yəni şərq üfüqündə yeni bir mənzilə peyda olur və bu mənziləyə "rəqib" mənzilə deyirlər. Bu 28 mənzilədən 14-ü məsəruş-şəms adlandırdığımız ekliptik xəttin şimalına, 14-ü də cənubuna düşür. Ərəblər şimal mənzilələrə "şam mənzilələri", cənub mənzilələrə isə "yəmən mənzilələri" deyirlər, çünki şamdan baxdıqda 14 mənzilə cənubda görsəndiyi üçün onlara yəmən mənzilələri deyilir,

Yəməndə baxdıqda isə geridə qalan 14 mənzilə *şimala düşür, ona da şam* mənzilələri adı verilib. Şimal mənzilələri, *yəni şam m*ənzilələri bunlardır: Şəratan (الشَرَطانِ – Beta Arietis), Buteyn (البَطَيْنُ – Delta Arietis), Sureyyə/Ülkər (الثُّرَيَّا – Pleiades), Dəbəran (الدَّبَران - Aldebaran), Həq'a (الهَقْعَةُ - Meissa), Hən'a (الهَنْعَة - Alhena), Zira (الذِرَاع - Bellatrix), Nəsra (النَّثْرَة - Praesepe), Tarf (الطَّرْفُ – Lambda Leonis və ya Alterf), Cəbhə (الجَبْهَة – Gamma Leonis), Zubra (الزُّبْرَة – Delta Leonis və ya Zosma), Sarfə (الصَّرْفَة – Beta Leonis və ya Denebola), Avva (العَوَّاء – Delta Virginis və ya Auva) və Simək (السِّمَاك – Alpha Virginis və ya Spica). Cənub, yəni yəmən mənzilələri isə bunlardır: Ğafr (الْغَفْر – Iota Virginis və ya Syrma), Zubənə (الزُّبَانَا – Alpha Librae), İklil (الإِكْلِيل: üç ulduzdur: Beta Scorpius, Delta Scorpius və ya Dschubba, Pie Scorpius), Qəlb (القَلْبُ – Alpha Scorpius və ya *Antares), Şövlə* (الشَّوْلَة – Lambda Scorpius), Nəayim (النَّعَائِم - Sagittarius), Bəldə (البَلْدَة – Pi Sagittarius), Sa'duz-Zəbih (سَعْدُ الذَّابِح – Beta Capricorni), Sa'du Bulə' (سَعْدُ بُلَع – Theta Capricorni), Sa'dus-Su'ud (سَعْدُ السُّعُود – Beta Aquarii), Sa'dul-Əxbiyə (سَعْدُ الأَخْبِيَة – Gamma Aquarii), Muqaddəm (مُقَدَّمُ الدَّلْو : Alpha Pegasus və ya Markab, Beta Pegasus və ya Scheat), Muəxxar (مُؤَخَّرُ الدَّلْو: Gamma Pegasus və ya Algenib, Alpha Andromedae və ya Alpheratz və Sirrah) və *Rişə* (الرِّشَاء – Beta Andromedae və ya Mirach).

Bu mənzilələr yalnız ərəblərə xas bir şey olmayıb. Qədim mədəniyyətlərin bir çoxunda bu cür ayın və günəş*in seyr etdiyi yolu m*ənzilələrə bölüblər. Bu iyirmi səkkiz mənzilənin hər birində ay bir gecə qalır. Günəş *isə* hər bir mənzilədə on üç gün qalır, yalnız Tarf mənziləsində on dörd gün qalır. Bunların hamısı birlikdə 365 gün *e*dir. Bu isə ilin günlərinin sayıdır.

Dərəcə ilə götürdükdə hər bir bürc üçün otuz dərəcə *düşür və* hər bir mənzilə üçün 12.86 dərəcə *düşür. Ş*əriət alimləri kitablarında dərəcələri altmış dəqiqəyə bölürlər, *y*əni bir dərəcə altmış dəqiqədir. Bunu bizim bildiyimiz dəqiqə ilə səhv salmayaq. Onlar "bir dəqiqə" dedikdə bizim indiki zamanımızdakı müddət ilə təqribən dörd saniyəni qəsd *e*dirdilər. Amma onların zamanında təbii ki, m*e*xaniki və ya *e*lektronik saatlar olmadığı üçün saniyə məfhumu da yox idi. Saniyə məfhumu onların zamanında yalnız həndəsə *e*lmində *işlə*dilirdi. Bir dəqiqə ölçü olaraq onların nəzərində ixlas surəsini bəsmələ ilə birlikdə bir dəfə sürətlə oxuya biləcəyin müddətdir. Təbii ki, bu, təqribi bir müddətdir. Allahın *e*lçisinin – səlləllahu aleyhi və səlləm – zamanında da bu tərzdə zamanı ölçərdilər. Qatədə'nin *Ə*nəs bin Malik'dən rəvayət *e*tdiyi hədisdə d*e*yir ki, "**peyğəmbər – səlləllahu aleyhi və səlləm – Zeyd bin Səbit ilə birlikdə səhur yedilər, bitirdikdə Allahın elçisi – səlləllahu aleyhi və səlləm – namaza qalxdı və namazını qıldı." Ənəsə dedik: "Onların səhuru bitirmələri ilə namaza başlamaqları arasında nə qədər var idi?" Dedi: "Bir kəsin əlli ayə**

oxuya biləcəyi qədər."[1] Bu tərz hədislər sünnət kitablarında çoxdur. Təbii ki, bu cür vaxtı hesablama dəqiq deyildir, lakin təxmini bir təsəvvür formalaşdırmaq üçün kifayət edirdi. Bu müqəddiməni təqdim etdikdən sonra deyirik:

Namazın vaxtını təyin edənlər heç bir alət olmadan namazın vaxtını üç şeyə görə təyin ediblər: 1) mənzillərə görə, 2) aya görə və 3) saata görə.

Mənzilələrə gəldikdə şəriət alimləri onların dəqiq bir hesablama olmadığını söyləyirlər. Lakin bunun təxminən sübhün vaxtının yaxınlaşması üçün istifadə edilə biləcəyini deyirlər. Deyirlər ki, gecənin qaranlığı ümumən on iki mənzilə davam edir, fəcrdən günəşin çıxmağına qədər isə iki mənzilə vardır. Təbii ki, bu, gecə ilə gündüzün bərabər olduğu müddətə aid edilir. Günəşin hər bir mənzilədə ən az on üç gün qaldığını bildikdən sonra həmin bu ulduzlara baxaraq onun təxminən harada olduğunu və çıxmağına neçə mənzilə qaldığını tapmaq olur. Qayda budur ki, hər dəfə qərbdə mənzilə batdıqda, şərqdə yeni bir mənzilə, yəni yuxarıda adlarını qeyd etdiyimiz ulduzlardan yeni bir ulduz və ya ulduz toplusu çıxır. Günəşin hansı mənzilənin içində olduğunu bildikdən sonra günəş batdığı andan sonra həmin mənzilədən iki mənzilə əvvəl yerləşən mənzilə şərqdə çıxdıqda bilmək olur ki, günəşin çıxmağına iki mənzilə qalıb. Misal üçün günəş *batanda bizim* Ülkər adlandırdığımız, ərəblərin Sureyyə adlandırdıqları ulduzu səmanın bir yerində görsən və sonra həmin gecə sureyyənin yerində artıq Ğafr mənziləsinin durduğunu görsən bu hesablamaya görə fəcr girmiş sayılır. Mənzilələrə həm də koordinatlarına görə də ad veriblər. Misal üçün üfüqdə batan mənziləyə "ğarib", şərq üfüqündə çıxana "tali", müşahidə edənin başının üstündəki mənzilə "mutəvassit", ayaqlarının altındakına isə "vatəd" deyirlər. Əgər birinci mənzil ğaribdirsə, o zaman mutəvassit olan səkkizinci mənzil olur, tali' isə *on beşinci m*ənzil, iyirmi ikinci isə vatəd olur.

Bunu da bəyan etdikdən sonra bir daha xatırladırıq ki, şəriət alimləri qətiyyət ilə bildirirlər ki, mənzilələr fəcrin vaxtını dəqiq təyin etmək üçün istifadə edilə bilməz, çünki mənzilələrin hamısı eyni ölçüdə deyildir, bir-birilərindən fərqlənirlər. Lakin qəsd etdikləri budur ki, günəşin çıxmağına iki mənzilə qaldıqda artıq fəcrin yaxınlaşdığını bilmək olar. Fəcr heç zaman iki mənzilədən çox olmur, lakin az olur.

Aya görə fəcrin vaxtını təyin etməyə gəldikdə isə bu da təqribi bir hesab metodudur, yəni bununla dəqiq ölçmək mümkün deyildir. Lakin bu üslubu bir ay içində yalnız iki dəfə istifadə etmək olur. Bu özü də ölkədən ölkəyə fərqlənir. Misal üçün əl-Ğazəli və *onun kimi Şam və* Bağdad tərəflərdə fəaliyyət göstərmiş bəzi alimlər qeyd edirlər ki, qəməri ayının on ikinci günü ay batdıqda fəcr girir, bir də iyirmi altısında ay üfüqdən çıxdıqda fəcrin vaxtı

[1] "Sahih əl-Buxari" (576);

girir. Lakin bu, Şam və Bağdad kimi ölkələr üçün təxminən doğru gəlir. Misal üçün Yəmənin alimləri isə deyirlər ki, onlarda bu ayın on üçünə və iyirmi yeddisinə düşür. Bu isə çox zaman doğru gəlir, lakin hər zaman doğru gəlməsi qəməri ayların başlanğıcını doğru təyin etməkdən asılıdır. Orta əsrlərdə buna əsaslanaraq özləri üçün təqvim tərtib edənlər də olmuşdur.

Üçüncü metod isə saata əsasən təyin etməkdir. Bu metod təcrübəyə və astronomiya elmindəki bəzi müqəddimələrə əsaslanır. Heyətşünasların qəbul etdiyinə görə gecənin vaxtı uzandıqda fəcrin də vaxtı uzanır, qısaldıqda isə qısalır, yəni fəcr uzunluqda və qısalıqda gecəyə tabedir. Ona görə də bəziləri buna əsasən özləri üçün bir ölçü götürüblər. Müşahidələrinə əsaslanaraq fəcrin müddətinin gecənin neçədə birini təşkil etdiyini öyrənməyə çalışıblar. Misal üçün yəmənli şafi'i alimi İbrahim bin Əli əl-Əsbəhi (vəfatı hicri 667) "əl-Yəvaqit fi Mərifətil-Məvaqit" adlı kitabında qeyd edir ki, onun hesablamasına görə qışda gecə ən uzun olduqda fəcrin müddəti iki saatdan bir saatın səkkizdə bir hissəsi qədər azdır, yəni bir saat 52 dəqiqədir. Gecə ilə gündüz bərabərləşdirdə isə əl-Əsbəhi'yə görə fəcrin müddəti bir saat yarım olur. Gecənin ən qısa olduğu günlərdə isə fəcrin müddəti ona görə bir saat və saatın səkkizdə bir hissəsi qədər olur, yəni bir saat 8 dəqiqə olur. Bəziləri buna əsaslanaraq fəcrin vaxtının günəşin batdığı vaxt ilə günəşin çıxdığı vaxt arasındakı müddətin səkkizdə biri qədər olması nəticəsinə varıblar. Ona əsaslanaraq özləri üçün təqvim hazırlayıblar. Bu metodda təqribi metod sayılır.

Namazın vaxtlarını alətlə təyin etməyə gəldikdə isə bu daha əvvəlki metodlardan dəqiqdir və heyətşünaslara görə bununla fəcrin vaxtını dəqiq təyin etmək mümkündür. Bunun üçün üstürlab, rub' (naviqasiya kvadrantı) kimi alətlərdən istifadə ediblər. Bu daha çox Dəməşq, Bağdad, Qahirə kimi İslamın böyük şəhərlərində istifadə edilib, hər yerdə bu cür alətləri istifadə etmək üçün imkan olmayıb, həm də onları mahirliklə istifadə edəcək mütəxəssislər olmayıb.

Ümüd edirik ki, bu yazdıqlarımızla sizdə təxminən orta əsr İslam aləmində namazın vaxtlarının necə təyin edilməsi haqqında bir təsəvvür formalaşdı. Günümüzdə istifadə olunan namaz vaxtları üçün hazırlanmış təqvimlər müasir fenomendir, əvvəllər bu dərəcədə dəqiq təqvimlər mövcud olmayıb. Lakin təqvimlər özlüyündə yeni bir şey deyildir, təqribi metodlara əsaslanan təqvimlər olub və xüsusilə də bu təqvimləri heyətşünaslar hazırlayıblar.

MÜASİRLƏRİMİZİN İXTİLAFI

Bu təvqimlər əsrimizdə şəriət alimləri, rəsmi dairələr və başqaları arasında müzakirə obyektinə çevrilib. Bu təvqimlərə qaşı bir çox ölkədə şəriət alimləri etiraz ediblər və təqvimlərin namazın həqiqi vaxtlarını əks etdirmədiyini deyiblər. Müasir zamanımızda təqvimlərdəki xətalara işarə edənlər arasında Şeyx Nəsiruddin əl-Albani, Şeyx Muhəmməd bin Saleh əl-Useymin, məğribli Şeyx Təqiyyuddin əl-Hiləli, Misirdə Şeyx Muhəmməd Raşid Rida kimi şəxsiyyətlər yer alır. Təqiyyuddin əl-Hiləli bu barədə iki risalə yazıb. Şeyx əl-Albani bunu bir təqvimlə xüsusiləşdirməyib, lakin bir çox ərəb ölkələrində vaxtların iyirmi dəqiqə və bəzən yarım saat öncə olduğunu deyib. Şeyx əl-Albani bunu şəxsən özünün müşahidə etdiyini də əlavə edir və deyir: "**Özüm bunun dəfələrlə Amman şəhərinin cənub şərqində yerləşən Cəbəl-Həmlən'dəki evimdən dəfələrlə görmüşəm. Bu mənə, müsəlmanların ibadətlərini düzəltməyə qeyrət göstərən bəzi kəslərin dediklərindən əmin olmaq imkanı verdi ki, bəzi ərəb ölkələrində fəcr azanı həqiqi fəcrdən iyirmi ilə otuz dəqiqə arasında dövr edən bir müddət erkən verilir...**"[1] Lakin Şeyx əl-Albani öz müşahidəsinə əsaslanaraq gəldiyi nəticəni digər ərəb ölkələrinə də aid etməsinin səbəbini izah etmir və biz onun başqa ölkələrdə də müşahidə aparıb aparmadığını bilmirik. Zahir olan budur ki, Şeyxin müşahidəsi yalnız Ammanla məhduddur.

Səudiyyənin cənubunda müftilik etmiş Şeyx Əhməd ən-Nəcmi də təqvimlər razılaşmayanlar arasındadır. O, bu barədə deyir: "**Təqvimdəki vaxt ilə fəcrin həqiqi çıxışı arasında iyirmi dəqiqə fərq tapıblar. Elektrik gəlmədən öncə bunu mən şəxsən özüm izləmişəm; Samta şəhərindəki evimin səthində yatardım və fəcri gözləyərdim və təqribən iyirmi dəqiqə sonra (fəcr) aydın görünürdü.**"Şeyxin burada elektrikin gəlməməsinə işarə etməsi önəmlidir. Çünki buradan belə nəticəyə gələ bilərik ki, Şeyxin müşahidəsinə mane ola biləcək işıq mənbələri yox idi.

Həmçinin Misirdən də bir çox şəriət alimi təqvimlərə etiraz ediblər. Onların arasından ən məşhuru "əl-Mənar" təfsirinin sahibi Muhəmməd Raşid Rida'dır. O, təfsirində deyir: "**Reallıqda isə işıqlığın ağlığı yalnız**

[1] "Silsilətul-Əhədis əs-Sahihə", 5/52;

təqribən iyirmi dəqiqədən sonra insanlara aydın olur."[1] Həmçinin misirli mühəddis Mustafa əl-Adəvi "Yəvaqitul-Fələh fi Məvaqitis-Saləh" adlı kitabında deyir: "**Bəzi ölkələrdə - hətta çoxunda – ikinci (həqiqi) fəcr aydınlaşmadan əvvəl fəcr vaxtı üçün azan verirlər... mən bunu Misirdəki kəndimizdə yoxladım və gördüm ki, bu ağ sap (həqiqi ikinci fəcr) təqvimdə göstərilən azan vaxtından iyirmi dəqiqə ətrafında bir müddətdən sonra üzə çıxır.... Keçən il Misirdə yayımlanan "əl-Liva əl-İsləmi" jurnalının axırıncı sayında əl-Əzhar şeyxinin bizim dediyimizə təqribən müvafiq olan fətvası sadir oldu...**"[2] *Şeyxin burada işarə* etdiyi fətvasını öyrənmək mənə müyəssər olmadı, ola bi*lsin ki, Şeyx sadəcə* əl-*Əzhər* tərəfindən n*əşr olunan jurnalda* əl-Kuleyb'in araşdırmasının çap olunmasından danışır. Doğrusunu Allah bilir, lakin əl-*Əzhar*'ın keçmiş şeyxlərind*ən Şeyx C*ədul-Həqq bu məsələdə əl-Adəvi ilə razılaşmamışdır.

Səudiyyə *Ər*əbistandan b*u görüşdə olmuş şeyxlə*r arasında Abdurrahmən bin Ali Firyən də olub. O, h*ətta bu görüşü keçmiş sabiq müftilə*rdən Muhəmməd bin İbrahim Al *əş-Şeyx'ə* nisbət edir. Ona görə Şeyx İbn İbrahim namaza iqaməni gecikdirərdi və yalnız sübhün girməyindən tam əmin olduqda qıldırardı. Eləcə də hal-hazırda yaşayanlardan böyük alimlər he*yətinin üzvü Şeyx Said bin Turki* əl-Xasələn də *bu görüşdə*dir və *Şeyx* əl-Xasələn hal-hazırda bu görüşü *ən şiddə*tlə müdafiə edənlərdəndir. Həmçinin "İslam; Sual və Cavab" səhifəsində verdiyi cavabından başa düşmək olur ki, *Şeyx Saleh* əl-Munəccid də bu görüşün doğruluğuna inanır.

Şeyx Saleh bin Useymin'ə gəldikdə isə daha *əvvəl ondan sadir olmuş bə*zi sözləri oxuduqda onun da digərləri kimi təqvimin 15-20 dəqiqə tez olduğuna inandığını düşünürdük. Onun bu mənaya gələn bir çox sözü vardır. Lakin *daha sonra Şeyxin başqa sözlə*rini də oxuduqda qane olduq ki, Şeyx İbn Useyminə görə ummul-qura təqvimi sadəcə *beş də*qiqə vaxtından tez verilir. Ona görə də *Şeyx buna görə* xüsusi narahatçılıq qaldırmağa səbəb görmürdü. Tələbələrinin xəbər verdiyinə görə İbn Useymin'in öz əli ilə hazırladığı ayrıca bir təqvim də olub; orada vaxtları ummul-qura təqvimindən *beş də*qiqə gec yazıb.

Digər tərəfdən isə Səudiyyədəki və digər ölkələrdəki rəsmi dairələr təqvimin doğruluğunu müdafiə ediblər. Həmçinin Səudiyy*ənin keçmiş* müftisi Abdulaziz İbn Baz və *indiki müftisi Abdulaziz Alu*ş-*Şeyx t*əqvimin doğruluğunu təsdiq edirlər. Bu məsələdə t*əqvimi şiddə*tlə müdafiə edənlərə və təqvimə şəkk gətirənl*əri şiddə*tlə tənqid edənlərə ən *aşkar misal b*əlkə də

[1] "Təfsirul-Mənar", 2/148;
[2] "Yəvaqitul-Fələh", səh: 127;

Saleh əl-Favzan'dır, çünki bu məsələdə müxaliflərini çox sərt sözlərlə tənqid edib. Həmçinin böyük alimlər heyətindən Şeyx Mutləq də bu görüşdədir.

Beləliklə də ümumi mənzərədən anlamaq olar ki, bu məsələ çox qızğın bir müzakirə obyektidir və şübhəsiz ki, burada qarşılıqlı ittihamlardan yan keçmək olmaz.

APARILMIŞ MÜŞAHİDƏLƏR VƏ ARAŞDIRMALAR

Şəriət alimlərinin bu barədəki müzakirələrindən ziyadə bu mövzuda ciddi və ya yarı-ciddi araşdırmalar aparılıb. Müxtəlif dövlət idarələri, müstəqil təşkilatlar və ya müstəqil araşdırmacılar ayrı-ayrı zamanlarda və ayrı-ayrı bölgələrdə fəcr və işə namazlarının vaxtları üçün müşahidələrdə iştirak ediblər.

Bu barədə vaxtında ən çox səda salan araşdırma Şeyx Abdulməlik Ali əl-Kuleyb'in miladi təqvimlə yetmişinci illərdə yayımladığı araşdırma oldu, araşdırmada gəldiyi nəticə təqvimlərin xətalı olması nəticəsi idi. Ona görə fəcr namazı üçün əsas alınacaq dərəcə 16.5 olmalıdır. Bu araşdırma Misirdən tutmuş Küveytə və Məğribə qədər bir çox idarələrin marağına səbəb oldu. Misirdə o dövrdə Əzharın şeyxi Şeyx Cədul-Həqq Əli Cədul-Həqq bu araşdırmanı rədd etmiş və mövcud təqvimlərin doğruluğunu təsdiqləmişdi. əl-Kuleyb'in araşdırmasına ən ciddi cavab məğribli alim əs-Seyyid əl-Həc Muhəmməd bin Abdilvahhəb ibn Abdirrazzəq əl-Fəsi əl-Mərakeşi (h. 1324/m. 1906 – h. 1432/m. 2011) tərəfindən gəldi. Həmçinin Şeyx İbrahim əs-Subeyhi kitabında zikr edir ki, əl-Kuleyb'in kitabı çıxdıqdan sonrakı dövrdə Misirdə bu barədə müzakirələr hələ on illərlə bir çox şeyxi narahat edəcək mövzuya çevrilmişdi. əs-Subeyhi qeyd edir ki, hicri 1406-cı ildə, miladı 1986-cı ildə Şeyx Əbu Bəkr əl-Cəzəiri İskəndəriyyə şəhərini ziyarət edir və orada İskəndəriyyənin ən məşhur elm tələbələri ilə maşınlara minərək böyük bir dəstə halında şimal sahillərindəki səhralığa çıxırlar. Bu dəstənin arasında Şeyx Muhəmməd bin İsmayıl əl-Muqaddəm, Şeyx Əhməd Fərid, Şeyx əs-Seyyid əl-Ğubəşi, Şeyx əl-İməd Abdulğafur və başqaları da var idi. Səhrada yalançı fəcrı və həqiqi fəcri müşahidə edirlər. Deyilənə görə müşahidələrinin nəticəsində Şeyx əl-Cəzəiri onlara fəcrin girişinin Misirdəki rəsmi təqvimə uyğun olduğunu göstərə bilib, bəziləri isə fəcrin girişinin təqvimdən iki-üç dəqiqə sonra girdiyini görüblər.

Səudiyyə Ərəbistanda da bu barədə xeyli müzakirələr olub. Şeyx İbn Bazın zamanında bir çox səudiyyəli şeyx təqvimin doğru olmadığını söylədiyi üçün Şeyx İbn Baz bunu araşdırmaq üçün bir komissiya qurur və həmin komissiyanın araşdırma sonunda gəldiyi nəticə təqvimin doğruluğuna varır. Lakin bu, mövcud ixtilafı aradan qaldırmadı. Müfti Abdulaziz Aluş-Şeyx mufti oduqdan sonra şikayətləri nəzərə alaraq 2004-cü ildə yenə bir komissiya qurulması üçün əmək sərf edir və bu komissiyanın üzvləri arasında Şeyx Said bin Turki əl-Xasələn kimi tanınmış şeyxlər də yer alır. Beləliklə

də yeni bir araşdırma baş tutur. Bu araşdırma ümumilikdə *13 müşahidədən* ibarətdir və 2004-cü ilin fevral ayından 2005-ci ilin mart ayına qədər davam edib. Bu komissiyanın gəldiyi nəticədə təqvimin xətalı olduğunu, bəzən on *beş dəqiqə*, bəzən də iyirmi dəqiqə erkən olduğunu söylədilər. Lakin Muhəmməd *Şövkət*'in verdiyi məlumata görə daha sonrakı dövrdə Belçikada keçirilmiş astronomların konfransında həmin araşdırmada iştirak *etmiş Doktor* Zəki əl-Mustafa və Doktor *Əymən* əl-Kurdi ilə *görüşün və Şeyx* Said əl-Xasələn'in hüzurunda onlarla arasında bir söhbət olub və bu söhbət əsnasında hər iki doktor da araşdırmada xətaların olduğunu etiraf ediblər və əlavə ediblər ki, daha sonrakı özlərinin ayrılıqda etdikləri araşdırmada 18 dərəcənin doğru olduğundan qane olublar. Lakin Şeyx Said əl-Xasələn bu günə qədər də araşdırmanın nəticələrinin doğru olduğunu söyləyir.

Bura qədər təqdim etdiyimiz məlumatlardan artıq başa düşmək olur ki, məsələ sadəcə təqvimlərə etiraz məsələsi deyildir, məsələ həm də aparılmış *müşahidələrdə* ortaya çıxan fikir ayrılığıdır. Araşdırmalar bizim qeyd etdiyimiz bu bir neçə araşdırma olmayıb. Onların sayı çoxdur. İsveçli müsəlmanlar bu araşdırmaları yığcam və faydalı bir tərzdə kiçik bir yazıda bir araya gətiriblər. Biz də oxucuların məlumatı üçün həmin yazıda qeyd *olunan müşahidələr* və onların gəldiyi nəticələr haqqında məlumat veririk.

Birləşmiş Krallıqda, Blackburn məntəqəsində 1987-ci ilin sentyabr ayı ilə 1988-ci ilin avqust ayları arasında Hizbul-Uləmə təşkilatı tərəfindən *müşahidlər* aparılıb. Bu məntəqə 53.8 paralelində yerləşir. Qış aylarında *edilmiş müşahidələrdə* fəcrin 13.8-15.0 dərəcələri arasında dəyişdiyini qeydə alıb.

İkinci müşahidə Kanadada Montreal və *Toronto* şəhərlərində Doktor Həkimullah Ğavri tərəfindən aparılıb. Müşahidə yay aylarında aparılıb. Fəcrin 16.7 dərəcə ilə 17.9 dərəcə arasında daxil olduğu qeydə alınıb. *Müşahidə* həm də onu da qeyd alıb ki, fəcr girdikdən sonra üfüqdə qızartı 14.2 dərəcə ilə 14.8 dərəcə arasında ortaya çıxıb. Montreal və Toronto şəhərləri 45.5 və 43.7 paralellərində *yerləşirlər*.

Kanadada bir başqa araşdırmaq Xalid Şövkət tərəfindən edilib. Bu araşdırmanın hansı tarixdə edildiyi haqqında məlumat verilmir. Lakin araşdırmanın *nəşr olunmuş nəticələrinə* əsasən yay vaxtı fəcr 14.5 dərəcədə, qış vaxtında isə 17.2 dərəcədə girib.

Daha bir araşdırma Ömər *Əzfəl* tərəfindən Kaliforniya ştatındakı Tracy məntəqəsində (37.7-ci parallel) aparılıb. 2005-ci ilin iyul ayında aparılan *müşahidədə* qeydə alınmış nəticəyə əsasən 10.5 dərəcədə fəcr girib. Digər *müşahidələrə* nəzərən bu, çox aşağı bir rəqəmdir və bunun xəta olması çox aşkardır.

Daha bir araşdırma 2003-cü ilin noyabr ayında yəmənli astronom Doktor Abdulhəqq Sultan tərəfindən aparılıb. Sana'a şəhərindən 30 km kənarda yerləşən Bənu Həşiş məntəqəsində, 2200 metr yüksəklikdə aparılmış bu müşahidə nəticəsində fəcrin 19 dərəcədə girdiyini müşahidəsində yazır.

İsveçli müsəlmanların hazırladıqları yazıda yalnız bu araşdırmalar qeyd olunur və mən bura digər müşahidələr haqqında Şeyx Muhəmməd Şövkətin araşdırmasından və Misirin Astronomiya və Geofizika üzrə Milli Araşdırmalar İnstitutunun raportundan məlumatlar əlavə edəcəm.

1982-ci ildə İordaniyanın vəqf və diyanət nazirliyi tərəfindən aparılmış müşahidələrə əsaslanaraq bir təqvim hazırladı. Muhəmməd Şövkət həmin təqvimdə qeyd edilmiş vaxtlara əsasən fəcrin 18.6 dərəcədə daxil olduğunu bildirir.

1992 və 1993-cü illərdə Liviyada da bu yöndə müşahidələr aparılıb. İslam dəvəti külliyyəsi tərəfindən 1992-ci ildə təşkil edilmiş komissiyanın tərkibində şəriət alimləri ilə yanaşı astronomlar da iştirak edir. Ümumi hesabla hər biri yeddi və ya on gün çəkən səkkiz müşahidə cəhdi edilir və bunların hər biri ölkənin müxtəlif hissələrində həyata keçirilir. Müşahidələr nəticəsində fəcrin 17.5 dərəcə ilə 19.2 dərəcə arasında daxil olduğunu qeydə alırlar.

2009-cu ilin sentyabr ayında İordaniyada astronom Doktor Abdulqadir Abid tərəfindən daha bir müşahidə aparılır. Muhəmməd Şövkət'in dediyinə görə araşdırmasını yazdığı müddətdə müşahidələr davam edirdi, lakin əldə edə bildiyi məlumata əsasən müşahidələri fəcrin 16.25 dərəcə ilə 17.1 dərəcə arasında girdiyini təsdiqləyib.

Şeyx Said əl-Xasələn'in də iştirak etdiyi komissiyanın isə 2004-cü ilin fevralından 2005-ci ilin martına qədər apardığı müşahidələrin qeydlərinə görə fəcr 14 dərəcə ilə 15.1 dərəcə arasında daxil olur. Bu araşdırma haqqında bir az öncə yuxarıda bəzi məlumatlar zikr etdik.

Misirdə də 1984 və 1987-ci illər arasında Bəhriyyə, Mətruh, Əsvan, Quttamiyyə bölgələrində çox sayda müşahidələr aparılıb. Bu araşdırma Misirin rəsmi fətva qurumu olan Darul-İfta ilə Misirin Elmi Araşdırmalar və Texnologiya Akademiyasının əməkdaşlığı ilə həyata keçib. Araşdırmaların sonunda gəldikləri nəticə bu olub ki, fəcr 14.7 dərəcədə çıxır.

Sözsüz ki, burada qeyd etdiklərim aparılmış bütün müşahidələrin hamısını öz içində cəm etmir, başqa müşahidələr də aparılıb. Lakin biz burada ən məşhurlarını və mövcud müzakirədə adları hallanan müşahidələri zikr etdik. Hər kəs şahidi oldu ki, bu müşahidələrin nəticəsi bir deyildir. Məhz bu səbəblə də bu gün bu sübhün vaxtı üzərində mübahisələr davam edir. Çox təəssüf ki, tərəflər bütün müşahidələrə obyektiv gözlə baxmaq əvəzinə bu müşahidələrdən birini doğru, qalanlarını isə xətalı çıxarmağa çalışırlar. Ona

görə də ortaq bir məxrəcə gələ bilmirlər. *Misal üçün Şeyx Said* əl-Xasələn özünün də *iştirak etdiyi müşahidə*ləri təbii ki, ən doğru müşahidələr hesab edir və ona görə də digər *müşahidə*lərin doğru olmadığına inanır. Eyni mülahizələr digər tərəf üçün də keçərlidir.

NƏ ÜÇÜN MÜŞAHİDƏLƏR FƏRQLƏNİR?

Burada belə bir sual ortaya çıxır: nə *üçün bu müşahidələr* bir-birilərindən bu dərəcədə fərqli nəticələrə gəlirlər? Hamısı da gözlə *müşahidə* etdiyini iddia edirlər. Biz araşdırmamızda bu barədə çox *düşündük və* ümumən mövzu haqqında topladığımız məlumatlardan belə nəticəyə gəldik ki, bu fərqlərin hamısının izahı vardır. Bu fərqlərin səbəbləri şəriətdə sübhün tərifi üzərindəki f*ərqli düşüncələr* ola bildiyi kimi sırf təbii şərtlər də ola bilər. Biz bu səbəbləri aşağıda bir-bir təqdim etməyə çalışacağıq.

- Artıq araşdırmamızın əvvəlindən anladıq ki, həqiqi fəcrin tərifində də fərqli fikirlər mövcuddur. Xüsusilə də müasir zamanımızda revizionist bir mühitdə fiqhi yenidən yazmaq istəyənlər də sübhün tərifində öz aralarında ixtilaf ediblər. İzah etdiyimiz kimi əvvəlki fəqihlərdə qərar tapmış görüş bu olub ki, sübh üfüqdə ilk şüaların görünməyi ilə daxil olur, bunun üçün həmin şüaların yayılması və ya uzanması şərt deyildir, nə də ilk ağartının qırmızılaşmasını gözləmək də şərt deyildir. *Lakin müasir şeyxlər* bu məsələdə fəqihlərdən fərqlənirlər. Onların bu barədə yazdıqlarını oxuduqda görmək olur ki, onlar bu məsələdə fəcrin qırmızı olması görüşünə meyl ediblər. Misal üçün Təqiyyuddin əl-Hiləli, *Şeyx* əl-Albani kimi alimlərin sözlərində buna dəlalət edən sözlər tapmaq olar.
- Bəzi araşdırmalarda günəş *üfüqdə*n 19 dərəcə aşağıda olduqda fəcrin *girdiyi müşahidə* olunub. Misal üçün yəmənli astronom Abdulhəqq Sultan'ın paytaxtdan bir qədər aralıda apardığı müşahidələr əslində iki kilometr hündür bir yerdə aparılıb, bu isə *şübhə*siz ki, nəticələrə təsir edir. Ona görə də isveçli müsəlmanların hazırladıqları yazıda bu yüksəkliyi aradan qaldırdıqda doğru dərəcənin 16.5 dərəcə olduğu qeyd olunur. Bir sözlə relyef çox önəmlidir, çünki *əgər beş dərəcə* hündürdə*n müşahidə* aparılırsa o zaman beş dərəcə erkən fəcr görüləcək.
- B*əzi müşahidələr* yalnız bir və ya bir neçə gündə aparılmış *müşahidələrdir*. Daha dəqiq nəticə almaq üçün bunun uzun bir müddət ərzində aparılması önəmlidir və ortaq bir məxrəc götürülməlidir. Çünki atmosferdəki d*əyişikliklər* bir gündən digər günə görə fərqlənir.

- İşığın sınma bucaqları da coğrafi koordinatlar və atmosferdən asılı olaraq fərqli ola bilər. Buna görə də qütb dairəsində ekvatorla müqayisədə fəcr dərəcəsinin bir dərəcə yüksək olması mümkündür. Həmçinin yayda işığın sınma bucağı qışdakına nisbətdə daha böyükdür. Fəsillər arasında fərq olduğu kimi günlər arasında da belə bir fərq mövcuddur və bu fərqlər bəzən 0.5 dərəcə, bəzən də 1.5 dərəcə fərqin əmələ gəlməsinə səbəb olur.
- Üfüqün təmiz olması da başqa bir faktordur. *Əgər* üfüqdə *meşə* və ya dağlar kimi maneələr varsa təbii ki, fəcrin işığı daha gec görünəcəkdir, bəzən də bu maneə uzaqda olduğu üçün diqqətdən yayına bilər, lakin buna da diqqət etmək önəmlidir.
- Ən önəmli faktorlardan biri atmosferdəki dumanın və aerozolların çoxluğudur. *Ətraf mühit*i öyrənən alimlər və astronomlar havadakı aerozolların miqdarını ölçmək üçün rəng spektrumundan istifadə edirlər. Çox güman ki, havadakı aerozol miqdarının çoxluğu ilk əmələ gələn fəcr işığının qırmızı çalarda görünməsinə səbəb olur.
- Gecə səmasında tam ay işığının olması da təsir edir, çünki tam ay işığında qaranlıq ən dolğun halında olmur, lakin səma bir qədər işıqlı olur. Ona görə də deyə bilərik ki, ay işığının güclülüyü və zəifliyinə uyğun olaraq ilk fəcrin işığı gec və ya tez görülə bilər.
- İnsan gözünün həssaslığı da önəmli rol oynayır. *Əgər* bir insan tam qaranlıqda bir neçə saat qalarsa onun gözü ən zəif işığı belə asanlıqla görməyə hazır vəziyyətə düşür. Lakin evin işıqlığında oturan insanın gözü eyni dərəcədə həssas olmaz. *Misal üçün Şeyx* əl-Albani'nin də etiraf etdiyi kimi o, İordaniyadakı evinin içində*n müşahidə* aparıb və *şübhə*siz ki, burada göz həssaslığı böyük bir rol oynamalıdır.


İşıq çirklənməsi

Bu söz qəribə səslənə bilər, lakin müasir astronomlar bu sözü çox istifadə edirlər. *Astronomik müşahidələr* işıq "çirklənmələrinə" qarşı həssasdır. Astronomların burada istifadə etdikləri "işıq çirklənməsi" ilə qəsd etdikləri ətrafdakı süni işıqların müdaxilə etməsidir. Bu, bəlkə də *müşahidələrin* fərqli nəticələrə gəlməsinin ən əsas faktorudur. Deyə bilərik ki, sənayeləşmiş cəmiyyətlərimizdə süni işıqlarımız gecənin saflığını çirkləndiriblər, ona görə də əslində urbanizasiyanın yüksək olduğu cəmiyyətlərdə indiki nəsillərimiz bəlkə də heç bir zaman həqiqi gecə görə bilməyəcəklər və gələcəkdə *bu şans getdikcə* azalacaq. Çoxumuz bu haldan xəbərsiz yaşayırıq, çünki insan belə bir fərqi görə bilmir, onun üçün gecə öyrəşdiyi qaranlıqdır, bir gecə ilə digər gecə arasındakı fərqi hiss edə bilmir. Bəzi astronomların belə bir sözü var: "400 il bundan öncə Florensiya şəhərində hər kəs ulduzları görə bilirdi, lakin yalnız Qalileo Qalileydə teleskop var idi, bu gün isə hamıda teleskop var, amma heç kəs ulduzları görə bilmir." Hətta bu barədə Paul Bogard adlı amerikalı yazıçı "The End of Night" (Gecənin Sonu) adında bir kitab yazıb və kitabında təbii gecə qaranlığı axtarışı haqqında və bunun dəyəri haqqında yazır.


Sənayeləşmiş cəmiyyətlərdə gecənin itirilməsi astronomları narahat edən bir mövzu olduğu üçün amerikalı həvəskar astronom John Bortle 2001-ci ildə "Sky and Telescope" adlı jurnalda hazırladığı bir şkalanı dərc elədi. Bortle şkalası adı ilə tanınmış bu ölçü vasitəsi gecəni qaranlıq dərəcəsinə görə siniflərə ayırır və ümumən doqquz sinfin olduğunu deyir. Birinci sinfə aid olan gecələrdə ulduzlar çox aydın görünür, gecənin qaranlığı maksimumdadır və yalançı fəcr adlandırdığımız bürc işığını da aydın şəkildə görə bilirik. Doqquzuncu, yəni axırıncı sinfə isə daxili, sıx şəhərlərdəki gecəni aid edir və bu gecələrdə ayı, planetləri və bəzi ən parlaq ulduzlardan *başqa səmada heç bir şey görmək* olmur. Bu gecə işıqla ən çox çirklənmiş gecə sayılır. 2013-cü ildə ən çox işıq çirklənməsi ilə üzləşmiş şəhərin Hong *Kong* şəhəri olduğu elan edilmişdi. *Bu şəkildə gördüyümüz kimi* şəhərdən uzaq bir yerdəki səma ilə şəhərdəki səma müqayisə olunur. Sağ tərəfdəki səma səkkizinci sinfə aid edilən səmadır, bəlkə də yeddinci sinifdən hesab etmək olar, çünki Birləşmiş Ştatların Utah metropolit ərazisindəndir, daxili

şəhər qədər çirklənmiş sayılmır. İşıqla çirklənmiş səma ilə çirklənməmiş səmanı ayıran fərqlərdən biri də budur ki, şəhərdən uzaq bir yerdə gecə vaxtı səmadakı buludlar da qara görünür, lakin şəhərdə gecə zamanı işıqların təsirindən səmadalı buludlar daha aydın bir rənglə görünürlər. Bu, işıq çirklənməsinin ən bariz misallarından biridir. Bütün bunlar üzərində düşündükdən sonra Avropada şəhərlərdə yol kənarında qurulan lampaların işıqlarının yalnız aşağıya doğru işıq yayması üçün dizayn edilmiş formada olması diqqət çəkicidir. Təbii ki, Avropada və Şimali Amerikada, həmçinin Yaponiyada bu problem xüsusilə araşdırılır və diqqətə alınır.

Şəkil 6: Bortle şkalası



Burada düşünmək olar ki, şəhərdən çıxdıqdan sonra və uzaq bir məsafə qət edərək aralandıqdan sonra səma artıq kifayət qədər qaranlıq görünməlidir. Lakin bu hər zaman belə deyildir, çünki şəhərdən kənardakı yerlərdə adi gözlə hər hansı bir işıq qaynağı görmək olmasa da həmin yer şəhər kimi işıqlanmış bir məntəqəyə yaxın yerləşirsə o səma tam olaraq qaranlıq olmaz, tam qaranlıq səma birinci sinfə aiddir. Şeyx Said əl-Xasələn'in iştirak etdiyi müşahidə qrupunun seçdiyi yer də bu mənada birinci sinif gecədə aparılacaq müşahidə üçün uyğun yer sayıla bilməz, çünki həmin yerin özündə işıq qaynaqları olmasa da oradan aralıda şəhərlər mövcuddur və bu, şübhəsiz ki, səmanın işıqlanmasına təsir edir və səmanın tam qaralmasına mane olur.



Şəkil 7: P. Cinzano'nun ilk işıq çirklənməsi atlası

Azərbaycan da əhalinin sıx yaşadığı və bu səbəblə də şəhərlərin çoxluğu səbəbindən çoxlu işıq çirklənməsinə məruz qalmış bölgələrdən sayılır. Xəritədə də bunu aydın şəkildə görə bilərik. Bu baxımdan müşahidələrə ən uyğun olan yerlər Afrikada, Avstraliyada, Orta və Şimal-Şərqi Asiyada və Cənubi Amerikanın Amazon bölgəsindədir. Bu verilənlərdən Kaliforniya ştatında Ömər *Əzfə*l'in apardığı müşahidələrdə fəcrin nə üçün çox gec girdiyini, daha doğrusu fəcrin işığının nə *üçün çox gec göründüyünü başa düşmə*k olar, çünki Birləşmiş Ştatların əksər bölgələri kimi ora da işıqla çirklə*nmiş bölg*ələrdəndir.

Şəkil 8: Eyni səma iki ayrı yerdə. Soldakı işıqla çirklənmiş şəhər səmasıdır



Hətta bəzən adi sayacağımız işıq qaynaqları da işığa həssaslığımızı zəiflədə bilər. Bura biz yoldan keçən maşınların işıqlarını, əl lampasını, gəmi

fanarlarını, mayakları və *başq*a işıq qaynaqlarını misal kimi göstərə bilərik. Heç qəribə deyildir ki, peyğəmbərimizin – səlləllahu aleyhi va səlləm – yaşadığı dövrdə və yaşadığı mühitdə bürc işığını rahatlıqla görə bilirdilər, eləcə də həqiqi fəcrin işıqlarını ayırmaqlarında bir çətinlik olmazdı, çünki o dövrdə işıq çirklənməsi kimi müasir tariximizə xas olan təsirlər yox idi. Ona görə də *bu gün* şəhərlərdə və *ya* şəhər kənarlarında çıxaraq üfüqü izləyib ona görə fəcrin vaxtını təyin edənlər elə *düşünmə*məlidirlər ki, onların təyin etdikləri vaxt ilə Allahın elçisinin – səlləllahu aleyhi va səlləm – dövründə təyin olunan vaxt eynidir.

Fayda: Nə üçün rənglər fərqlənir?

Oxuculara fayda üçün fəcrin rənglərinin fərqlənməsinin səbəbini burada izah etməyə çalışacağıq. Heç səmanın nə üçün mavi olduğunu düşünmüsünüzmü?

Bunu anlamaq üçün elmə məlum olan və işığın "rayleigh" parçalanması ilə "mie" parçalanmasını anlamaq lazımdır. Birincisinə həm də "molekulyar" parçalanma, digərinə isə "aerozol" parçalanması deyirlər. "Rayleigh" ingilis fiziki Lord Reyleigh'in adı ilə bağlıdır. Bu işığın atmosferdə parçalanması nəticəsində havanı müxtəlif rəngdə görməyimizin səbəbini izah edir. Məlumdur ki, ağ işıq əslində yeddi görünən işıqdan ibarətdir. Bunlar qırmızı, narıncı, sarı, yaşıl, göy, tünd sürməyi və bənövşəyi rənglərdir. Bunlar göyqurşağının rənglərdir, ona görə də yağış yağdıqdan sonra günəşin işığı səmadakı su damcılarında yeddi işığa ayrıldığı üçün göyqurşağını biz yeddi rəngdə görürük. Bu rənglər də dalğalarının uzunluğuna görə fərqlənirlər, dalğası ən uzun olan qırmızı rəngdir, dalğası ən kiçik olan isə bənövşəyi rəngdir. Günəş şüaları atmosferi keçdikdə atmosferi təşkil edən qazların molekulları ilə toqquşurlar və bunun nəticəsində parçalanırlar. Günəşdən atmosferə çatan ağ işıq bunun nəticəsində parçalanır. Qırmızı işığın dalğaları uzun olduğu üçün daha az parçalanır, göy rəngin dalğaları isə qısa olduğu üçün daha çox parçalanır, ən çox parçalanan isə bənövşəyi rəngdir. Məntiq də tələb edir ki, daha çox parçalanan rəng daha intensiv görünməlidir, çünki daha çox səpələnib və yer üzünə daha çox yayılıb. Lakin insan gözü göy rəngə daha həssas olduğu üçün onu bənövşəyi rəngdən daha çox görür, ona görə də səma bizim üç göy görsənir. Bizim üçün göy görsənən səma heyvanlar üçün başqa rəngdə görünə bilər.

Mie parçalanması isə alman fiziki Gustav Mie'nin adı ilə bağlıdır. Bu isə işığın daha böyük obyektlərlə toqquşma nəticəsində əmələ gələn parçalanmadır, daha dəqiq desək işıq bucağının sınmasıdır. Burada işığın dalğalarından daha böyük bir obyektlə qarşılaşma nəticəsində işıq tam şəkildə istiqamətini dəyişir. Ona görə də biz buludları ağ görürük, çünki bulud günəşin işığını bizə olduğu kimi əks edir və bizə işığın spektrumdakı bütün rəngləri eyni anda qaytarır. Bu səbəblə biz südü də ağ rəngdə görürük.

Ona görə də üfüqü örtən bir maneə olmadıqda üfüqdə əmələ gələn ilk işıqlar daha çox ağ rəngə çalır, çünki üfüqdəki aerozollar, yəni buxarı və

rütubət, həmçinin toz, duman günəş işığını bu şəkildə əks etdirir. Yəni "mie" parçalanması baş verir. Bu işığın aşağı atmosferdə sınması nəticəsində əmələ gəlir. Günəşin üfüqə daha da yaxınlaşması nəticəsində artıq biz üfüqdə əks olunan işıqları yox, bir başa atmosferin qatından keçərək bizim gözümüzə çatan işıqları görürük. Bu işıqlar bizim gözümüzə çatması üçün atmosferin içindən uzun yol keçir. Yuxarıda izah etdik ki, atmosferin içindən keçən bu işıqlardan ən çox parçalananları dalğaları ən qısa olanlardır, ona görə də onlar daha az yol qət edirlər və parçalanaraq üfüqün arxasındakı Yer səthinə yönəlirlər, ən çox yol qət edən isə burada qırmızı işıq olur, çünki daha az qaz molekulları ilə qarşılaşdığı üçün daha çox yol gedir və bizim gözümüzə ən çox çatan qırmızı işıqlar olur. Ona görə də biz sübhün xeyli hissəsini qırmızı görürük, həmçinin şəfəqi də qırmızı görürük. Daha sonra isə günəş artıq səmaya qalxdıqda göy işıq üstünlük əldə edir.

MÜSƏLMAN HEYƏTŞÜNASLARIN NƏZƏRİNDƏ HƏQİQİ FƏCR

O zaman yuxarıda bir araya topladığımız müşahidələrin fərqli nəticələrinin səbəblərini izah etdikdən sonra özümüzə belə bir sual verməliyik. Ümmətin əksəriyyətinin qəbul etdiyi 18 dərəcə meyarı xətadırmı? Çünki müşahidələrin çoxu fəcrin bəzən dörd, bəzən də üç dərəcə gec girdiyini göstərir. Buna əsaslanaraq 18 dərəcə meyarını ibtal etməyimiz doğrudurmu? *Əslində* bu araşdırmamızın əsas hissəsi bu suala cavab verir və cavab budur ki, 18 dərəcə xətalı meyar deyildir, əksinə astronomik olaraq dəqiq və təcrübədən keçirilmiş bir meyardır. Dövrümüzdə bu mövzuda yazılmış bir çox araşdırmaya nəzər saldıqda bir şeyin şahidi oldum. Abdulməlik əl-Kuleyb kimi digər araşdırmacıların çoxu öz dediklərini təsdiqləmək üçün Amerikanın və Avropanın rəsədxanalarının hesabatlarına əsaslanırdılar. Lakin biz araşdırmamızın bu hissəsində Şeyx İbn Abdirrazzəq əl-Fəsi'nin kitabçasını oxuduqda çox möhtəşəm hislərlə dolduq və bu zəngin müsəlman mirasını görmək bizi iftixar hissində boğru və əcdadımızın necə dahilər *yetişdirdiyindən*, İslamın o dövründə Allahın müsəlmanlara elm və izzət verdiyindən, bu zamanda isə dinini t*ərk etmiş ümmə*ti elmdən və izzətdən məhrum etdiyindən bir daha əmin oldum. Sözümü uzatmayaraq bu sualın cavabını tarixin g*əlib keçmiş* ən böyük müsəlman astronomlarına tərk edirəm.

Əziz oxucu! Bil ki, günəş *üfüqdə*n 18 dərəcə aşağıda olduqda şəfəqin bitdiyini və fəcrin başladığını ilk dəfə söyləyən məşhur elm adamı, ərəb riyaziyyatçısı və heyətşünası *Əbu Abdillə*h Muhəmməd bin Cəbir bin Sinən ər-Raqqi əl-Harrani əl-Bəttani (h. 240/m. 858 – h. 317/m. 929) *olmuşdur*.[1]

[1] Bizim oxuduqlarımız arasında 18 dərəcəni deyən ilk heyətşünasın əl-Bəttani olduğunu gördük, lakin bu, o anlama gəlməməlidir ki, ondan öncə heç kim bunu təsbit etməyib. Belə bir iddiada deyilik, ola bilsin ki, ondan öncə də bu məlumatı k*əşf etmiş* alimlər olub, lakin bu barədə məlumatımız olmadığı üçün əl-Bəttani'nin ən birinci olduğunu yazdıq.




Şəkil 9: 18-ci əsr İrana aid üstürlab: Üstürlab bir ideya kimi çox qədimdir, hətta miladdan öncəki Yunanıstana dayanır. Lakin real instrument olaraq ilk dəfə iskəndəriyyəli filoloq Yohanna'nın kitablarında təsvir olunur. İslam aləmi üstürlab ilə miladi səkkizinci əsrlərin ortaları tanış oldu və ilk dövrlərdən müsəlman alimləri üstürlabı inkişaf etdirməyə və dəqiqləşdirməyə başladılar. Müasir üstürlabın ixtiraçısı dəməşqli İbuş-Şatir sayılır. Üstürlab qiblənin təyinində, həmçinin vaxtların təyinində istifadə olunurdu. Avropaya üstürlab müsəlman İspaniyadan keçərək çatıb.

Latın dilində onun adı "Albatagenius", "Albategni" və ya "Albatenius" olaraq tanınır və Ayın səthindəki *"Albatagenius" krateri onun* şərəfinə adlandırılmışdır. Təsəvvür edin ki, bunu artıq hicri üçüncü, miladi doqquzuncu əsrdə yaşamış heyətşünas alimlərimiz elmi bir həqiqət kimi kitablarında yazırdılar. Bunu söyləmiş *ilk müs*əlman heyətşünaslardan bir də basralı *Əbu Əli* İbn əl-Heysəm (h. 354/m. 965 – h. 430/m. 1040) olub. O, bu barədə "Mizənul-Hikmə" kitabında danışıb. Həmçinin o dövrün alimlərindən *Əbul*-Həsən Abdurrahmən əs-Sufi əl-Bəzzəz (vəf. h. 376/m. 986) Azudud-Dövlə İbn Buveyh üçün yazdığı "əl-Aməlu bil-Usturləb" adlı kitabında İbnu Buveyhə "üsturlab" aləti ilə fəcrin vaxtını təyin etməyi öyrədərkən bunun üçün 18 dərəcəni referens kimi göstərməyi yazır.

Bunu həmçinin çoxumuzun tanıdığı möhtəşəm heyətşünas, dahi alim Əbur-Reyhan əl-Beyruni (əl-Biruni) (h.362/m.973 – h.440/m.1048) "əl-Qanun əl-Məsudi" kitabında açıq sözlərlə ifadə edir. Fəcrin doğmağı və şəfəqin batmağı haqqında açdığı ayrıca bölmədə deyir: "**Fəcri və şəfəqi bilmək ehtiyacı qədərində bu peşənin əhli bunu rəsəd ilə öyrəniblər və bunun vaxtının qanunlarından əldə ediblər ki, günəşin üfüqdən aşağı düşməsi on səkkiz cüz olduqda bu, şərqdə fəcrin doğmasının vaxtıdır…**"[1] əl-Beyruni'dən sonra bunu söyləyən bir digər alim isə əndəlüslü elm adamı, Avropada "Arzachel" (Arzaxel) adı ilə, müsəlmanlarda isə İbnuz-Zərqalə adı ilə tanınan *Əbu* İshaq İbrahim bin Yəhyə ən-Nəqqaş (vəf. h. 493/m. 1087) olub.

[1] "əl-Qanun əl-Məsudi", 2/949-950;

On iki imam şiələrindən olmuş dahi elm adamı Nəsiruddin ət-Tusi (vəf. h. 672/m.1274) "əz-Zubdə" adlı kitabında deyir: "**Rəsəd yolu ilə bilinir ki, fəcrin əvvəli və şəfəqin sonu günəş üfüqdən on səkkiz dərəcə endiyi vaxt olur.**" Digər məşhur elm adamı, Səmərqənd rəsədxanasının böyük alimlərindən Qadi Zadə ər-Rumi adı ilə tanınan Saləhuddin Musa bin Muhəmməd Çələbi ər-Rumi (vəf. h.840/m.1436) xarəzmli Mahmud bin Muhəmməd əl-Ciğmini'nin "Muləxxas fil-Hey'ətil-Bəsita" kitabına yazdığı şərhində deyir: "**Təcrübə ilə öyrənilmişdir ki, sübhün əvvəli və şəfəqin axırı günəş on səkkiz cüz aşağı endikdə olur.**" Bu sözlərin şərhində *kitaba haşiyə* yazmış əl-Fazil əl-Kəşuri deyir: "**Onun "on səkkiz cür" sözü; məşhur olan budur, Əbur-Reyhan'ın kitablarında isə bunun on doqquz cüz olduğu keçir.**"



Şəkil 10: Rub' aləti; ərəb dilində dörddə bir deməkdir. Çevrənin dörddə birinə bərabər olduğu üçün belə adlanıb. Latın dilində quadrant (kvadrant) adlanır. Tarixçilərin dediyinə görə bu fikri ilk dəfə yunanıstanlı Ptolomey təklif edib. Lakin ilk dəfə bunu alət şəklində düzəldib istifadə edənlər müsəlman astronomlar olub. Bu alətin növləri vardır. 9-cu əsrdə əl-Xarəzmi'nin düzəltdiyi kvadrant "ər-rub' əl-mucəyyəb" adlanırdı. Universal kvadrant sayılan "rub'u-Şəkkəziyyə" isə ilk dəfə Suriyada 14-cü əsrdə qurulub.

Bu barədə müsəlman heyətşünasların sözləri çoxdur. Onların sözləri ilə daha geniş tanış olmaq istəyən Şeyx Muhəmməd bin Abdirrazzəq əl-Fəsi'nin "İydahul-Qavlil-Haqq fi Miqdəri İnhitətiş-Şəmsi Vaqtə Tulu'il-Fəcri va Ğurubiş-Şəfəq" adlı kitabına baxsın. Kitabın müəllifi – rahiməhullah – orada bu adlarını saydığımızdan başqa Əbut-Tayyib bin əl-Valid İsmayıl bin Əhməd əl-Qurtubi, İbnul-Bənnə, Əbul-Qasim əz-Zubeyr bin Əbi Cəfər bin əz-Zubeyr əs-Səqafi, əl-Həsən bin İsa bin əl-Mucəsi, İbnuş-Şatir, Əbul-Həsən Əli bin Cəfər bin Əhməd bin Yusuf bin Bas əl-Əsləmi, Əbu Rabi Süleyman bin Əhməd əl-Fəştəli, İbnul-Mufti adı ilə tanınan Əbu Zeyd Abdurrahmən bin Ömər əs-Susi əl-Bu'uqeyli kimi məşhur astronomları zikr edir və onların sözlərini nəql edir. əl-Fəsi'nin dediyinə görə heyətşünaslar bu məsələdə iki görüş ətrafındadırlar. Ən qədim astronomlara görə fəcrin vaxtı ilə şəfəqin vaxtı eyni uzunluqdadır, ona görə də günəş 18 dərəcə üfüqdən aşağıda olduqda fəcr başlayır və şəfəq qurtarır. Bu görüş ən qədim astronomların görüşüdür. İkinci görüş isə budur ki, fəcrin vaxtı şəfəqin vaxtından uzundur və bu alimlərə görə günəş çıxmadan öncə üfüqdən 19-dərəcə aşağıda olduqda fəcr girir, günəş batdıqdan sonra isə üfüqdən 17 dərəcə aşağı endikdə isə şəfəq qurtarır. Bu ikinci görüşü isə Şeyx əl-Fəsi kitabında orta və son əsrlərin astronom alimlərinə nisbət edir. Bir çox heyətşünasdan

gətirdiyi nəqllərə əsasən əl-Beyruni də əksər kitablarında bu görüşdə olmuşdur. Bu dediklərini təsdiqləmək üçün Cəmaləddin Abdullah bin Xalil bin Yusuf əl-Mərdini'nin (vəf. h. 806) "əd-Durar əl-Mənsur fil-Aməli bi Rub'id-Dustur", Abdulaziz bin Abdissəlam əl-Vazgəni'nin "Şərh Əbyəti İbnir-Randi", Əbu Hafs Ömər bin Abdirrahmən bin Əbil-Qasim bin Muhəmməd bin Zəkəriyyə əl-Quraşi əl-Məxzumi'nin "Muhassilətul-Mətlub fil-Aməli bi Rub'il-Cuyub" kitablarından nəqllər gətirir. Şeyx əl-Fəsi özü ixtisasca astronom olduğu üçün astronomiya elmindəki sözünə etimad olunmalıdır, şübhəsiz ki, onun alimlərimizdən nəql etdiklərində haqlı olduğunu sual altına alan yoxdur. Xülasə olaraq 20 dərəcə olduğunu deyənlərin görüşünü nəzərə almadan heyətşünaslar arasında məşhur olan iki görüşün olduğunu deyə bilərik. Birinci görüş budur ki, fəcr günəş üfüqə 18 dərəcə yaxınlaşdıqda girir və bu, ilk müsəlman astronomların rəyidir. İkinci rəy isə budur ki, fəcr vaxtı günəş ilə üfüq arasında 19 dərəcə olduqda başlayır və bu, əl-Beyruni'nin və son dönəm heyətşünaslarımızın görüşüdür. Ən mötəməd və ən məşhur olan da bu görüşdür.

Şeyx İbn Abdirrazzəq əl-Fəsi'nin Abdulməlik Əli əl-Kuleyb'in "Təshih Vaqt Əzənil-Fəcr" adlı araşdırmasında tənqid etdiyi tərəflərdən biri də məhz budur ki, əl-Kuleyb bu barədəki astronomik məlumatlarını Qrinviç rəsədxanası (Royal Observatory Greenwich) və Amerikanın Hərbi-Dəniz rəsədxanasından (U.S. Naval Observatory) götürür, halbuki bu məlumatları əsrlərlə öncə müsəlman astronomlar dəqiqliklə müəyyənləşdirmişdilər. Şeyx əl-Fəsi'yə görə əl-Kuleyb'in bu addımı müsəlman alimlərin əməyinə qarşı hörmətsizlikdir.

Maraqlı tərəf budur ki, tarix boyu müsəlmanların ən böyük məscidlərində camilərində namazların vaxtlarını təyin etmək üçün "muvaqqit" vəzifəyə alınardı. Muvaqqit isə vaxtı təyin edən deməkdir. Misal üçün Dəməşqdəki əməvi camisinin muvaqqiti məşhur heyətşünas alim, İbnuş-Şatir adı ilə tanınmış Alləmə Aləuddin Əbul-Həsən Əli ibn İbrahim bin Muhəmməd əl-Ənsari əd-Dimaşqi (vəfatı hicri 777) olub. Həmçinin Misirdə əl-Məlik əl-Muəyyid camisinin muvaqqiti məşhur heyətşünas Şihəbuddin Əhməd bin Ğuləmilləh bin Əhməd əl-Həsib əl-Kufi ər-Rişi, Əzhar camisinin isə muvaqqiti Bədruddin Muhəmməd bin Muhəmməd bin Əhməd Sibt əl-Mərdini (vəf. h. 826) və Əli bin Abdilqadir əl-Bəntiti əl-Hənəfi (h. 1063) olub. Əndəlüslü məşhur heyətşünas İbn Bas əl-Əsləmi (vəf. h. 716/ m. 1316) Qurtuba camisinin muvaqqiti olub. Buradan öyrənirik ki, ümmət əsrlər boyunca ən böyük camilərində azanların vaxtlarını astronomik hesablamalara görə təyin ediblər.

Burada önəmli olan bir təsəvvürə toxunmalıyıq. Adlarını saydığımız bu heyətşünas alimlərimiz bu dediklərini sadəcə heyət elminə, yəni astronomiyaya əsaslanaraq deməyiblər. Onlar həm də o dövrdə elm

adamlarına xarakterik bir cəhət olaraq şəriət elmlərini də bildikləri üçün bunu deyiblər. Misal üçün əl-Beyruni'nin sözlərinə nəzər salaq:

"**Fəcr budur və üç üç növü vardır: Əvvəli düzünə yuxarıya doğru uzanandır; yalançı fəcr olaraq tanınır və "canavar quyruğu" adlanır. Şəriət əhkamından və rəsmi adətlərdən heç bir şey bununla bağlı deyildir. İkinci növ isə üfüqün eninə sərilmiş olur, dairənin yarısı kimi yumru olur, aləm bununla işıqlanır, beləliklə də canlılar və insanlar adətlərə uyğun olaraq buna görə canlanırlar, ibadətlərin şərtləri buna görə qüvvəyə minir. Üçüncü növ isə bunun arxasınca gələn qırmızılıqdır və günəşdən qabaq olur və bu da şəriətdə birinci növ kimidir...**"[1] Gördüyümüz kimi dahi əl-Beyruni sözlərini şəriət elmləri ilə bağlayır və yalançı fəcri də həqiqi fəcrdən şəriətdə keçən vəsflərinə görə fərqləndirir. Nəsiruddin ət-Tusi'nin yuxarıda keçən sözlərindən oxuduqda ki, onlar bu dediklərini rəsəd yolu ilə təyin ediblər, *yəni müşahidə* etməklə təyin ediblər, sadəcə ulduzlara, mənzilələrə görə deməyiblər. Digər böyük heyətşünas *alim* Cəməluddin İbn Yusuf əl-Mərdini "əd-Durrul-Mənsur fil-Aməli bi Rub'id-Dustur" adlı kitabında deyir: "**Son dönəmdə yaşamış bəzi mahir mütəxəssis alimlər bunu bir-neçə il sınaqdan keçiriblər və görüblər ki, on səkkiz dərəcə işıqlanma vaxtıdır, iyirmi dərəcə isə qaranlıq vaxtıdır. Bu iki ölçü haqqında doğru olan ortaya çıxan maneələrdən asılı olaraq (on səkkizdən) artıq və (iyirmidən) naqis olmasıdır; misal üçün atmosferin saflığı və tutqunluğu, buxarın güclüyü və zəifliyi, havanın şiddətliyi və zərifliyi, (tam) ayın mövcudluğu və yoxluğu, müşahidə aparanın görmə qabiliyyətinin zəifliyi və itiliyi (təsir edir). Mənim etimad etdiyim və rəsəd aparanların və qeyrilərinin təhqiq etdikləri elm budur ki, şəfəq üçün on yeddi dərəcə, fəcr üçün isə on doqquz dərəcədir.**"[2] Bu rəsədlər, *yəni müşahidələrin* aparıldığı dövrlərdə işıq çirklənməsi fenomeni yox idi, nə də ki, teleskop mövcud deyildir. Cəməluddin əl-Mərdini miladi 15-ci əsrdə vəfat edib. Tarixə məlum olan ilk teleskop isə hollandiyalı eynək ustası Hans Lippershey tərəfindən 1608-ci ildə, yəni iki əsr sonra icad edilib. Ona görə də çox rahatlıqla deyə bilərik ki, *ilk müşahidələr* adi insan gözü ilə aparılmışdır.

[1] Eyni mənbə: 2/949
[2] "İydahul-Qavlil-Haqq", səh: 17

Fayda: *əl-Kəşmiri'nin astronomlara nisbət etdiyi rəy*

Burada fayda üçün bir qeyd açmaq istəyirəm. *Şeyx Muhəmməd Ənvərşah əl-Kəşmiri (hicri 1292*-1352) deyir: "**Astronomiya alimləri deyiblər: "Yalançı fəcrin çıxışı on səkkiz dərəcədə olur, həqiqi fəcrin çıxışı isə on beş dərəcədə olur." İbn Həcər əl-Məkki əş-Şafi'i onların sözlərini "Tuhfətul-Muhtəc" kitabında rədd edir və deyir ki, sübh bəzən daha tez çıxır və bəzən də gec çıxır. Fəqihlər bu cür deyiblər. Şeyx "Ruhul-Məani" təfsirində "Tuhfətul-Muhtəc" kitabından bir hissəni zikr edib. Deyirəm: İbn Həcər'in sözü doğrudur, yeni astronomiya elminin mütəxəssisləri deyiblər ki, bəzən günəş hələ çıxmadığı halda biz günəşin diskini gözlərimizlə müşahidə edə bilərik və bunun üçün bir misal da veriblər.**"[1] əl-Kəşmiri burada yalançı fəcrin 18 dərəcədə, həqiqi fəcrin isə 15 dərəcədə daxil olmasını astronomiya alimlərinə nisbət *etmişdir. Lakin* bununla hansı astronomiya alimlərini qəsd etdiyini bilmirəm, əksinə qədim və müasir zamanımızda yaşamış müsəlman və qeyri-müsəlman astronomlar həqiqi fəcrin başlanğıcının 18 dərəcədən və ya 19 dərəcədən olduğunu deyirlər. Bu barədə *deyilmiş* ən aşağı rəqəm 17 dərəcədir və astronomlardan heç kimin bundan aşağı dediyi sabit olmayıb, bu barədə mövcud materiallar arasında heç bir məlumat tapa bilmədim. Hətta 17 dərəcə deyən astronomların rəyini əksər alimlər zəif bir rəy sayıblar, tənqid ediblər. Üstəlik İbn Həcər'in kitabında belə bir məlumat yoxdur. Doğrudur *ki, Şeyx Şihə*buddin əl-Alusi təfsirində yalançı *fəcr fenomenini geniş t*əfsilat ilə izah edərkən orada astronomların, ər-Razinin və daha sonra İbn Həcər əl-Heytəmi əl-Məkki'nin sözlərini zikr edir. İbn Həcərin sözləri xeyli uzundur, lakin orda heç bir yerdə əl-Kəşmiri'nin dediyi kimi yalançı fəcrin 18 dərəcədə, həqiqi fəcrin isə 15 dəqiqədə daxil olmasına dair *astronomlardan bir görüş* nəql olunmur. Doğrudur ki, İbn Həcər bəzi hesablarda göstərilən ölçünü tənqid edir və bunun doğru olmadığını, reallıqda vaxta dəlalət edən əlamətlərin bəzən tez, bəzən də gec görünməsinə diqqət çəkir. Lakin onun "Tuhfətul-Muhtəc" kitabında yalançı fəcr haqqında etdiyi uzun müzakirədən də bu mənanı çıxarmaq olar. Üstəlik əl-Kəşmiri'nin *dərəcələr* haqqında dediyinin xəta olduğunu təsdiqləyən

[1] "əl-Arf əş-Şəzi Şərh Sünən ət-Tirmizi", 1/173; Həm Dar İhyə ət-Turas əl-Arabi tərəfindən nəşr *olunmuş Mahmud Şakir Əbu Fihr,* həm də Darul-Kutubil-İlmiyyə tərəfindən nəşr *olunmuş Amr Şəvkət*'in təhqiqində sözlər *bu* şəkildədir.

başqa bir tərəf budur ki, əl-Alusi özü təfsirində deyir: "**Sonra aşkar olan budur ki, sübhün açılması və işıqlanması günəşin şərq üfüqünə məlum bir miqdarda yaxınlaşması vasitəsi ilə olur və bu miqdar məşhur görüşə görə on səkkiz cüzdür.**"[1] Bəlli olur ki, əl-Alusi də digər astronom alimlər kimi 18 dərəcənin məşhur olduğunu təsdiqləyir və sözlərindən də anlaşılır ki, bu say həqiqi fəcr üçün söylənilmiş saydır, yalançı fəcr haqqında deyilməyib. əl-Kəşmiri kimi mütəfənnin bir alimin belə bir xəta etməsi təəccübləndirici haldır, ola bilsin ki, diqqətsizlikdən *baş vermişdir. Yaxud da tələbələrinin* xətasıdır, çünki mütaliəm əsasında *Şeyx Ənvərşah* əl-Kəşmiri haqqında öyrəndiklərimdən biri də budur ki, hənəfilər onun kitablarında tələbələrindən qaynaqlanan çoxlu xətaların olduğunu və kitablarının təhqiqinin zəif olduğunu deyirlər. Doğrusunu Allah bilir!

[1] "Ruhul-Məani", 15/263;

ÜÇÜNCÜ HİSSƏ

(Fəqihlərin hesab barəsindəki müzakirələri)

ASTRONOMLAR İLƏ FƏQİHLƏR ARASINDAKI İXTİLAF

Əslində namazların vaxtının hesaba yoxsa *müşahidəyə* görə təyin edilməsi müzakirəsi çox qədim bir müzakirədir. Müxtəlif bölgələrdə və müxtəlif zamanlarda bu barədə fəqihlərimiz ilə namazların vaxtını təyin edən muvaqqitlər və müəzzinlər arasında konfliktlər olub. Lakin bu konfliktlər müasir zamanımızdakı konfliktdən fərqlənir. Bu fərqi də qarşıdakı yazılarımızda izah etməyə çalışacağıq. Müzakirəmizin aydın və tərtibli olması üçün alimlərin *görüşlərinə* görə hissələrə ayırdıq və yaşadıqları dövrlərə uyğun olaraq tərtib etdik.

Lakin qısaca olaraq deyə bilərik ki, şəriət alimlərindən, fəqihlərdən və ya mühəddislərdən heç kim heyətşünas *alimlərimizin* təyin etdiyi dərəcələri inkar etməyib. *Əksinə şahid olduq ki, fəqihlərimiz* də bu nöqtədə heyətşünasların dediyini təsdiqləyirlər. Bu barədə böyük təfsir alimi *Mahmud Şihəbuddin* əl-Alusi'nin sözləri bundan öncə keçdi.

əl-Ğazəli

İlk öncə hicri *beşinci və* altıncı, miladi on birinci və on ikinci əsrlərə gələk. Bu dönəmin ən məşhur şəxsiyyətlərindən olan Əbu Həmid Muhəmməd əl-Ğazəli ət-Tusi'nin (h.450/m.1058 – h.505/m.1111) "əl-İhyə" kitabındakı sözləri ilə tanışq olar. əl-Ğazəli səfərdə olanlar üçün fəcrin vaxtını müəyyənləşdirmək haqqında danışarkən deyir:

"**Sübhə gəldikdə isə ilk əvvəl canavar quyruğu kimi yüksələrək uzanan (işıq) görünür, bununla üstündən bir müddət keçməyənə qədər heç bir hökm verilməz, sonra eninə doğru yayılan ağartı əmələ gəlir; aşkar göründüyü üçün onu gözlə idrak etmək çətin olmur. Vaxtın başlanğıcı bax budur. O – sallәllahu aleyhi va səlləm – deyib: "Sübh bunun kimi deyildir" və əllərini bir-birinə birləşdirdi. (Sonra dedi:) "Sübh əslində belədir" və bir işarə barmağını o birinin üstünə qoydu və sonra onları açdı və bununla onun eninə doğru yayılmış olduğuna işarə etdi. Onun (vaxtı) üçün bəzən mənzilələri dəlil olaraq istifadə edirlər, lakin bu təqribidir, dəqiq deyildir. Əksinə eninə doğru yayılan ağartını müşahidə etməyə etimad olunmalıdır, çünki bir qrup insan güman edir ki, sübh günəşdən dörd mənzilə öncə girir. Bu isə xətadır, çünki bu, yalançı fəcrin vaxtına düşür. Muhəqqiq alimlərin dediyi isə budur ki, (sübh) günəş(in çıxmağın)dan iki mənzilə öncə girir və bu, təqribidir. Lakin buna etimad etmək olmaz, çünki bəzi mənzilələr eninə doğru uzanan şəkildə, əyri olaraq çıxır, buna görə də qısa bir müddətə çıxır, bəziləri isə üzü yuxarı uzanan şəkildə çıxır, ona görə də çıxmağı uzun müddət çəkir. Bu özü də müxtəlif ölkələrdən asılı olaraq bir-birindən o qədər fərqli ola bilir ki, bunların hamısını qeyd etmək çox yazı tələb edir. Doğrudur ki, sübhün vaxtının yaxınlaşdığını və ya uzaq olduğunu bilmək üçün mənzilələr yararlı ola bilər, lakin sübhün həqiqi başlanğıcına gəldikdə isə bunu əslən iki mənzilə ilə müəyyənləşdirmək mümkün deyildir. Ümumən demək olar ki, günəşin buynuzunun çıxmağına dörd mənzilə qaldıqda bir mənzilə miqdarının yalançı sübh olduğundan əmin olmaq olar. İki mənziləyə yaxın bir şey qaldıqda isə həqiqi sübhün girişi reallaşmış olur və iki sübh arasında təqribən bir mənzilənin**

üçdə biri qədər (müddət) qalır ki, bunun həqiqi sübhün vaxtındanmı yoxsa yalançı sübhün vaxtından olmasında şəkk vardır və bu, ağartının eninə doğru genişlənmədən öncə üzə çıxmasının və yayılmasının başladığı vaxtdır. Beləliklə də oruc tutana şəkk vaxtından səhurunu tərk etməsi, namaz qılanın ondan öncə vitrini qılması doğrudur və şəkk müddəti bitənə qədər sübh namazını qılmamalıdır, (vaxtın girdiyi) dəqiqləşərsə namazını qılar.

Əgər bir mürid səhurunu edərək suyunu içəcək və arxasınca heç bir ara vermədən durub sübh namazını qıla biləcək bir vaxtı dəqiqlikdə müəyyən etmək istəsə bunu bacara bilməz və bunu bilmək əslən bəşər övladının qüdrəti daxilində deyildir. Əksinə təvaqquf və şəkk üçün bir möhlətin olması qaçınılmazdır. Gözlə görməkdən başqasına etimad edilməz və gözlə görməkdə yalnız sarılığın ilk işarətləri görünənə qədər işığın eninə doğru yayılmasına etimad edilə bilər. Bu məsələdə çox sayda insan xəta edib; vaxtından öncə namaz qılırlar. Bu dediyimizə Əbu İsa ət-Tirmizi'nin "əl-Cami" kitabında isnadı ilə Talq bin Əli'dən rəvayət etdiyi dəlalət edir; Allahın elçisi – səlləllahu aleyhi va səlləm – dedi: "Yeyin və için. Yüksələn parlaqlıq sizi çəkindirməsin. Qırmızı (işıq) sizin üçün eninə doğru yayılana qədər yeyin və için!" Bu (hədis) qırmızılığı diqqətə almaq barədə aşkardır. Əbu İsa dedi: "Bu mövzuda Adiy bin Hətim, Əbu Zər və Səmura bin Cundub'dan hədislər vardır və bu, həsən ğarib bir hədisdir. Elm əhlinə görə əməl bunun üzərinədir." İbn Abbas dedi: "İşıq yüksəkdə olduğu müddətdə yeyin için!" İki "əl-Ğarib" kitabın sahibi dedi: "Yəni yuxarıya doğru uzanan". O zaman sarılığın zühur etməsindən başqasına əsaslanmamaq doğrudur, sanki sarılıq qırmızılığın başlanğıcıdır."[1]

əl-Ğazəli'nin sözlərindən mövzumuzla bağlı olan hissəsi burada bitir. Burada maraqlı olan bir çox məqam vardır. Diqqət edəcəyimiz birinci məqam budur ki, əl-Ğazəli səfərdə olan üçün fəcrin vaxtının dəqiq təyin edilməsindən danışmır, əksinə özü də qeyd edir ki, göz ilə *müşahidə* edə bilən biri heç bir zaman fəcrin əvvəli üçün dəqiq vaxt təyin edə bilməz. Həmçinin əl-Ğazəli mənzilələrə əsaslanaraq vaxtı təyin etməyin doğru olmadığını deyir və biz bunu daha öncə müzakirə etdik. əl-Ğazəli də burada qısa olaraq, lakin aydın sözlərlə mənzilələrə nə üçün etimad etməyin doğru olmadığını izah etmişdir. Lakin əl-Ğazəli'nin burada fəcrin müddətinin "iki

[1] "İhyə Ulumid-Din", 2/265;

mənzilə" olması haqqında dediyi söz xətalıdır, çünki fəcr əslində bundan çox azdır. Heyətşünas alimlərimizin təhqiq etdiklərinə əsasən fəcrin müddəti təqribən bir mənzilə yarım davam edir. Bu da əl-Ğazəli'nin söylədiyi kimi təqribidir, dəqiq deyildir. Əminliklə deyə bilərik ki, əl-Ğazəli'nin iki mənzilə haqqında dediyi şəxsi təcrübəyə əsasən dediyi bir sözə bənzəmir, çünki iki mənziləni sınaqdan keçirsəydi görərdi ki, üfüqdə nəinki sarılıq, heç ağartı belə əmələ gəlmir. Ona görə də əl-Ğazəli'nin şəkk vaxtını iki mənzilədən öncəki vaxtda yerləşdirməsi doğru deyildir. Doğru olan şəkk vaxtını iki mənzilə daxil olduqdan sonra yerləşdirməkdir.

Burada diqqətə alınacaq başqa bir tərəf budur ki, əl-Ğazəli müridlərə ibadətlərində ən ehtiyatlı olan görüşü öyrətmək məqsədi ilə bu sətrləri yazıb. Anlamaq çətin olmamalıdır ki, əl-Ğazəli o dövrdə səfərdə olan biri üçün etibar edəcəyi azanı müzakirəyə daxil etmir, çünki səfərdə olan kəsin hər zaman belə bir rahatlığı olmur. Ona görə də əl-Ğazəli burada sırf xam bir şəraəti ələ alır və şəkdən uzaq olan, ən ehtiyatlı görüşü bildirir. Məhz bu fikirdən çıxış edərək müridlərə üfüqdə görünən sarılığın göründüyü vaxtda namazlarını qılmaqlarını məsləhət görür. əl-Ğazəli'nin işlətdiyi və bizim "doğrudur" şəklində tərcümə etdiyimiz "yənbəği" kəliməsi əslində hərfən "lazımdır", "münasibdir", "yaxşıdır" şəklində də tərcümə edilə bilər. Bir çox zaman bu söz "vacibdir" mənasında da işlədilir, lakin hər zaman bu mənanı ifadə etməz. Bədruddin əz-Zərkəşi deyir: "**...çünki "inbiğa" vaciblik mənasında deyildir.**"[1] Beləliklə də əl-Ğazəli burada ən ehtiyatlı olan görüşdən danışır. Qəti olaraq fəcrin üfüqdəki ağartının saralmağa başladığı vaxtda daxil olduğunu qəsd etmir.

Üstəlik əl-Ğazəli'nin də hədisdəki "qırmızı" sözünün zahirindən uzaqlaşaraq "sarılıq" sözünə keçməsi də diqqətimizi çəkməlidir. Nə üçün belə bir təvilə ehtiyac duymuşdur? Çünki əl-Ğazəli bir fəqih kimi Quranın nassının "ağlığı" təyin etdiyini və fəqihlərin görüşlərinin də buna müvafiq olduğunu bilir. Sanki hədisdəki qırmızılığı ağlıqla birləşdirmək istəmişdir. İstənilən halda əl-Ğazəli'nin sözlərini bizim izah etdiyimiz kimi başa düşmək əksər alimlərin görüşünə müvafiqdir. Talq bin Əli'nin hədisi də daha öncə müzakirə olundu.

[1] "Təşniful-Məsəmi' Bi Cəm'il-Cəvami", 4/620;

əl-Qarafi

Növbəti dayanacağımız hicri yeddinci, miladi on üçüncü əsrdir. Təqvimlərin heç cür fəcrin doğru vaxtını göstərmədiyini deyən tərəf çox zaman müzakirələrində xüsusilə hicri yeddinci əsrdə yaşamış *böyük islam alimi Şihə*buddin Əbul-Abbas *Əhməd* bin *Əbil*-Alə İdris əl-Qarafi əs-Sanhəci'nin (h.626/m.1228 – h.684/m.1285)[1] sözlərini misal gətirirlər. əl-Qarafi'nin sözlərini öz iddialarının doğruluğunu təsdiqləyici sözlər olaraq görürlər. Lakin əl-Qarafi'nin və onunla yanaşı digər alimlərin sözlərini təkrar-təkrar oxuduqda aydın olur ki, əl-Qarafi'nin sözünü etdiyi hal bizim halımızdan fərqlənir. Ona görə də ilk öncə burada əl-Qarafi'nin sözlərini zikr edəcəyik və daha sonra onun sözlərini izah etməyə çalışacağıq. əl-Qarafi deyir:

"**Birinci problem namazların vaxtlarındadır; Belə ki, müəzzinlər və vaxt təyin edənlər fələkin dərəcələrini asanlaşdırmaqla (vaxtı təyin etməyə) adət ediblər, beləliklə də əgər günəşin dərəcəsinin fəcrin girdiyini gərəkdirəcək qədər üfüqə yaxınlaşdığını göstərən şəkildə fələkin dərəcələrindən ortada olanı və ya fələkin dərəcələrindən başqa birini müşahidə etdiklərində insanlara namaz qılmağı və oruc tutmağı əmr edərlər. Halbuki üfüq tər-təmiz olur, əgər fəcr girmiş olsa onun girişi heç kimə gizli qalmaz, buna baxmayaraq insan fəcrdən heç bir əsər-əlamət görə bilmir. Bu isə caiz deyildir, çünki Allah namazın vacib (və icazəli) olması üçün fəcrin üfüqdən yuxarıda zühur etməsini səbəb olaraq təyin etmişdir. Əgər zühur etməyibsə o zaman namaz qılmaq caiz deyildir, çünki**

[1] əl-Qarafi müsəlman alimləri içində şöhrətinə və elminə görə *seçilmiş və* ən yuxarı mərtəbələrdə duran bir alim və *dahi bir* şəxsiyyət olub. Tariq və tabəqat kitablarında əl-Qarafi haqqında çox sayda alimlər yazıblar. Lakin təəccüblü olan budur ki, əl-Qarafi haqqında keçmiş alimlərimiz bu qədər geniş yazmaqlarına baxmayaraq onların heç biri onun doğum tarixini qeyd etmir, bəzi alimlər buna görə onun doğum tarixinin bilinmədiyini yazıblar. Lakin müasir zamanımızda əl-Qarafi'nin bəzi kitabları çap edildikdə onun özünün həmin kitabda öz doğum tarixinin zikr etdiyi üzə çıxıb. Mmüasirlərimiz arasından ilk dəfə diqqətləri buna çəkən *Şeyx Addulfəttah Əbu* Ğuddə olub. Allah ona rəhmət etsin!

bu, vaxtından öncə və səbəbi olmadan namazı qılmaqdır. Eyni söz digər namazların da vaxtlarını isbat etməyə aiddir."[1]

əl-Qarafi'dən gətirdikləri sitat budur. Zahirən bu sözləri oxuduqda düşünmək olar ki, əl-Qarafi də onlar kimi öz dövründəki vaxt təyininə qarşı idi. Doğrudur, lakin bunun bizim halımız ilə eyni olduğunu söyləmək üçün o dövrdə vaxt təyini ilə bizim dövrümüzdəkinin eyni olması lazımdır. Eynidirmi? Cavab budur ki, eyni deyildir. Çünki əl-Qarafi'nin burada razı olmadığı namaz təyini metodu vaxtı mənzilələrə görə təyin etmək metodudur, çünki "fələkin dərəcələrindən ortada olan" dedikdə tam günəşin çıxmağına neçə mənzilin qaldığını göstərən və müşahidə edənin başının üstündə duran ulduz qəsd olunur və kitabda daha əvvəl təqdim etdiyimiz məlumatlardan öyrəndiniz ki, heyətşünaslar buna "mütəvassit" deyirlər, əl-Qarafi də burada eyni sözü işlədir. "Fələkin dərəcələrindən başqa biri" sözü ilə isə ya qərb tərəfdə üfüqdə batan ulduzu, ya da şərq tərəfdə üfüqdən çıxan ulduzu qəsd edir. Yəni mənzilələrə görə təyin edənlər bu cür təyin edirlər. Bu sözlərdən belə bir məna çıxarmaq olmaz ki, əl-Qarafi hesaba əsaslanaraq namazın vaxtlarının təyin edilməsini qəbul etmir. Axı necə qəbul etməyə bilər, halbuki özü açdığı mövzunun əvvəlində təsdiq edir ki, namazın vaxtlarını alətlər ilə təyin etmək olar. "əz-Zəxira" kitabında da buyurur: "**Su ilə və ya qum ilə və ya başqaları ilə işləyən alətlərdə hesab aparmaq yolu ilə namazın vaxtlarını isbat etməkdə ixtilafın olduğunu bilmirəm və qış aylarında yağışlı havalarda, tutqun havalarda bütün əsrlərdə müsəlman ölkələrinin əhli bununla əməl edirlər.**"[2] əl-Qarafi özü də astronomiya elmlərini oxumuş bir alim olub, hətta onun astronom olduğunu da deyirlər. Onun "əl-Yəvaqit fi Əhkəmil-Məvaqit" kitabı buna dəlalət edir. Biz əl-Qarafi'dən gətirdikləri sözlərin davamını oxusaq məsələ bizə bir az da aydın olacaq. O, sözlərinin davamında buyurur:

"**Əgər desən: bu, sənin tərəfindən (vaxtın girdiyini) görməyin şərt olması görüşünə meyl etməkdir, halbuki sən özün (daha əvvəl) bu iki mövzu arasında fərq olduğunu dedin və görmək və görməmək qaydaları arasını ayırdın və dedin ki, hilalda səbəb görülməsidir, namazın vaxtlarında isə görülməsi yox, vaxtın dəqiqləşməsidir. Beləliklə də burada görməyi şərt saydınsa o zaman (ikisi arasında) fərq olaraq zikr etdiyini ləğv etmiş olursan.**"

Gördüyümüz kimi əl-Qarafi burada sözlərinin səhv anlaşıla biləcəyini ehtimal etdiyi üçün bir etirazı zikr edir. Çünki əl-Qarafi hesaba əsaslanaraq namazın vaxtlarını təyin etməklə ramazan və digər hicri aylarında ayın girişini hesabla təyin etmək arasında fərq olduğunu izah etmişdi. Fərq isə bu

[1] "əl-Furuq", 2/180;
[2] "əz-Zəxira", 2/493;

idi ki, şəriət ayların girməsi ilə bağlı olan ibadətləri həyata keçirməyin icazəli olması üçün hilalın işığının çıxmağını səbəb kimi göstərməyib, lakin insanların onu öz gözləri ilə görməsini səbəb olaraq göstərib. Namazın vaxtları isə belə deyildir; namazı qılmağın caiz və vacib olması üçün vaxtın əlamətlərini gözlə görməyi səbəb olaraq təyin etməyib, lakin o əlamətlərin – biz görə bilməsək belə - həyata keçməsini səbəb göstərib. Misal üçün əgər hava buludludursa və günəş *görünmürsə* hesablama günəş*in zenit x*əttini keçdiyini göstərərsə o zaman zöhr namazını qılmaq icazəli olur. əl-Qarafi'nin izah etdiyi fərq budur. İndi gəlin görək əl-Qarafi özü bu barədə nə deyir:

"**Deyirəm: Gözəl bir sualdır. Bunun cavabı isə budur ki, mən namazın vaxtlarında (vaxtın əlamətinin) görülməsini şərt qoşmadım, lakin mən hissin**[1] **fəcrin yoxluğunu görməsini fəcrin olmamasına və onun özlüyündə baş verməməsinə dəlil saydım, çünki səbəb görülməkdir. Bunun eynisi hilalda da var; əgər səma açıq/saf olarsa və insanların sayı çox olarsa, bununla belə hilal görünməzsə bunu hilalın günəşin işıqlarından xilas ola bilməməsinə bir dəlil hesab edərəm. Bu şəkildə əgər zəval vaxtı**[2] **kölgənin qərb tərəfə meyl etdiyini görsəm, (yaxud da) onun şərq tərəfə meyl etdiyini görməsəm, əksinə iki tərəf arasında ortada durduğunu görsəm, bunu vaxtın girmədiyinə və səbəbin mövcud olmadığına dəlil hesab edəcəm. Beləliklə də hissin (özünün) səbəb olması ilə onun səbəbin mövcud olmamasına dəlalət etməsi arasında bir fərq vardır, çünki mən fəcrdə onu səbəbin mövcud olmamasına dəlil saydım, yoxsa (fəcrin girdiyinin gözlə) görülməsini şərt qoşmadım. Ona görə də mən bunu yalnız səmanın açıq/saf olduğu və hissin fəcrdən bir şey tapa bilmədiyi halda müşkül hesab etdim. Amma əgər onların hesabı ilə açıq səmada fəcr üfüqdən çıxaraq görünsəydi, hava tutqun olduqda isə görünməsəydi bunu müşkül hesab etməzdim. Deyirəm: Görünmədikdə özlüyündə (fəcrin) olmamasına görə yox havanın tutqun olması səbəbi ilə görünmür. Lakin açıq səmada onların hesabı ilə fəcrin ortaya çıxdığını görmədiyim üçün bildim ki, onların hesabı səbəbin olmadığı vaxta düşür, çünki hiss fəcrin girdiyinə dəlalət etdiyi kimi eləcə də kamil zülmət və heç bir işığın**

[1] Şəriət alimləri hiss dedikdə insanın beş hissini qəsd edirlər*: eşitmək*, görmək, dadmaq, qoxulamaq və toxunmaq. Fəcrin girdiyini hiss ilə bilmək deyildikdə fəcrin işığını görmək nəzərdə tutulur.

[2] Yəni günəş *zenit xəttini keçdiyi vaxtda.* Şəriət alimləri bu vaxtda "zəval" vaxtı deyirlər.

olmaması ilə girmədiyinə də dəlalət edir. Bu, bu sualın cavabıdır, yoxsa mən hilal ilə namazların vaxtlarını eyniləşdirmədim. Bunun üzərində yaxşıca düşün!"[1]

əl-Qarafi'nin sözlərini anlamaq mövzumuz üçün çox önəmlidir. Deyərdim ki, bir başa mövzumuzun qaymağını *təşkil edir.* əl-Qarafi də izah edir ki, namazların vaxtları üçün *təyin edilmiş səbəblər əgər* reallıqda baş veribsə, hətta biz onu görməsək belə namazın vaxtı girmiş sayılır. Bu çox önəmli bir nöqtədir.

Onu da əlavə edək ki, əl-Qarafi də fəcrin vaxtı məsələsində əksər alimlər ilə razılaşır. O, "əl-Yəvaqit" kitabında deyir: "**Sübhdəki qızartıdan öncə vaxtın əvvəli sayıla biləcək bir şey vardır, işənin qırmızılığında isə vaxtın əvvəli ola biləcək bir şey gəlmir...**"[2] Bu sözü ilə qızartının sübhün ilk vaxtı olmadığını təsdiqləyir, əksinə sübhün ilk vaxtının üfüqdə əmələ gələn qızartıdan öncə olduğunu söyləyir. Daha sonra buyurur:

"**Günəş diskinin ətrafında hər zaman, həm çıxdıqda, həm də batdıqda iki dairə vardır: qırmızı dairə və ağ dairə. Qırmızı olan günəşə yaxın olandır, ağ olan isə ondan uzaq olandır. Günəş çıxdıqda ondan öncə birinci uzaq olan çıxır, daha sonra yaxın olan dairə çıxır, daha sonra isə günəş özü çıxır. Batdıqda isə onun arxasınca yaxın olan, daha sonra isə uzaq olan batır. Uzaq dairə gündüzün/naharın əvvəli olan fəcrdir və o, işə vaxtındakı ağ şəfəqdir...**"[3]

Burada daha aydın şəkildə ifadə edir ki, fəcr ilk ağartının görünməsi ilə başlayır, fəcrin girməsi üçün qızartının daxil olmasını şərt saymır.

[1] "əl-Furuq", 2/180-181;
[2] "əl-Yəvaqit fi *Əhkə*mil-Məvaqit", səh: 56;
[3] səh: 58

İbn Teymiyyə

Çox uzağa getmədən hicri səkkizinci, miladi on dördüncü əsrə gəlirik. Bu dövrün *ən bariz* şəxsiyyətlərindən *biri Şeyxul*-İslam Təqiyyuddin Əhməd İbn Teymiyyə'dir. İbn Teymiyyə fəcrin vaxtını müzakirə edərkən bizim mövzumuzla bağlı olan bir tərəfinə toxunur və *bunu geniş* müzakirə edir. O, "ər-Raddu aləl-Məntiqiyyin" kitabında deyir:

"**Muvaqqitlərdən bir qrupun etdiyi kimi fəcrin müddətini işənin müddətinə bərabər olacaq şəkildə səma cisminin hərəkətindən məhdud bir ölçü ilə hesablamağa gəldikdə isə bunda xəta ediblər, necə ki, görmə qövsünü qeydsiz-şərtsiz olaraq hesablayanlar da xəta ediblər, çünki fəcr günəşin işığıdır və bu, onun hava və yer səbəbi ilə əks olunmuş şüalarıdır. Bu isə şüaların üzərinə düşdüyü yerlərin fərqlənməsi ilə fərqlənir və əgər səma təmiz və aydın olarsa günəş işığı burada səmanın buxarlı olmasında göründüyü kimi görünməyəcək, çünki buxar ağır və sıx olduğu üçün zərif havanın üzərinə düşməyən şüalar onun üzərinə düşür. Görmürsənmi ki, günəş çıxdıqda onun şüaları yalnız yer, dağlar və bunlar kimi sıx maddələr üstündə görünür və əgər güzgü və su kimi parıltılı olarsa daha aşkar görünür. Hava isə hətta işıqlanmış olsa belə şüalar onda durmur, əksinə sıx bir maddəyə çatıb əks olunana qədər onu deşib keçir. Beləliklə də qışda gecə buxarlar çox olur, çünki torpaq rütubətli olduğu üçün ondan çıxıb qalxanlar çox olur və bu vaxt buxar həll olub getmir, beləliklə də şüa onun üstündə əks olunur və buna görə də bu zaman fəcr buxar olmadığı vaxta nisbətən daha tez görünür. Yayda isə günəş gündüz vaxtı buxarı həll edib aparır, ona görə də günəş batdıqda onun geridə buraxdığı şüaları rədd edəcək bir buxar qalmır, beləliklə də yayda işənin müddəti bu səbəbə görə uzanır. Bu səbəbə görə qışda fəcrin müddəti uzanır. Yayda isə şüaları əks etdirəcək buxar olmadığı üçün şüaların ortaya çıxışı gecikdiyinə görə fəcrin müddəti qısalır, çünki yayda rütubət az olur. Qışda buxarların çox olması səbəbi ilə qışın naharında işənin müddəti qısalır. Bu mövzunun hasili budur ki, hər iki müddət astronomik səbəblərə görə deyil, buxarların səbəbi ilə uzanmaqda və qısalmaqda özündən əvvəlkilərə tabe olur. Bunun**

səma cisminin hərəkətinə görə belə olduğunu güman edənlər buna əsasən ölçüblər, ona görə də hesablarında xəta ediblər və deyiblər ki, qışda fəcrin müddəti yaydakından qısadır və işənin yaydakı müddəti qışdakından qısadır, çünki bu, gecənin bir hissəsidir, bu isə gündüzün bir hissəsidir, ona görə də hesabında ona (yəni yayda gecənin qısalmasına, qışda isə uzanmasına, yayda gündüzün uzanmasına, qışda isə qısalmasına) tabedir. Günəşin çıxmağı və batmağı ilə günəşin şüalarının çıxması arasında bir fərq qoymayıblar, halbuki günəş kosmik fəzada hərəkət edir və kosmik fəzaya tabedir, şüaları isə hava və buxar kimi onu daşıyan, onu əks etdirən şeylə bağlıdır və bunun səbəbi Yer kürəsinin üzərindəki səbəblərlə əlaqədardır, səma cisminin hərəkəti kimi deyildir. Buna görə də bu fasid ölçüyə əsasən dedikləri hiss oluna bilən həqiqətə müxalifdir, onların dediklərinin yalan olduğu Adəm oğullarının bir-birindən fərqli tayfalarının ittifaqı ilə bilinən bir şeydir. Halbuki hislərimiz ilə və açıq əqli dəlillər ilə bilinən şeyə şəriət heç zaman müxalif olmaz, nə bir hiss, nə də bir əql müxalif olmaz, çünki doğru dəlillərin tələb etdiyi nəticələr bir-biri ilə ziddiyyətə düşməz. Lakin fasid ölçü və fasid güman ilə deyilənlərdə isə ixtilaf baş verir."[1] *Şeyxul*-İslam İbn Teymiyyə'nin söylədiyi *bu müşahidələrinin* hər bir təfsilatının doğruluğuna toxunmadan onun sözündəki bizim mövzu ilə bağlı önəmli hissəsinə *işarə* etmək istəyirəm. *Şeyxul*-İslam buyurur ki, fəcrin girməsi sadəcə olaraq kosmik fəzada bir səma cisminin hərəkəti ilə müəyyən edilməməlidir, lakin Yer üzündəki müxtəlif təbii fenomenlərə görə dəyişə *bildiyi üçün müşahidə* ilə bilinməlidir. *Şeyxul*-İslam İbn Teymiyyənin üfüqdə şüaların görünməyinin fərqli vaxtlarda və fərqli yerlərdə fərqlənməsi barədə dediklərinin bənzərini Cəməluddin əl-Mərdini'nin də yuxarıda təsdiq etdiyimiz sözləri dəstəkləyir.

İbn Teymiyyə'nin sözlərindən başa *düşmək* olarmı ki, astronomik hesablama tamamilə etibarsızdır? Daha əvvəl əl-Qarafi'dən gətirdiyimiz nəqllərdən *başa düşdük ki, müşahidə* etmək imkanı olmadıqda astronomik hesablama ilə namazların vaxtını təyin etmək icma ilə icazəlidir. İbn Teymiyyə'nin sözlərindən astronomik hesablamanı tamamilə rədd edən bir məna çıxarmaq doğru deyildir.

İbn Teymiyyə'nin sözləri də əl-Qarafi'nin sözlərinə uyğun şəkildə *başa düşülməlidir*. Yəni insan hissi əgər hansısa astronomik bir hesablamanın xətalı olduğunu sübut edərsə həmin astronomik hesablanmaya əsaslanmaq

[1] "ər-Raddu alal-Məntiqiyyin", səh: 266-267;

olmaz, lakin hiss hansı hesabı təsdiqləyirsə ona əsaslanmaq icazəlidir. Doğrusunu Allah bilir.

İbn Həcər əl-Heytəmi

Bu tarixi səyahətimizdə hicri onuncu əsrə, miladi on altıncı əsrə gəldik. Bu dövrün ən seçkin və görkəmli şəxsiyyətlərindən biri də məşhur şafi'i alimi Şihəbuddin Əbul-Abbas Əhməd ibn Həcər əl-Heytəmi əl-Məkki (h.909/m.1503 – h.973/m.1666) sayılır. İbn Həcər "Fəthul-Cəvad bi Şərhil-İrşəd" kitabında işə namazının vaxtının girməyi haqqında danışarkən deyir:

"**Bəzən muvaqqitlərin təqdir etdikləri vaxt – və bu, (günəşin üfüqdən aşağı olması baxımından) iyirmi dərəcədir – bitmədən öncə qırmızı şəfəq itir, bu halda etibara alınan onların təqdir etdikləri vaxtdır yoxsa müşahidədir? Bu babın qaydası, həmçinin hədislər ikincinin tərcih edilməsini tələb edir, feli icma isə birincini tərcih edir. Eyni şey təqdir etdikləri vaxtın bitməsinə baxmyaraq qırmızılılığın itməməsi halı üçün də keçərlidir.**"[1]

Feli icma ilə alimin qəsd etdiyi əsrlər boyunca müxtəlif camilərdə və məscidlərdə məhz muvaqqitlərin namazın vaxtlarını təyin etmiş olmasıdır, buna feli icma demək olar, çünki əməl olaraq bunun üzərində razılaşıblar. Lakin təbii ki, İbn Həcər babın qaydasına üstünlük verir, çünki daha xasdır.

Burada bəzi məqamları izah etmək lazımdır. Burada "və bu, iyirmi dərəcədir" sözləri "Fəthul-Cəvad" kitabının çap olunmuş şəklində yoxdur. Lakin əl-Buceyrimi haşiyəsində həmin kitabdakı sözləri bu şəkildə nəql etmişdir. Ola bilsin ki, bu sözlər əl-Heytəmi'yə aid deyildir, əl-Buceyrimi sadəcə olaraq əl-Heytəmi'nin sözlərinin aydın başa düşülməsi üçün cümlənin ortasına daxil etmişdir. İstənilən halda şəfəq üçün göstərilmiş "iyirmi dərəcə" ölçüsü məşhur müsəlman heyətşünasların dedikləri ilə uyğun gəlmir. "İyirmi dərəcə" hesabı həqiqətən də şəfəqin çox gec itməsini gərəkdirir. Lakin heyətşünasların sözlərinə baxdıqda isə görürük ki, onların arasındakı görüşlər fərqli olsa da məşhur görüşlər arasında ən çoxu 18 dərəcə deyilib. Günəşin üfüqdən 18 dərəcə aşağı düşdükdə şəfəqin itdiyini və bu vaxtın işə namazının girdiyi vaxt olduğunu deyən alimlərimiz arasında

[1] "Fəthul-Cəvad bi Şərhil-İrşəd", 1/142; Darul-Kutubil-İlmiyyə

əl-Bəttəni, Əbul-Həsən əs-Sufi, əl-Beyruni, İbnuz-Zərqalə, Nəsiruddin ət-Tusi, İbn Bas əl-Əsləmi, əl-Qadi Zadəh, Əbur-Rabi əl-Fəştəli, İbnul-Məcəsi, İbnul-Mufti və Şeyx Həsən Əfəndi kimi tanınmış astronomlar vardır. İbnuş-Şatir, Cəməluddin əl-Mərdini, Abdulaziz əl-Vazkəni, Mahmud əl-Cənbəvi, Əbul-Qasim əs-Safəqisi, Əbu Abdilləh Sidi Muhəmməd əl-Muti, Əli bin Abdilqadir əl-Bəntiti və başqaları günəş 17 dərəcə üfüqdən aşağı endikdə şəfəqin itdiyini deyirlər. Əbu Əli əl-Mərrakeşi isə bunun üçün 16 dərəcənin doğru olduğunu deyir. İbnur-Raqqam adı ilə tanınan Əbu Abdilləh Muhəmməd əl-İşbili isə bunun 19 dərəcə olduğunu deyib. Ən çox deyən odur, lakin onun görüşü heyətşünaslar arasında mötəbər hesab olunmur. Ən məşhur olan iki görüşdür: on səkkiz dərəcə və on yeddi dərəcə. Ona görə də əl-Heytəmi'nin zikr etdiyi iyirmi dərəcənin heyətşünasların görüşünü təmsil etdiyini düşünmək xətalı olardı. Əksinə təqdim etdiyimiz məlumatlar göstərir ki, heyətşünasların təsbit etdiyi dərəcələr təxminən fəqihlərin nəzərdə tutduğu vaxtla üst-üstə düşür.

Amma yenə də buradan biz lazım olan qaydanı öyrənmiş olduq. Eyni mənanı həm də əl-Qarafi'nin və İbn Teymiyyə'nin də sözlərindən başa düşürük: əgər müşahidələr hansısa hesabın doğru olmadığını göstərərsə o zaman hesaba deyil, gördüyümüzə etibar etməliyik. Bu, inkar olmaz şər'i bir həqiqətdir.

Hədramut alimləri

Mövzu haqqında yazımızı tamamlayacağımız bir əsnada Allah bizim daha bir kitab ilə tanış olmağımızı istədi. Bu kitab bizim üçün mövzu ilə bağlı bir xəzinə oldu. Təsəvvür edin ki, bu gün müzakirəsini etdiyimiz bu mövzunun bir bənzəri hicri 13-cü əsrin, miladi 18-ci əsrin Yəmənində Hədramut bölgəsində, xüsusilə də Tərim şəhərində qızğın bir müzakirə mövzusu olub. Bu barədə o dövrün alimləri kitablar yazıblar və bu kitablarında hər tərəf öz mövqeyini müdafiə edib. Əlimizə keçən kitab o dövrün və o bölgənin alimlərindən olan Abdullah bin Ömər bin Əbi Bəkr bin Yəhyə əl-Aləvi əl-Hədrami əş-Şafi'inin[1] "əs-Suyuf əl-

[1] Peyğəmbərimizin – səlləllahu aleyhi va səlləm – şərəfli soyundandır. Hədramut tarixində "Asrul-Abədilə" (Abdullahlar əsri) olaraq bilinən dövrdə yaşamış yeddi Abdullah adlı alimdən biridir. Hicri 1209-cu il, miladi 1794-cü ildə Hədramut vadisində yerləşən Tərim şəhərinin cənubundakı əl-Məsilə kəndində dünyaya gəlib. Dayısı Tahir bin Hüseyn bin Tahir'in şəriət mədrəsəsində şəriət elmlərini öyrənərək böyümüşdür. Abdullah bin Əbi Bəkr bin Səlim Aydid, Aləvi bin Səqqaf bin Muhəmməd əs-Səqqaf əs-Safi, Abdurrahmən bin Həmid bin Ömər, Əhməd bin Ömər bin Sumeyt, Səqqaf bin Muhəmməd əl-Cifri, əl-Həsən bin Saleh əl-Bəhr əl-Cifri, Həsən bin Abdilləh əl-Amudi, Ömər bin Abdilkərim əl-Attar, Abdurrahmən bin Süleyman əl-Əhdəl və daha bir çox alimdən elm alıb. Bu alim gəncliyində kitab sevdalısı kimi tanınmışdır. Hətta onun həyatı haqqında yazmış tarixçilər qeyd edirlər ki, toy gecəsində dostları onun uzun zamandan bəri axtardığı bir kitabı ona verirlər. O da kitabı götürərək gəlinin yanına gedir, lakin gəlinlə məşğul olmaq əvəzinə kitabı mütaliə etməyə başlayır. Bu sözlər də ondan nəql olunub: "Kitablara olan şövqüm övladlarıma olan şövqüm qədərdir." Elm tələbində Yəmənin müxtəlif bölgələrinə, Harameynə və Misirə səyahətlər etmişdir. Hədramut'un siyasi həyatında çox aktiv iştirak edib, qısa müddətlik dövlət qurmuş dayısının yanında yer alıb. Daha sonrakı dövrlərdə zalım əmirlərə qarşı dirənib, hətta buna görə sui-qəsdə məruz qalıb. Bu səbəblə hicri 1238-ci ildə Hədramutun sahil bölgəsindəki əş-Şihr şəhərinə köçür. Daha sonra 1240-cı ildə Məkkəyə həcc ziyarətinə gedir. Ondan sonra səfərləri bir-birinin ardınca davam etməyə başlayır, özünün də dediyi kimi səyahət etməyi sevərdi. Yəmənə, Misirə, Şama, Hindistana, hətta İndoneziyaya səfərlər edib. Bu səfərlərində çox sayda fətvalarını qələmə alıb. İndoneziyanın Yava adasına həm elm tələb etmək üçün, həm dəvət üçün, həm də müalicə almaq üçün getdiyini yazır və şerlərindən anlaşılan budur ki, orada 1249-cu ildə olub. Dəvəti nəticəsində o bölgələrdə çox sayda insan müsəlman olub. Dəvətdə çox aktiv bir həyat sürüb. 1251-ci ildə Muhsin bin Aləvi bin Səqqaf əs-Səqqaf və Muhəmməd bin Hüseyn bin Abdilləh əl-Həbəşi ilə misaq üzərində imza ataraq dəvət əhdi bağlayırlar və Hədramut bölgəsində, xüsusilə

Bəvatir limən Yuqaddimu Salətəs-Subhi aləl-Fəcril-Axir" adlı risaləsi idi. Bu risalənin də öz tarixçəsi var. Şeyx Abdullah və o dövrün bəzi alimlərinə görə hicri on üçüncü əsrdən öncə Tərim şəhərində müəzzinlər azanı şəriətin qoyduğu qaydaya görə verirdilər. Şəhərdəki bütün məscidlər "Əl Əbi Aləvi" məscidinin azanına tabe idilər və bu məscid şəhərin şərq tərəfində yerləşirdi. Məscid sübhün girməyini müşahidə etmək üçün ən uyğun yer sayılırdı;

də aləvilərin arasında dəvət aparacaqlarına dair razılaşırlar, əhdləşirlər. Belə görünür ki, 1249-cu ildə İndoneziyada olduqdan sonra 1251-ci ildə bir daha Hədramuta qayıtmışdır və ondan sonra bir daha oranı tərk etməyib. Haqq sözə çağıran və bu yolda güzəşt etməyən biri kimi tanınıb. Sultanlara, əmir sahiblərinə nəsihətlər edərdi və 1262-ci ildə Sultan Ğalib bin Muhsin əl-Kəsiri'yə (və ya əl-Kuseyri'yə) yazdığı nəsihət məktubu da tarixə düşüb. Bizə çatmış məlumatlardan bilirik ki, bu alim xəstəlikdən əziyyət çəkib, qeyd etdiyimiz kimi İndoneziyada olmağının səbəblərindən biri də müalicə olub. Lakin görünür ki, xəstəliyinə səbr edərək 1265-ci ildə Hədramutda vəfat edib. Allah ona rəhmət etsin!

Şeyx Abdullah Hindistandakı səfərində də dəvətlə məşğul olmağı unutmamış, orada gördüyü münkərləri də inkar etməyə cürətli olmuşdur. Heydərabadın şahına yaxın olan bəzi sufi təriqət sahiblərinin izlədiyi adətləri şiddətlə qınadığı üçün onu zəhərləyirlər. Zəhər onun bütün cisminə yayılır və az qala ölümünə səbəb olacaqdı. Lakin onu qonaq kimi qəbul etmiş şah onun müalicə olunması üçün Hindistanın ən məşhur təbiblərini bir araya gətirir və Allahın şəfası ilə sağalır. Lakin şah ona nadir bir hind inəyi hədiyyə verir ki, istədiyi zaman onun südündən içsin. Ola bilsin ki, zəhərləyənlər onu südlə zəhərləmişdilər. Bundan sonra Şeyx Abdullah növbəti səfərlərində həmin inəyi də özü ilə götürdüyü üçün ona "sahibul-bəqara" ləqəbini verirlər. İndoneziyanın Yava adasına ayaq basdıqda o torpaqlar hollanların müstəmləkəsi halına çevrilmişdi. Təbii ki, Şeyx Abdullah bu barədə sakit qalmır və o bölgədə buna qarşı fəaliyyət göstərməyə başlayır, müsəlmanları hollandlara qarşı üsyan etməyə çağırır, bunu bir fərz olduğunu, müsəlmanların onları öz torpaqlarından kənarlaşdırmağın müqəddəs bir borc olduğunu onlara xatırladır. Təbii ki, onun bu fəaliyyətləri hollandların gözündən yayınmır və tezliklə sahil kənarındakı evini holland əsgərləri mühasirəyə alırlar və bir həftəlik mühasirə ərzində Şeyx Abdullah təslim olmur. Allah ona bir həftə sonra hollandların xəbəri olmadan o evdən qaçmağı müyəssər edir. Bütün bunları Şeyx Abdullah öz dayısına yazdığı məktubunda detalları ilə vəsf edir və müsəlmanların hollandlar qarşısında necə qorxduğunu yazır və bütün gördüklərindən şikayət edir.

Məkkədə olduğu dövrdə Məkkənin böyük alimlərindən və şəriflərindən birinin siqaret çəkdiyini görür və onun bu əməlini inkar etməkdə tərəddüd etmir və deyir: "Belə bir şey şərəfli elm məqamına yaraşmır və bu, çirkin bir bidətdir, saf nəfslər və salamat təbiətlər bunu rədd edir." Həmin alim də onu susdurmağa çalışaraq deyir: "Siz qəhvə içirsiz və buna icazə verirsiz, halbuki o da bidətdir." Bunun cavabında Şeyx Abdullah buyurur: "Yaxşı, gəl sənin lə mən Kəbənin yanına çıxaq və mən orda qəhvə içim, sən isə çıxar tənbəki və siqaretini çək, müsəlmanlar hansımızın əməlini inkar edərsə o xətalıdır." Bu sözündən sonra məkkəli alim susur və başa düşür ki, müsəlmanlar siqaret çəkməyi inkar edəcəklər. Bu alimin bu şəkildə 56 illik ömründə üzləşdiyi şərəfli məqamlar çoxdur, lakin çox təəssüf ki, fətvalarının, yazdıqlarının çoxu əlyazma olaraq qalır.

Şeyx Abdullah uzun bir xəstəlikdən sonra miladi 1849-cu ilin aprel ayına müvafiq olan hicri 1265-ci ilin cumədəl-əvval ayında doğma kəndində vəfat edib. Cənazəsini də müəllimlərindən biri olmuş dayısı Abdullah bin Hüseyn bin Tahir qıldırıb. Orada da dəfn olunub və qəbri bu gündə tanınır.

şəhərin işıqları aşağıda qalırdı və qarşısında üfüq görünürdü. Müəzzin minarənin üstünə çıxar və oradan fəcrin girdiyini gördükdə azan verərdi, şəhərin müəzzinləri də onun azanına görə azanlarını verərdilər. Görünür ki, on üçüncü əsrdə məscidlərdə artıq muvaqqitlərə vəzifə verildi və artıq sübhün vaxtını ulduzlara baxmaqla təyin etməyə başladılar. Bunu biz o dövrdə alimlərin bir-birilərinə yazdıqları cavablardan öyrənirik. O dövrdə bu cür vaxtı təyin etməyə çox sayda alim etiraz edib. O zaman bu barədə yazanlardan ən məşhuru dövrünün alimlərindən Alləmə Abdullah bin Hüseyn Bəlfəqih Bə'ləvi[1] oldu. Yazdığı "əs-Seyf əl-Bəttər limən Yəqulu bi Əfdaliyyəti Təxiri Salətis-Subhi iləl-İsfər" adlı risaləsində vaxtı təyin edən muvaqqitləri və müəzzinləri müdafiə etmiş və onların xətasının nadir olduğunu, bu etdiklərinin də bidət olmadığını, əksinə əsrlər öncədən bu əmələ tabe olmuş muvaqqitləri, müəzzinləri izlədiklərini yazmışdır. Onun bu kitabında söykəndiyi əsas arqumentlərdən biri də budur ki, Tərim şəhərinin alimlərinin əksəriyyəti bu metodun etibarlı olduğunu təsdiqləyiblər və həmçinin bu metodla gedən məscidlərin imamları da o zamanın savadlı şəriət alimləri olublar. Lakin onun bu risaləsinə Tərim şəhərinin alimlərindən İdrus bin Əhməd bin Şihəb[2] "əl-Qavl əs-Sadiq fi Bəyənil-Fəcris-Sadiq əl-Mutərid va İdhədu Kələmil-Mutərid" adlı risaləsi ilə cavab vermişdir. O isə öz növbəsində müəzzinlərin bu barədə savadlarının olmadığını, əksinə məscid naiblərinin ulduzlara əsasən təyin etdikləri vaxta görə azan verdiklərini əsas gətirərək vaxtın xətalı olduğunu yazır. Ona görə sübh üçün verilən azan sübhün vaxtı girmədən öncə verildiyi üçün səhih deyildir. İbn Şihəb'in bu risaləsində dediyi sözündən belə başa düşülür ki, Tərim şəhəri bu baxımdan digər iqlimlərdən fərqlənib. Lakin çox ehtimal ki, İbn Şihəb burada Yəmənin şəhərlərini qəsd edir, yoxsa Misirdə, Şamda və əksər yerlərdə camilərdə və məscidlərdə vaxtları hesaba görə təyin etdiklərini yuxarıda bəyan etdik. Həmçinin onun risaləsindən öyrənirik ki, bəzi alimlər öz məscidlərində azanı gecikdirərdilər. Misal üçün Alləmə Abdullah bin Əbi Bəkr Aydid özü məsciddə azan verərdi və insanlar fəcrin girdiyini aydın şəkildə görənə qədər azan verməzdi. Yaxud da Şeyx Abdullah bin Hüseyn bin Tahir kimi bəziləri yalnız fəcr aydın şəkildə bilindikdən sonra məsciddə imamlıq edərdi. Lakin İbn Şihəb'in risaləsi Tərim şəhərində gözlənilən əks sədaya səbəb olmadı, ona görə də İbn Şihəb həm öz yazdığını, həm də Abdullah Bəlfəqih'in risaləsini müəllimi Şeyx Abdullah ibn Yəhya'ya götürür və İbn Yəhya da öz tələbəsinin görüşünü müdafiə edərək "əs-Suyuf əl-

[1] Abdullah bin Hüseyn bin Abdilləh bin Aləvi bin Abdilləh Bəlfəqih əl-Aləvi əl-Hədrami ət-Tərimi hicri 1198-ci ildə anadan olub. Yəməndə və Hicazda elm tələb etmiş, Ömər bin Abdilkərim əl-Attar və Şeyx əz-Zəmzəmi'dən elm almışdır. Hicri 1266-cı ildə vəfat edib.

[2] İdrus bin Əhməd bin Əli bin Abdilləh bin İdrus ibn Şihəbiddin əl-Aləvi ət-Tərimi əl-Hədrami Tərim şəhərində anadan olub və hicri 1290-cı ildə Məkkədə vəfat edib. Şeyx Abdullah bin Yəhyə'nin tələbələrindən biridir.

Bəvatir" kitabını hicri 1261-ci ildə qələmə alır. Allahın təysiri ilə bu kitabı əvvəldən axıraq qədər oxumaq bizə müyəssər oldu. Kitabda çox maraqlı bəhslərə yer ayrıldığını etiraf etməliyik. Kitabın mühtəvasını növbəti sətrlərdə müzakirə edirik.

Görünür ki, o dövrdə Hədramut bölgəsinin Tərim şəhərində on üçüncü əsrin əvvəllərində mənzilələrə əsaslanaraq fəcrin vaxtını təyin etmə metoduna keçid baş verib. Daha əvvəl izah etdiyimiz kimi mənzilələrə etimad etmək alimlərə görə doğru deyildir. Lakin bu şəhərdə azanlarda məhz mənzilələrə əsaslanaraq azan verməyə başlayıblar. Ümumən hesaba ehtiyacın əmələ gəlməsini başa düşmək olar, çünki Hədramutun şərq tərəfini dağlar örtür və üfüq dağların arxasında qalır. Buna görə də hesaba əsaslanaraq sübh namazı üçün azan verməyə başlayıblar.

İbn Yəhya'nın kitabını oxuduqda bu mövzuda ona müxalif olan Abdullah Belfəqih'in də görüşünü öyrənmək olur. Əgər İbn Yəhya'nın müxalifinin görüşünü nəql etməkdə etibarlı hesab etsək bu nəticəyə gəlməliyik ki, Abdullah Belfəqih sübh azanının günəşin çıxmağına iki mənzilə qaldığı müddətdən öncə verilməsini müdafiə edirdi. Bu isə dərəcə hesabı ilə 25 dərəcədən çoxdur, yəni təxmin edə bilərik ki, fəcrin həqiqi vaxtı girmədən ən azından yarım saat öncə azan verilirdi. Şübhəsiz ki, bu, çox ciddi bir xəta sayılmalıdır. Ona görə də İbn Yəhya'nin və müasirlərindən digər alimlərin bununla bağlı etiraz etməklərini başa düşmək olar.

Həmçinin anlamaq olar ki, tərəflər arasındakı münaqişənin bir hissəsini əl-Ğazəli'dən daha öncə təqdim etdiyimiz sözlər təşkil edib. Nəzərə almaq lazımdır ki, Hədramut bölgəsi sufilərin nüfuzunun güclü olduğu bir bölgə olub və əl-Ğazəli'nin "İhyə Ulumid-Din" kitabının o bölgələrdə xüsusi statusu olub. Ona görə də hər iki tərəf əl-Ğazəli'nin sözlərini öz görüşünə müvafiq şəkildə izah ediblər. Misal üçün əl-Ğazəli qeyd edir ki, günəşin çıxmağına iki mənzilə qalmadan öncə təxminən bir mənzilənin üçdə biri miqdarında şəkk vaxtı olur. Abdullah Belfəqih həmin bu müddətdə namaz qılmağı caiz görür, ona görə əl-Ğazəli'nin burada onu "şəkk müddəti" adlandırması səfərdə olana nisbətdədir, lakin əgər təcrübəli muvaqqitlər həmin vaxtın sübhün əvvəlini olduğunu söyləyirsə o zaman artıq şəkk olmamalıdır. İbn Yəhyə isə əksinə başa düşür və kitabında isbat etməyə çalışır ki, əl-Ğazəli həmin vaxtda qılınan namazı səhih saymır.

Bu gün biz bilirik ki, bu məsələdə haqlı olan İbn Yəhyə olub. O, kitabı boyunca uğurla isbat edir ki, fəcrin müddəti iki mənzilədən azdır, çox deyildir. Bir çox yerdə də heyətşünasların 18 dərəcə barəsində dedikləri sözləri zikr edərək fəcrin vaxtının iki mənzilədən az olduğunu göstərir.

Lakin İbn Yəhya'nın bu məsələdə bir yerdə xətası vardır. Xətası isə budur ki, o, fəcrin başlanğıcını üfüqdə qızartının əmələ gəlməsi ilə əlaqələndirir, daha dəqiq desək tam bir qızartı olmasını yox, lakin ağartıya xəfif şəkildə

qızartının qarışmasını etibara alır, halbuki daha öncəki müzakirəmizdə alimlərin sözləri ilə isbat etdik ki, etibara alınan ilk əvvəldəki ağartıdır. İbn Yəhyə'nin bu məsələdə xəta etməsinin səbəbləri vardır:

Bu məsələdə ərəb dili alimlərinin fəcr üçün verdikləri tərifə əsaslanıb. Misal üçün əl-Feyruzabadi'nin "əl-Qamus" kitabındakı sözlərini sitat gətirir: "**Fəcr sübhün işığıdır və o, gecənin qaranlığında günəşin qızartısıdır.**"[1] Bu isə dəlil olaraq keçərli deyildir, çünki fəcrin ümumi vəsfi heç də onun başlanğıc vəsfi üçün dəlil sayılmaz. Fəcr vaxt keçdikcə rəngini dəyişir. Ona görə də ərəb dilində həm "fəcr", həm də "sübh" sözləri vardır. "Fəcr" sözü partlamaq", "anidən zühur etmək" mənalarını verən "infəcara" feli ilə eyni köklüdür, "sübh" sözü isə qırmızı ilə ağ rəngləri özündə qarışdıran rəng mənasını gələn kökdən əmələ gəlir. Yəni fəcr daha çox ilk vaxtına, sübh isə fəcrin qırmızı çalar qazandığı vaxta deyilir. Ona görə də ərəb dili alimlərinin sübhə verdikləri tərifi bu mövzuda dəlil gətirmək doğru deyildir.

Bir başqa səbəb isə alimin əlindəki əlyazmalardakı xətalardır. Misal üçün deyir: "**Şeyx Muhəmməd bin Əli əş-Şa'bi əl-Məvzə'i əş-Şəfi'i "Təysirul-Bəyən fi Əhkəmil-Quran" kitabında bu ayə haqqında danışarkən dedi: "Ayədə dəlil vardır ki, hökm ikinci fəcrlə bağlıdır və o, qanad açıb (eninə) uzanan qırmızıdır, ağ deyildir və bu, səhabələrdən və tabiindən olan elm əhlinin əksəriyyətinin görüşüdür." Dərvaz adı ilə məşhur olan Şeyx Muhəmməd bin Həsənə aid "Nihəyətul-İhkəm fi Əyətil-Əhkəm" kitabında bu ayə haqqında danışdıqda deyir: "Bunu dəlil gətiriblər ki, hökm ağ olanla deyil, (eninə) uzanan qırmızı olan ikinci fəcrlə bağlıdır.**"[2] Halbuki biz kitabımızda bu barədə danışdıqda əl-Məvzə'inin sözlərini onun çap olunmuş kitabından zikr etdik. Orada əl-Məvzə'i ayənin hökmünün ağartı ilə əlaqəli olmasını inkar etmir, əksinə qırmızı fəcrlə əlaqəsini inkar etmişdir. Kitabı təhqiq edənlər də bəzi əlyazmalarda bu xətanın olduğunu qeyd edirlər. Həm də ağı ayəni ona necə dəlil gətirmək olar? Bu, mümkün deyildir, ayədə qırmızı sözü yox, ağ sözü keçir. Ona görə də Muhəmməd bin Həsən Dərvaz'dan zikr etdiyinin belə bir təshif olduğunu söyləyə bilərik, çünki həmin ayəni qırmızı fəcr üçün yox, ağ fəcr üçün dəlil gətiriblər.

Daha bir səbəb isə budur ki, İbn Yəhyə bu məsələdə əl-Ğazəli'nin sözlərindən təsirlənmişdir. əl-Ğazəli'nin zikr etdiyi Talq bin *Əli'nin h*ədisini özünə rəhbət götürüb. Başqa önəmli faktor budur ki, İbn Yəhya'nın kitabını oxuduqda oxucunun diqqətini çəkən onun hədisləri əsas sünnət kitablarından gətirməməsidir. Kitabı təhqiq edənlər də buna diqqət çəkiblər.

[1] "əs-Suyuf əl-Bəvatir", səh: 131;
[2] Səh: 125;

Görünür ki, İmam *Əhməd*'in "əl-Müsnəd" kitabına çıxışı olmayıb. Çünki "əl-Müsnəd" kitabındakı hədisin yalnız mətnini İbn Həcər əl-Heytəmi'nin sözlərindən nəql edərək həmin hədisin də Talq bin *Əli'nin h*ədisini dəstəklədiyini deyir, halbuki "əl-Müsnəd"dəki hədis də Talq bin *Əli'nin* hədisidir.

İbn Yəhya kitabının sonlarında çox maraqlı bir nəticəyə gəlir. Ona görə fəcrin vaxtı hər zaman və dünyanın hər bir yerində təqribən gecənin səkkizdə birini t*əşkil edir. Gecə* dedikdə isə gecə sözünün lüğəvi mənasını, yəni gün*əş batandan günəş* çıxana qədər olan müddəti qəsd edir. Mən onun bu təqribi ölçüsünü bizim yaşadığımız yerə tətbiq etdim, lakin bunun bəzən təqvimdə göstərilən vaxta yaxın olduğunu, bəzən də arada çox böyük bir fərqin olduğunu gördüm. Ona görə də səkkizdə bir ölçüsü bütün yerlərdə və bütün zamanlarda keçərli sayıla bilməz.

VAXTIN TƏYİNİNDƏ TƏQVİMLƏRƏ ETİMAD ETMƏK OLARMI?

Kitabımızın bu hissəsində fəqihlərin hesaba etimad edərək namazın vaxtlarını təyin etmək barəsindəki sözlərini müzakirə edəcəyik. İlk öncə onu qeyd edək ki, alimlər arasında bu barədə ixtilaf vardır. Bu barədə dörd məzhəbin alimlərinin sözlərini araşdırdıq. Allah fəqihlərimizə rəhmət etsin! Adətlərinə uyğun olaraq namaz kimi əzəmətli ibadətlə əlaqəli olan hər bir mövzunu müzakirə ediblər.

Hənəfi alimlərinin sözlərini araşdırdıqda İbn Abidin'in bu barədə dediyi bu sözlərlə qarşılaşdıq. Haşiyəsində buyurur: "**Namazların vaxtlarında və qiblənin təyinində siqa/etibarlı alimlərin vaxtlar barəsində yazdıqları kitablarında dediklərinə və bu məqsəd üçün düzəltdikləri rub' və üstürlab kimi alətlərə etimad etmək lazımdır, çünki bu (alətlər) əgər yəqinlik ifadə etməzsə ən azından onları işlətməyi bilən kəs üçün güclü zənn ifadə edir. Bu məsələdə isə güclü zənn kifayət edir.**"[1] Bu, mövzumuz haqqında hənəfi aliminin verdiyi dəqiq bir fətvadır. Ümumiyyətlə indiyə qədər oxuduğum məlumatlardan aşkar şəkildə görünən budur ki, şəriət alimləri, fəqihlər mənzilələr ilə hesablamaq ilə üstürlab kimi dəqiq alətlər ilə hesablamaq arasında fərq qoyublar, birincisinə etimad etməyi doğru saymadıqları halda ikincisinə etimad etməyi doğru sayıblar.

Maliki alimlərinə gəldikdə isə əl-Qadi İbn əl-Arabi deyir: "**Kim (fəcr) aydınlaşmadan öncə mənzilələrə əsaslanaraq namaz qılarsa o, bidətçidir, çünki namazın vaxtları həm ümumi kütləyə, həm də xüsusi kəsimə, həm alimlərə, həm də cahillərə bəyan edilmiş vaxtlarla əlaqələndirilmişdir. Mənzilələr isə onun üçün məşru qılınıb ki, sabahın yaxınlaşdığı bilinsin və beləliklə də oruclu (yeməyini) saxlasın, namaz qılan isə hazırlaşsın və fəcr aydınca seçildikdə namazını qılsın.**"[2] Bu sözlər mənzilələr haqqında deyilib. Mənzilələr ilə namazın vaxtını hesablamaq haqqında daha əvvəl danışdıq.

[1] *"Haşiyə*tu İbn Abidin", 1/431;
[2] "Aridatul-*Əvhazi", 1/263;*

Oruclunun yeməyini saxlamasına gəldikdə isə bu, maliki məzhəbini digər üç məzhəbdən ayıran məsələdir, çünki malikilərə görə əgər fəcrin girdiyində şəkk edərsə o zaman yeyə bilməz, yeyərsə qəza etməlidir. Digər üç məzhəb isə bu halda qəza etməni *vacib görmür, şafi'ilər* və hənbəlilər bu halda yeməyi caiz görürlər.

əl-Hattab ər-Rueyni adı ilə məşhur *olan maliki alimi* Şəmsuddin *Əbu* Abdilləh Muhəmməd ət-Tarablusi əl-Məğribi (vəfatı hicri 954) "Məvahibul-Cəlil" kitabında deyir: "**Daha əvvəl qeyd olundu ki, zəval vaxtı kölgənin artması ilə bilinir. Asanlığına görə və insanların bunu bilməkdə şərik olmasına görə fəqihlərin kitablarında zikr etdikləri tanınmış metod budur. Əgər bundan başqa metodla, rub', üstürlab və başqa alətlər ilə vaxt bilinərsə bu caiz olar, necə ki, bunu əl-Məziri və başqaları deyiblər.**"[1] Bir qədər *sonra başqa bir maliki alimi* İbnul-Munir'dən bu sözləri nəql edir: "**İbnul-Munir "Təysir əl-Məqasid li Əimmətil-Məsəcid" adlanan kitabında deyir: "Sübhün vaxtı üfüqü örtən, eninə yayılan fəcrin üzə çıxması ilədir və mənzilələrə yalnız vaxtı təqribi bilmək üçün etimad etmək olar. Əgər mənzilənin ortada durduğu ona görünərsə o zaman ağartını görənə kimi gözətləyər. Əgər hava tutqun olarsa o halda hava aydın olsaydı fəcrin çıxacağını bildiyi qədər gözləməli və ehtiyat etməlidir, tələsməməlidir. "Mizənuş-Şəms" isə qətidir.**" Burada hərfən "günəş*in* tərəzisi" mənasını verən "miz*ənuş*-şəms" sözü əslində üstürlab alətinə bəzilərinin verdiyi addır, çünki onlara görə "üstürlab" yunan dilindən tərcümədə "günəş*in* *xətləri/tərəzisi*" anlamındadır.[2] İbnul-Munir'in sözlərindən anlayırıq ki, mənzilələr ilə təyin etmək olmaz, lakin üstürlab ilə olar.

Şeyx ər-Rueyni bu sözlərdən öncə İbnul-Arabi əl-Maliki'nin yuxarıda gətirdiyimiz sözlərini və əl-Qarafi'nin daha əvvəl kitabımızda müzakirəsini etdiyimiz sözlərini zikr edir və sonra deyir: "**Bu, gözəl bir sözdür; burada ona işarə edir ki, zəval vaxtında vaciblik insanlar üçün görünənə bağlanıb, yoxsa hiss ilə dərk olunmayan, yalnız hesabla dərk olunan zəvala bağlanmayıb. Lakin insanlara görünən bu zəvalda onun görünməsi şərt qoşulmamışdır. Beləliklə də əgər (zəvalın) görünməsinə mane olan hava tutqunluğu varsa və bu metodlardan biri ilə yaxından nəzər yetirdikdə hissin dərk edə biləcəyi şəkildə zəvalın baş verdiyi dəqiqləşərsə bu, kifayət edər.**" Bir qədər sonra sözünü yekunlaşdıraraq deyir: "**Bütün bunlardan hasil olan budur ki,**

[1] "Məvahibul-Cəlil", 1/385;

[2] Astrolabe əslində yunan dilində "ulduz götürən" deməkdir. Astro yunanca ulduz deməkdir.

əgər üstürlab, rub', səmanın ortasındakı xəttə qoyulmuş sap kimi qəti alətlərdən biri ilə vaxtın girdiyi bilinərsə bu, vaxtın bilinməsi üçün kifayət edir..." Növbəti səhifədə bu barədə əl-Burzuli'nin sözlərini zikr edərək deyir: "əl-Burzuli "*əl-Əvail*" *kitab*ında deyir: "**Bizə görə məzhəbin üstün görüşü budur ki, (vaxtları) bilən adil müəzzinin görüşü - əgər ramliyyət, munqalət və başqa alətlər ilə vaxtları bilən biridirsə - mütləq şəkildə; yəni həm hava tutqun olduqda, həm də açıq olduqda, həm namazda, həm də orucda qəbul olunur. İbn Yunus və başqaları tərəfindən oruc kitabında bu ümumiliyi ifadə edəcək şəkildə bir mənalı olaraq deyilib.**"[1] Maliki alimlərinin *görüşü* də bizə aydın oldu. Şeyx ər-Rueyni bizə lazım olan hissəni xüsusilə vurğulayır. Onlara görə hər bir halda, yəni tutqun havada, həm də açıq, saf havada dəqiq alətlər ilə hesablanmış vaxta etimad etmək olar.

Şafi'i üləmasına gəldikdə yuxarıda İbn Həcər əl-Məkki'nin sözləri zikr olundu. Onun dedikləri vaxtın Yer səthindəki təbii hadisələrdən asılı olaraq gecikməsi və tezləşməsi ilə dəyişdiyini göstərir. Buna görə də o, hesab ilə *müşahidə*nin ixtilaf etdiyi zaman *hesaba yox, müşahidəyə* etimad ediləcəyini deyir. *Şafi'i fəqihləri* qədim zamandan bəri namazın vaxtlarının ölkədən ölkəyə fərqli olduğunu nəzərə alıblar. əl-Qadi *Əbul*-Həsən əl-Məvardi "əl-Həvi əl-Kəbir" kitabında deyir: "**... görmürsənmi ki, bir ölkədə fəcr daha tez girir, başqa ölkədə isə daha gec girir?!...**"[2]

Lakin hesab müşahidəyə müvafiq olmadığı halda hansına etibar etmək lazımdır? *Şafi'i alimlər*i arasında bu məsələdə ixtilaf vardır. *Şafii alimi Həsən* bin *Əli* əl-Mədəbiği əl-*Əzhər*i deyir: "**Mötəməd görüş budur ki, etibara alınan şəfəqdir, (astronomik) dərəcələr deyildir və onların görüşü ilə əməl olunmaz.**"[3] Həmçinin İbn Nuriddin əl-Məvzə'i də *buna işarə* edərək deyir: "**Bu ayədə dəlil vardır ki, namazın vaxtlarında hökm əqli idrak ilə deyil, hissi idrak ilə əlaqələndirilib, çünki qəti olaraq və yəqinliklə bilirik ki, (vaxtın girdiyi) aydınlaşmadan bir az öncə fəcrin vaxtı girir və Allah – subhənəhu – hökmü ona bağlamamış, lakin qullarına lütf edərək hökmü yalnız (fəcrin girdiyinin) aydınlaşmasına bağlamışdır.**"[4] Alimin bu sözləri çox önəmlidir. Nə üçün girdiyini aydın şəkildə gördüyümüz vaxtdan bir qədər öncə fəcrin həqiqətən daxil olduğunun qəti olaraq bilindiyini deyir. *Şübhə*siz ki, burada qəsd etdiyi astronomik hesablamalardır. O da razılaşır ki, fəcr günəş *üfüqd*ən müəyyən dərəcə aşağıda olduqda artıq fəcrin vaxtı girir, hətta biz bunu görməsək belə

[1] "Məvahibul-Cəlil", 1/385-386;
[2] "əl-Həvi əl-Kəbir", 3/409;
[3] "*Haşiyə*tul-Buceyrimi alal-Xatib", 1/392;
[4] "Təysirul-Bəyan li *Əhkə*mil-Quran", 1/268;

fəcrin vaxtı girir. Astronomik fəcr şəriətin etibara aldığı fəcrdirmi? Alimin cavabından aydın olur ki, şəriət namazın başlanğıcı üçün astronomik fəcri *deyil,* şəri fəcri hesaba almşdır, şəri fəcr isə üfüqdə ilk günəş şüalarının əmələ gəldiyi vaxtdan başlayır. İbn Həcər əl-Heytəmi'nin də dediyi buna dəlalət edir. Lakin bu sözlər astronomik hesablamanın göstərdiyi vaxtda namaz qılmağın səhih olmadığına dəlalət edərmi? Bu nöqtədə alimin sözü kifayət qədər təfsilatlı deyildir. *Əlavə edək ki, şafi'i alimlər*i arasında *müxalif görüşdə* olanlar da vardır. Misal üçün Şeyx Abdullah bin Hicəzi bin İbrahim əş-Şərqavi (h. 1150-1227) Zəkəriyyə əl-*Ənsari'nin* "Şərhut-Təhrir" kitabına yazdığı haşiyəsində İbn Həcər əl-Heytəmi'nin sözlərini zikr edir və deyir: "**İbn Həcər bu şəkildə dedi. Şeyxlərimizin etimad etdiyi görüş isə birincidir.**"[1] əş-Şərqavi isə öz dönəmində əl-*Əzhar universitetin*in *şeyxlər*indən olub və *bu görüşü ümumən o dövrün şafi'i alimlər*inə nisbət edir. Said bin Muhəmməd əd-Dəv'ani ondan bu sözləri zikr etdikdən sonra deyir: "**əl-Buceyrimi dedi: "Mötəməd olan budur ki, ibrət (şəfəqin) itməsi ilədir.**"[2] Xülasə *budur ki, şafiilər* arasında bu məsələdə ixtilaf vardır.

Hənbəli alimlərindən bu barədə hesabla bağlı sözlər tapa bilmədim. Lakin İbn Qudəmə deyir: "**Vaxtları bilən etibarlı birindən azan eşidərsə onu təqlid edə bilər, çünki zahir olan budur ki, o, yalnız vaxt girdikdən sonra azan verir... insanlar hələ də məscidlərində və camilərində namaz vaxtlarında toplaşmağa davam edirlər və əgər azanın səsini eşitsələr namaz qılmağa qalxarlar və özlər vaxtı araşdırmağa və bildikləri əlamətləri müşahidə etməyə cəhd göstərmədən müəzzinin verdiyi azana əsaslanarlar. Onların bu etdiklərini heç kim inkar etməyib. Bu da bir icma sayılır.**"[3] İbn Qudəmə çox gözəl bilir ki, camilərdə xüsusilə hava tutqun olduqda muvaqqitlərin sözləri ilə əməl olunur. Bu da mütləq həmin icmanın içinə daxil olmalıdır. Bu da hesaba etimad etməyin icazəli olmasının dəlilidir. Burhənuddin Əbu İshaq İbn Muflih (vəfatı hicri 884) deyir: "**Əbul-Məali'nin kitabında və "ər-Riayə" kitabında deyilir: "Hava tutqun olduqda azan yoxdur, çünki (bu halda verilən azan müəzzinin) öz ictihadıdır, ona görə də o özü də ictihad etməlidir." Bu söz də öz növbəsində ona dəlalət edir ki, əgər müəzzinin vaxtları saatlar ilə bildiyini və ya bilən birinə təqlid etdiyini bilərsə onunla əməl edə bilər. əl-Məcd (İbn Teymiyyə) bu görüşü qətiyyətlə bildirmişdir.**"[4]

[1] "*Haşiyətuş*-Şərqavi alə Şərhit-Təhrir", 1/263;
[2] "Şərh əl-Muqaddimə əl-Hədramiyyə", 1/173;
[3] "əl-Muğni", 1/281;
[4] "əl-*Mubdi fi* Şərh əl-Muqni", 1/311;

Beləliklə də deyə bilərik ki, hava tutqun olduqda hesaba etimad etməyin icazəli olmasında dörd məzhəb arasında ittifaq vardır. Ümumən hesaba etimad etməyə gəldikdə isə mütəaxxir alimlərin əksəriyyətinin görüşü bunun da icazəli olmasıdır.

Kitabımızın axırında araşdırmamızda gəldiyimiz nəticələri qeyd edərkən bu bölməyə istinad edəcəyik.

Fayda: Namazın vaxtında şəkk edərək qılmaq

Mövzumuzun tamlığı üçün bəzi sualların cavabını da bilməyimiz lazımdır. Bu suallardan biri namazın vaxtının girdiyində şəkk edərək qılınan namazın hökmüdür; belə bir namaz səhihdirmi? Çünki kim əsaslandığı təqvimin doğru olub olmadığına şəkk edərək namazını qılsa qıldığı namazların hökmünü bilməsi lazımdır. Bu sualın cavabı üçün dörd məzhəbin alimlərinin sözlərinə nəzər saldıq.

Hənəfilərdən İbn Abidin haşiyəsində bu barədə deyir: "**Namazın səhihliyi üçün vaxtının girməsi şərtdir... əgər ibadətin vaxtının girməsində şəkk edərsə, lakin yenə də qılarsa və sonra vaxt girdikdən sonra qıldığı aydın olarsa onun üçün keçərli deyildir, necə ki, "əl-Əşbəh" kitabında niyyət haqqında araşdırmasında bunu deyir. Bunun üçün bir nəfər adilin azanı kifayət edir, əks təqdirdə özü araşdırar və güclü zənnə əsaslanar...**"[1]

Maliki üləmasından Şihəbuddin Abdurrahmən ibn Asəkir əl-Bəğdədi deyir: "**Kim vaxtın girməyində şəkk edərsə namazı qılmamalıdır, (vaxtın) daxil olduğuna dair tam yəqin olana qədər və ya güclü bir zənnə çatana qədər gecikdirməlidir.**"[2] Ona görə də Xalil müxtəsərində deyir: "**Əgər vaxtın girməyində şəkk edərsə (namazı) keçərli deyildir, hətta (namazın) vaxtın içində baş ver(diyini sonradan bil)sə belə.**"[3]

*Şafi'i alimlə*rindən İbn Həcər əl-Heytəmi deyir: "**Sözündən başa düşüldü ki, vaxtının girməyində şəkk edərək namaz qılmaq haramdır və hətta daha sonradan vaxtında qılındığı ortaya çıxsa belə keçərli deyildir, çünki hansısa bir əlamətə görə vaxtının girdiyi zənn olunmalıdır.**"[4] İbn Həcər özü bu əlamətlərə bə*zi misallar vermişdir.*

[1] "*Haşiyə*tu İbn Abidin", 1/370;
[2] "İrşədus-Səlik ilə *Əşrafil*-Məsəlik", səh: 13;
[3] "Muxtəsar Xalil", səh: 27;
[4] "Tuhfətul-Muhtəc", 1/437;

Vaxtında azan verməklə etibar olunan bir müəzzinin azanı, yaxud da çox sayda müəzzinin eyni anda azan verməsi kimi halları zikr edir.

İmam əl-Muvaffəq İbn Qudəmə deyir: "**Əgər vaxtın girməyində şəkk edərsə girməyindən əmin olana və ya güclü bir zənnə çatana qədər qılmamalıdır... ehtiyac üçün bir az gecikdirməsi müstəhəbdir.**"[1] Bu da hənbəli alimlərinin *görüşüdür və* əksər hənbəli kitablarında məzhəbin *görüş*ü olaraq bu zikr olunur. İbn Rəcəb deyir: "**Ən əfzəl olan vaxtının girdiyindən tam yəqin olana qədər namaz qılmamasıdır, lakin əgər (girdiyinə dair) güclü zənnə sahib olarsa o zaman namaz qılmaq onun üçün caizdirmi ya yox? Bu barədə iki görüş vardır. Birinci görüşə görə caizdir və bu, əs-Səvri, əş-Şafi və əshabımızın əksəriyyətinin görüşüdür. İkinci görüşə görə isə tam yəqin olana qədər caiz deyildir və bu, bizim əshabımıza və əş-Şafi'nin əshabına aid bir görüşdür... Əhməddən nass olaraq gələn isə budur ki, günəşin zeniti keçməsindən yəqin olmadan nə öz yaşadığı yerdə, nə də səfərdə zöhrü qılmamalıdır. İshaq da bunun kimi zöhr, məğrib və sübh namazları haqqında deyib, çünki bu namazları özlərindən əvvəlki namazlarla birləşdirmək olmaz. Lakin Malikin, Əhmədin və başqa imamların sözlərində olub ki, güclü zənni yəqinlik adlandırıblar...** "[2] Lakin əksər alimlərin və dörd məzhəbin mötəbər *görüşünə* görə vaxtın girməsi barədə güclü zənnə əsaslanaraq namazı qılmaq olar. Lakin namazın vaxtının girməyində şəkk edərək namaz qılmaq olmaz, haramdır və keçərli deyildir. *Ən az*ından insanda güclü bir zənn hasil olmalıdır ki, namazın vaxtı daxil olub.

[1] "əl-Muğni", 1/280;
[2] "Fəthul-Bəri", 4/313-315;

Fayda: Fəcrin bizim gözümüzdə aydın şəkildə seçilməsi şərtdirmi?

Allah – cəllə cələluhu – buyurur: "**Sübh açılınca ağ sap qara sapdan sizin üçün aydınca seçilənə qədər yeyib için.**" Bu ayədə "sizin üçün aydınca seçilənə qədər" sözləri keçir. Bu sözlərin təfsirində ixtilaf edilib. Burada "sizin üçün" şərtiyyət bildirir yoxsa şərtiyyət bildirmədən "aydınca seçilməni" qüvvətləndirmək mənasında gəlmişdir? Çünki bir şey "aydınca seçilərsə" o zaman bizim üçün görünür. Əgər birinci görüşü götürsək o zaman deməliyik ki, hər bir kəs üçün ayrılıqda fəcrin girdiyi aydınca seçilənə qədər sübh namazını qılmaq olmaz, amma səhuru yemək olar. İkinci görüşə görə isə əgər bir qisim üçün fəcrin girdiyi aydın şəkildə seçilərsə o zaman həmin yerdə yaşayan digər insanlar üçün də fəcr girmiş sayılır.

Bu barədə səhabədən gəlmiş bəzi xəbərlər birinci görüşü dəstəkləyir. Lakin səhih hədislər və qiyas ikinci görüşü dəstəkləyir. İbn Rüşd əl-Həfid deyir: "**Yeyib içməyi haram edən həddi üzərində ixtilaf ediblər. Bir qrup alim dedi: Bu, fəcrin özünün üzə çıxmasıdır. Bir qrup isə dedi ki, bu, ona baxanın gözündə onun aydın şəkildə seçilmiş olmasıdır, kimin üçün aydın şəkildə seçilməyibsə hətta (fəcr özlüyündə) girmiş olsa belə (onun üçün) aydınca seçilənə qədər ona (səhur) yemək mübahdır. Aradakı fərqin faydası budur: Girmədiyini zənn etdikləri fəcrin (vaxtının həqiqətdə) girmiş olduğu daha sonra üzə çıxarsa, kimə görə həddi (fəcrin) özünün girməsidirsə o, qəzanı tutmanı onlara vacib görəcək. Kim bunun (fəcrin girməyini) bilmək olduğunu deyirsə onlara qəza etməyi vacib görməyəcək. İxtilaf etməklərinin səbəbi Allahın – "sübh açılınca ağ sap qara sapdan sizin üçün aydınca seçilənə qədər yeyib için" – sözündəki bu ehtimaldır: aydınca seçilmənin özünə görə yoxsa aydınca seçilmiş bir şeyə görə imsak vacib olur? Çünki ərəblər məcazdan istifadə edirlər və metafora üslubunda bir şeyin nəticəsini həmin şeyin**

əvəzində istifadə edirlər.[1] **Sanki Allah – təalə - deyib: "ağ sap qara sapdan aydınca seçilənə qədər yeyib için". Çünki özlüyündə seçilərsə bizim üçün də seçilmiş sayılır. Beləliklə də buradakı "aydınca seçilmənin" bizə izafə olunması ixtilafa səbəb olmuşdur, çünki ola bilər ki, özlüyündə aydınlaşır və seçilir, lakin bizə aydın olmur. Ləfzin zahiri imsakın (fəcrin aydınca seçilməsinin insanlar tərəfindən) bilinməsinə bağlamağı vacib edir. Qiyas isə (fəcrin) özlüyündə firməyinə bağlamağı vacib edir; mən bunun günəş batmasına və zəval kimi digər şər'i vaxtların hədlərinə edilən qiyası qəsd edirəm, çünki bunların hamısında şəriətdə etibara alınan hadisənin özünün baş verməsidir, yoxsa bizim onu bilməyimiz deyildir.**" İbn Rüşd'ün bu izahının bu məsələlər haqqında xəbəri olanlar üçün kifayət qədər aydın olduğunu düşünürəm. Hökmün fəcrin özünün girməyi ilə bağlı olduğunu deyənlər dörd məzhəb ərbabıdır və dörd məzhəbin fəqihləri bunun üzərində ittifaq ediblər. İttifaq ediblər ki, əgər fəcr girərsə lakin havanı şiddətli şəkildə tutulmuş olması səbəbi ilə bu, bizə aydın olmasa belə oruclu üçün yeyib içmək haram olur. Zahirilər isə qiyası inkar etdikləri üçün ayənin zahirini əsas götürüblər və deyiblər ki, bu halda yeyib içə bilər. Peyğəmbərimizin – aleyhissalətu vassələm – İbn Umm Məktum'un azanına qədər yeyib içməyi əmr etməsi dörd məzhəbin görüşünü dəstəkləyir, çünki burada onun azanını eşidənə yeyib içməyin haram olmasının dəlili vardır. Əgər hökm hər bir kəs üçün fəcrin girdiyinin aydınca bilinməsi ilə bağlı olsaydı o zaman suhuru İbn Umm Məktum'un azanı ilə məhdudlaşdırmağın faydası olmazdı.[2]

[1] Yəni fəcr aydınca seçilərsə onun nəticəsi bizim üçün aydın şəkildə görünməsi olacaq. Ayədə də Allah – cəllə şənuhu - fəcrin aydınca seçilməsinin bizim tərəfimizdən görülməsini bu baxımdan fəcrin özlüyündə aydınca seçilməsi əvəzində işlədib, ona görə də hökm fəcrin özlüyündə aydınca seçilməsinə aid edilməlidir. Əgər bir qisim insanlar üçün fəcr aydınca seçilərsə o zaman hamı üçün bu hökm keçərlidir.

[2] Bu barədə geniş məlumat almaq istəyən yazdığımız "Azan verildikdən sonra səhura davam etmək" adlı məqaləmizi oxuya bilər. Orada cumhurun dəlillərini zikr etmişəm.

http://favaid.com/index.php/meqaleler/fiqh/118-azan-verildikden-sonra-sahura-devam-etmek

SON MÜZAKİRƏ

Kitabın sonuna gəldik. Bu bölmədə biz gəldiyimiz nəticəni oxuculara təqdim edirik. Mövzu haqqında qaldırılmış iddialara bir-bir münasibətimizi bildirmək istəyirik.

Birinci iddia: Mövzu barəsində yazanların bir hissəsi iddia edib ki, günəş üfüqdən 18 dərəcə aşağı olduqda görünən astronomik dan əslində yalançı fəcrdir. Bu iddia tamamilə batil bir iddiadır. Qədim zamandan bəri müsəlman heyətşünaslardan tutmuş müasir zamanımızda müsəlman və qeyri müsəlman astronomların hamısı yalançı fəcrin nə olduğunu gözəl bilirlər. Müasir astronomiya elmində yalançı fəcr "bürc işığı" olaraq tanınır. Kitabın əvvəlində bu barədə məlumat verdik. Onlar "bürc işığı" ilə astronomik danı bir-birindən ayırırlar. Heyətşünasların görüşlərini yazdıqda oxucunun diqqətinə çatdırdıq ki, bu heyətşünaslar o dövrdə yalançı fəcrin nə olduğunu gözəl təsbit etmişdilər. Eləcə də şəriət alimləri də heyətşünasların sözlərini oxuyublar və onlardan heç biri buna etiraz etməyib. Şəriət alimləri arasında əl-Qarafi kimi astronomiya elmini dərindən bilənlər olub. Mümkün deyildir ki, bu qədər heyətşünas və fəqihlərdən ibarət bir ümmət yalançı fəcrin təsbitində xəta etsin. Bu, ümməti zəlalət üzərində birləşməkdə ittiham etməkdir.

Araşdırmaların çoxu bu nöqtədə xəta edir. Misal üçün Şeyx Said əl-Xasələn'in araşdırmasında bu iddia edilir. Eləcə də "Əhkəmul-İbədət əl-Mutərattibə alə Tulu'il-Fəcris-Sadiq" kitabının müəllifi Abdullah əl-Ğufeyli də bu iddianı edir. Həmçinin Türkiyədəki "Süleymaniyyə Vəqfinin" məsul şəxsləri də bu batil təsəvvürə əsaslanırlar.

Yalançı fəcrin, yəni "bürc işığının" müasir elm tərəfindən izahını oxuyan və bunu anlayan hər bir kəs başa düşəcək ki, bunun günəşin üfüqdən 18 dərəcə aşağıda olması ilə əlaqəsi yoxdur, çünki bu dərəcə üfüqdə ilk günəş işıqlarının əmələ gəlməsi ilə bağlıdır. Yalançı fəcrdə isə işıltı yuxarıya doğru

uzanır, şimala və cənuba tərəf yayılmır. Birinci fenomenin Günəşlə Yerin arasındakı fəzada süzən toz dənəcikləri olduğunu daha əvvəl izah etmişdir.

İkinci iddia: *Başqa bir iddia budur ki, fəcr* əslində üfüqdə qızartı əmələ gəldikdə daxil olmuş sayılır. Bu iddianı da kitabımızda müzakirə etdik və göstərdik ki, bu məsələ şər'i bir məsələ olduğu üçün bunda əsaslanacağımız söz fəqihlərimizin sözləridir. Dörd məzhəbdən olan fəqihlərin sözlərini isə *kitabda uzun bir şə*kildə müzakirə etdik. Dörd məzhəbin ittifaqı ilə etibara alına ağ fəcrdir, qırmızı fəcr və ya qırmızı ilə ağ çalarları daşıyan fəcr deyildir.

Bu məsələ əslində müasirlərimizin xətalı nəticələrə gəlməsinin səbəblərindən biridir. Çünki biz təqvimlərin xətalı olduğunu deyənlərin həqiqi fəcrin tərifi haqqında dediklərini oxuduqda görürük ki, onlar həqiqi fəcrin üfüqdə görünən qızartı olduğunu deyirlər. Misal üçün misirli Muhəmməd *Raşid Rida, m*əgribli Təqiyyuddin əl-Hiləli kitablarında bu *görüşə* əsaslanırlar. Şeyx əl-Albani'nin də sözlərindən anlaşılır ki, o, ağ fəcr ilə üfüqdəki qızartı arasında fərq görmür, sadəcə olaraq fəcrin bəzən ağ işıqla girdiyini, bəzən də üfüqdə qızartı ilə girdiyini deyir. Amma kitabda apardığımız müzakirədən də oxucuya aydın oldu ki, fəqihlər bu ikisi arasında fərq qoyublar.

Üçüncü iddia: Aparılan müşahidələrin bir çoxunda 18 dərəcədə üfüqdə *heç bir şey görm*ədiklərini qeyd alıblar. Bunlar haqqında yuxarıda ətraflı məlumat verdik. Abdulməlik əl-Kuleyb'in araşdıması 16.5 dərəcəni, Said bin əl-Xasələn'in araşdırması isə 15 dərəcəni müdafiə edir. Lakin yuxarıda izah etdiyimiz səbəblərə görə indiki zamanımızda 18 dərəcədə üfüqdə gözlənilən işığı görməməyin izahı vardır. Bu isə müasir zamanımızda insan fəaliyyəti nəticəsində təbii ortamın d*əyişm*əsi ilə bağlıdır. İşıq çirklənm*əsi, aş* işığı, gözün həssaslığı burada əsas rol oynayan faktorlardandır. İşıqla çirkl*ənmiş gecə* səmasında təbii ki, üfüqdə əmələ gələn işıq çox gec hiss olunacaq, çünki səma kifayət qədər qaranlıq olmayacaq, həm də insan gözünün işığa həssas olması üçün gecəni təbii qaranlıqda keçirməsi lazımdır. Üstəlik *müşahidə*lərin bir çoxu daha əvvəl izah etdiyimiz kimi xətalı təsəvvürlər üzərində *qurulub. Onlar astronomik* şəfəqi yalançı fəcr zənn ediblər, həmçinin üfüqdəki qızartını fəcrin başlanğıcı olaraq qəbul ediblər. Fayda üçün zikr edək ki, İbn Abidin haşiyəsində deyir: "**Mərhum Alləmə Şeyx Xalil əl-Kəmili şeyxlərimizin şeyxi təhqiq sahibi Alləmə Əli Əfəndi əd-Dağistəni'nin "əl-Usturləb" risaləsinə yazdığı haşiyəsində deyir ki, iki fəcr arasındakı fərq**[1] **və eləcə də qırmızı və**

[1] Bu, hər zaman belə deyildir. Doğrudur ki, yalançı fəcr üç dərəcə öncə, yəni günəş təxminən 22 dərəcə üfüqdən aşağıda olduqda xüsusilə daha aydın görünür, lakin Yer kürəsinin müxtəlif yerlərdə havanın təmizliyindən asılı olaraq daha erkən görünə bilər. Ona görə də alimlərimiz bunun bəzən bir saat öncə göründüyünü yazıblar.

ağ şəfəqlər arasındakı fərq sadəcə üç dərəcədir."[1] Bu hər ikisi arasında sadəcə təxminən 15-25 dəqiqə fərqin olduğuna dəlalət edir. Bu, qırmızı və ağ şəfərqlər arasındakı fərq haqqında heyətşünaslarımızın dediyinə yaxındır. Şeyx İbn Abdirrazzəq əl-Fəsi deyir: "**(Heyətşünaslar arasındakı) mötəməd və səhih görüşə görə qırmızılıq ağartı üzə çıxdıqdan iki dərəcə sonra peyda olmağa başlayır. Əbu Əli əl-Mərrakeşi'nin "Cəmi'ul-Məbədi val-Ğayət" kitabında dediyi görüşə əsasən isə dörd dərəcə sonra çıxır.**"[2] *Birinci görüşə* əsasən qızartı fəcr girdikdən təxminən 10-15 dəqiqə *sonra, ikinci görüşə* görə isə 20-30 dəqiqə sonra görünür. Bu alimlərin söylədikləri *müşahidələrə* uyğun gəlir, çünki *müşahidələr* üfüqdə qızartının 16 dərəcədə, bəzən 15 dərəcədə göründüyünü təsdiqləyirlər. Bu, üfüqdəki ağartı mərhələsinin keçdiyini, yuxarıda izah etdiyimiz səbəblərlə görünmədiyini göstərir.

Burada önəmli bir sual ortaya çıxır. Əgər alimlərimizin dediyi kimi etibara alınan fəcrin görünməsidirsə, astronomik hesablama deyilsə o zaman necə fəcri üfüqdə görmədən təqvimlərə etibar edə bilərik? İbn Teymiyyə'nin sözlərini bir daha xatırlayaq: "**Bunun səma cisminin hərəkətinə görə belə olduğunu güman edənlər buna əsasən ölçüblər, ona görə də hesablarında xəta ediblər.**" Bu suala cavabımız budur ki, fəcrin müddətini əvvəlki əsrlərdə daha uzun, bizim zamanımızda isə qısa ola bilməz. Doğrudur ki, indiki zamanımızda insan əməyinin törədiyi işıq çirklənməsi, hava çirklənməsi nəticəsində biz üfüqdə fəcri gec görürük. Lakin bunu biz İbn Teymiyyə'nin zikr etdiyi buxarlara qiyas etməməliyik, bunu biz hava tutqunluğuna qiyas etməliyik. Daha əvvəl də alimlərdən gətirdiyimiz nəqllərlə göstərdik ki, hava tutqunluğu halında dəqiq alətlərə etimad edərək namazların vaxtını müəyyən etmək caizdir, hətta əl-Qarafi bu barədə icmanın olduğunu deyir. Əks təqdirdə deməliyik ki, son iki əsrdə insan əməyi nəticəsində fəcrin müddəti qısalmışdır. Bu isə şər'i həqiqətə ziddir, çünki fəcrin müddətini müəyyən edən Allahdır, insan əməyi ilə dəyişməz.

İbn Həcər əl-Heytəmi, İbnul-Arabi əl-Məliki və digər alimlərin *müşahidələrə* etimad etməyin etibarlı olması barədə dediyi sözləri də onların dövrünə görə anlamaq lazımdır. Onların zamanında şəhərlər indiki şəhərlərimiz qədər böyük olmayıb. Kiçik şəhərlərdə şərqə doğru ən uzaqda duran məscidin azan verməsi ilə şəhərdəki digər məscidlər də azan verərdi. Bizim zamanımızda belə bir şey yalnız kənd və ya rayon miqyasında üfüqün maneəsiz göründüyü bəzi yerlərdə mümkündür. Lakin urbanizasiyanın zirvəsini fəth edəcəyimiz bir zamanda yaşayırıq. Şəhərlərimizdə milyonlarla insan yaşayır. Müşahidələrə əsasən hər gün üçün müsəlmanlara namazların

[1] "*Haşiyə*tu İbn Abidin", 1/359;
[2] "İydahul-Qavlil-Haqq", səh: 6

vaxtlarını çatdırmaq imkansızdır. Şəriətimiz müsəlmanları bu qədər sıxıntıya salacaq qədər dar deyildir, əksinə şəriətimizdə bu sıxıntını da aradan qaldıracaq qədər genişlik vardır. Bunun üçün şəriətimizdə qaydalar mövcuddur. "**Məşəqqət asanlığı cəlb edir.**"[1] əş-Şafi' və digər alimlərimizin səsləndirdiyi bir başqa qayda isə belə səslənir: "**İş daralarsa (hökmü) genişlənər.**"[2] Bu da çox ciddi bir məşəqqətdir. Bu məsləhəti nəzərə almaq şəriətimizin ruhuna müvafiqdir.

Xüsusilə də nəzərə almalıyıq ki, 18 dəcərədə fəcrin girdiyi bir çox müşahidələr ilə sübut olunub. Şeyx Əbu Bəkr əl-Cəzəiri'nin iskəndəriyyəli şeyxlər ilə birlikdə səhraya çıxaraq apardıqları müşahidədə fəcrin 18 dərəcədə girdiyini görüblər. Eləcə də Yəməndə, Liviyada, Səudiyyədə, Pakistanda, Türkiyədə aparılmış müşahidlər də bunu təsdiqləyib. Əgər 18 dərəcədə fəcr görünübsə bu, hesablamanın doğruluğunu göstərir. Həmçininin əsrlər boyunca müşahidə aparmış alimlərimizin şahidlikləri də kifayət etməlidir.

Dördüncü iddia: Süleymaniyyə vəqfinin təmsilçiləri iddia edirlər ki, həqiqi fəcr günəş doqquz dərəcə aşağıda olduqda girir. Bu, isə tarixən müsəlman ümmətində bilinən fəcr vaxtının yarısını təşkil edir. Bu bütün ölçülərə görə batil və absurd bir rəydir. Bu vaxt artıq günəşdən öncə səmanın tam qızarmağa başladığı vaxta yaxındır. Alimlər isə namazı bu vaxta qədər gecikdirməyi məkruh sayıblar. İmam ən-Nəvəvi deyir: "**Heç bir üzr olmadan sübh namazını qırmızılığın üzə çıxdığı vaxta qədər, yəni günəşin doğmasından az öncə olan qırmızılığa qədər təxirə salmaq məkruhdur.**"[3] Üstəlik hədislərdən də gördüyümüz kimi peyğəmbərimiz – aleyhissalətu vassələm – sübh namazını qıldırıb qurtardıqda qadınlar evlərinə qayıdardılar və qaranlıqdan onları heç kim tanımazdı. Həmçinin sübh namazını qılıb qurtardıqda namazda oturanlar bir-birilərinin üzünə yaxından baxdıqda tanıyardılar. Bu ona göstərir ki, sübh girdikdə insanın üzünü görə bilməyəcək qədər qaranlıq olurdu. Yenə hədislərdə gələn vəsflərə görə səmadakı ulduzlar hələ də parlaq görünürdü və çoxluğundan bir-birinə qarışmış halda vəsf olunmuşdur. Heç kimdə şübhə olmamalıdır ki, Süleymaniyyə vəqfinin tərtib etdiyi təqvim fəcr vaxtını çox-çox gec göstərir.

[1] Ibn əs-Subki, "əl-Əşbəh van-Nəzair", 1/49; əz-Zərkəşi, "əl-Mənsur fi Qavaidil-Fiqh", 3/169;
[2] "əl-Mənsur fil-Qavaid əl-Fiqhiyyə", 1/120-121;
[3] "əl-Məcmu Şərh əl-Muhəzzəb", 3/44;

YEKUN

Biz bu yazımıza başlayarkən ümmətin əksəriyyətinin istifadə etdiyi təqvimlərə etiraz edənlərin haqlı olduqlarını düşünərək başlamışdıq. Lakin bu barədə hər iki tərəfin hazırladığı materialları oxuduqdan sonra qənaətimiz dəyişdi. Əvvəl tutduğumuz mövqeyin xətalı olduğunu anladıq. İndiki qənaətimiz budur ki, ən doğru ölçü 18 dərəcədir. Heyətşünasların əksəriyyətinə görə günəş üfüqdən 19 dəcərə aşağıda olduqda fəcrin ilk şüalarını üfüqdə görmək olur. Lakin biz həmin şüaların yayılması üçün və ayədə keçən "təbəyyün", yəni aydın bir şəkildə seçilmənin hasil olması üçün 18 dərəcənin ən doğru olduğuna inanırıq.

Ona görə də təqvimə əsasən qılınan sübh namazının səhih olduğunu düşünürük. Kim ehtiyat üçün sübh namazını gecikdirərsə bunun sünnətə uyğun olduğunu da təsdiqləyə bilərik. ət-Tirmizi "əs-Sünən"də Rafi bin Xudeyc'dən belə dediyini rəvayət edir: "**Allahın elçisini – səlləllahu aleyhi va səlləm –belə deyərkən eşitdim: "Fəcr namazınız ilə isfər edin, çünki bunun əcri daha çoxdur.**"[1] Daha sonra ət-Tirmizi deyir: "**əş-Şafi'i, Əhməd və İshaq dedi: "İsfər'in mənası fəcrin heç bir şəkk qalmayacaq şəkildə aydınlaşmasıdır".**" Bu hədisi rəhbər edərək sübhü məscidlərdə bir qədər gec qılanlar sünnətə müvafiq hərəkət etmiş olurlar. Lakin 18 dərəcəyə əsaslanan təqvimə tabe olaraq namazlarını qılanların namazlarının səhih olmasında şəkk etmirəm. Doğrusunu Allah bilir!

[1] ət-Tirmizi (154);

Məsələ haqqında yazılmış ədəbiyyat

Bu məsələni araşdırmaq istəyənlər üçün işi asanlaşdırmaq üçün bu mövzu haqqında yazılmış ədəbiyyat haqqında qısa tanışlıq vermək istərdik. İlk öncə bizim gəldiyimiz nəticələrə müvafiq olan kitabları, daha sonra müxalif olan kitabları qeyd edəcəm.

Müvafiq olanlar

"إيضاح القول الحق في مقدار انحطاط الشمس وقت طلوع الفجر وغروب الشفق"
(İydahul-Qavlil-Haqqi fi Miqdari İnhitatiş-Şəmsi vaqtə Tulu'il-Fəcri va Ğurubiş-Şəfəqi)
Muhəmməd bin Abdirrazzəq bin Abdilvahhəb əl-Fəsi[1]

"طلوع الفجر الصادق بين تحديد القرآن وإطلاق اللغة"
(Tulu'ul-Fəcris-Sadiqi beynə Təhdidil-Quran va İtlaqil-Luğa)
İbrahim bin Muhəmməd əs-Subeyhi[2]

"إشكاليات فلكية وفقهية حول تحديد مواقيت الصلاة"
(İşkəliyyət Fələkiyyə va Fiqhiyyə həvlə Təhdid Məvaqit əs-Salət)
Muhəmməd Şövkət Avdə

Müxalif olanlar

"البشر بتصحيح وقت صلاتي العشاء والفجر"
(əl-*Bişr bi T*əshih Vaqt Salətеyyil-İ'şə val-Fəcr)
Əbu Abdirrahmən Muhəmməd bin Saləh ən-Nəcdi

"توقيت الفجر بين التخطئة والتصويب"
(Təvqit əl-Fəcri beynət-Təxti'əti vat-Təsvib)
Əbu Musa Muhəmməd bin Musa əl-Misri

"تصحيح وقت أذان الفجر"
(Təshih Vaqt Əzənil-Fəcr)
Abdulməlik Əli əl-Kuleyb

[1] Bu kitab mövzu haqqında oxunması gərəkən ən önəmli kitabdır, çünki müəllifi həm şəriət elmlərini, həm də astronomiya elmlərini çox gözəl bilib. Kitabda xüsusilə müsəlman heyətşünasların sözlərini bir arada çox gözəl şəkildə toplayıb və məsələnin həm də şər'i tərəfinə də toxunur.

[2] Şeyx İbrahim əs-Subeyhi'nin ümumiyyətlə fiqh haqqında yazdığı kitabları çox faydalıdır. Kitablarını ümumiyyətlə oxumağı məsləhət görürük.

"الفائق في بيان الفجر الصادق"
(əl-Fəiq fi Bəyənil-Fəcris-Sadiq)
Əbu Abdilləh Əhməd bin Əbil-Ayneyn

"بيان الفجر الصادق"
(Bəyənul-Fəcris-Sadiq)
Təqiyyuddin əl-Hiləli

"أحكام العبادات المترتبة على طلوع الفجر الثاني"
(*Əhk*əmul-İbədət əl-Mutərattibə alə Tulu'il-Fəcris-Səni)
Abdullah bin Mənsur əl-Ğufeyli